**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI SLAVYAN UNİVERSİTETİ**

**Səməngül Qafarova,**
**Ellada Gərayzadə**

# AZƏRBAYCAN ƏDƏBİYYATININ TƏDRİSİ TARİXİ

***DƏRS VƏSAİTİ***

*Azərbaycan Respublikası Təhsil nazirinin 08.06.2010-cu il tarixli 769 №-li əmri ilə təsdiq edilmişdir.*

**Bakı – 2010**

***Tərtib edənlər:***

**Səməngül Hüsü qızı Qafarova,**
*filologiya elmləri namizədi*

**Ellada İsa qızı Gərayzadə**
*filologiya elmləri namizədi, dosent*

***Redaktor:***

**Quliyev İlkin Etibar oğlu**
*filologiya üzrə fəlsəfə doktoru*

***Rəyçilər:***

*professor* **Ə.Hüseynov,**
*dosent* **F.Musayeva,**
*dosent* **D.Əliyeva,**
*dosent* **Ş.Əliyeva**

**Səməngül Qafarova, Ellada Gərayzadə.**
Azərbaycan ədəbiyyatının tədrisi tarixi. *Dərs vəsaiti.*
– Bakı: Mütərcim, 2010. –136 səh.

$$Q\frac{4306010000}{026}79-10$$

© S.Qafarova, E.Gərayzadə, 2010

# GİRİŞ

Azərbaycan ədəbiyyatının tədrisi metodikası elminin formalaşması böyük bir inkişaf mərhələsi keçmişdir.

Ədəbiyyatın tədrisi metodikasının bir elm kimi formalaşması, əsasən, XIX əsrlə bağlıdır. Lakin Azərbaycan ədəbiyyatının özü kimi, tədrisi tarixi də qədimdir. Ədəbiyyatın tədrisi metodikasının bir elm kimi formalaşmasına təsir göstərən ilk müəllim xalq olmuşdur. Qədim dövrlərdə zəngin və rəngarəng Azərbaycan folkloru valideynlər tərəfindən şifahi yolla tədris edilmiş, bu işdə bəlkə də ilk müəllimlər olmuşlar. Analar laylalarla körpələrini yatırmış, bayatı və nəğmələrlə onlara təsir etmiş, mənəvi qida vermişlər. Sonrakı mərhələ isə qədim və orta əsrlərdə mövcud məktəb və mədrəsələrlə bağlı olmuşdur. Bu dövrlərdə Gəncə, Təbriz, Şamaxı və digər şəhərlərdə fərdi məktəblər fəaliyyət göstərmişlər.

Azərbaycanda ərəb istilasından sonra ilk məscid məktəbləri VII əsrdən mövcuddur. Bu mədrəsələrin təməli ərəblərin Azərbaycana hücum etməsindən sonra qoyulmağa başlayır. Ərəblər öz siyasətlərini həyata keçirmək üçün məktəblər açmağa və orada bu siyasəti həyata keçirməyə qabil insanlar tərbiyə etməyə çalışırdılar.

O zamanlar riyaziyyat, fəlsəfə, tibb, məntiq, əxlaq, coğrafiya, nəhv, musiqi və s. fənlər üzrə ərəb dilinə tərcümə edilmiş yunan elmi əsərlərindən geniş istifadə olunurdu. Həmin əsərlərdən Azərbaycanda uzun zaman dərs vəsaiti kimi istifadə edilmişdi. Bu əsərlərin ərəb dilinə tərcümə olunmasında və təbliğ edilməsində Azərbaycan mütəfəkkirlərindən Əbülhəsən ibn Harunəzzəncani, Xətib Təbrizi, Əttiflisi, ibn Bakúyə və b.-nın böyük rolu olmuşdur.

Qədim dövrlərə nisbətən, orta əsrlərdə məktəb və mədrəsələrdə canlanma hiss edilir. XI əsrdən fars dili poeziya dili kimi formalaşmağa başlayır. Məktəb və mədrəsələr məscidlərin nəzdində yaradılır və burada, əsasən, mollalar və dini təhsil almış insanlar dərs deyirdilər. Bu məktəblərdə əvvəlcə ərəb əlifbası, sonra isə Quran tədris olunurdu. Quranın tədrisi 3 – 4 il davam edirdi. Sonra farsca yazılmış “Gülüstan”ın oxusu tədris olunur, axırda isə məzmunu ata-

nın oğluna nəsihətlərini təşkil edən "Nanü halva" ("Çörək və halva") öyrədilirdi.

Sonrakı dövrlərdə Azərbaycan məktəblərində ərəb və fars dilləri əsas tədris dili hesab edilir, bununla yanaşı Azərbaycan dilindən də köməkçi tədris vasitəsi kimi istifadə olunmuşdur.

XI əsr mütəfəkkirlərindən Qətran Təbrizi və Xətib Təbrizi kitaba, təhsilə və təlimə böyük yer vermiş, fərdi yolla tələbələrinə hikmət öyrətmişlər. Xətib Təbrizi Bağdadda Şərqin ilk universiteti hesab olunan «Nizamiyyə» mədrəsəsinin yaranmasında, orada zəngin kitabxananın toplanmasında fəallıq göstərmiş, 40 ilə yaxın həmin kitabxanaya və eyni zamanda dil və ədəbiyyat kafedrasına rəhbərlik etmişdir.

XII əsrdə mədrəsələr, əsasən, Təbriz, Marağa, Naxçıvan və Gəncə şəhərlərində mərkəzləşir. Bu dövrdə Şamaxı yaxınlığındakı Məlhəm kəndində Kafiəddin Ömər ibn Osmanın başçılığı ilə tibb mədrəsəsi fəaliyyət göstərir. Kafiəddin Ömər ibn Osman Xaqani Şirvaninin əmisi olmuş, ona dərs demişdir. Xaqani Şirvani "Töhfətül-İraqeyn" əsərində əmisinin müəllimlik məharəti və bacarığı barədə məlumat vermişdir. Kafiəddin Ömər mədrəsədə zəngin kitabxana yaratmışdır. O, bir müəllim kimi əzbərçiliyin əleyhinə olmuş, şüurlu mənimsəməyə və təkrar oxuya üstünlük vermişdir. Tədris zamanı şagirdlərə din qanunları ilə bərabər dil qanunlarını da öyrətməyə çalışmışdır.

XIII əsrdən başlayaraq Naxçıvanda çoxlu saray, mədrəsə, məscid tikilir. Bu dövrdə Möminə xatun məqbərəsində və eləcə də başqa mədrəsələrdə çalışan müəllimlərin tələbələrlə qarşılıqlı münasibəti haqqında məlumatlar var. Həmin mədrəsələrdə dünyəvi elmlər tədris olunurdu. Maraqlıdır ki, bu mədrəsələrdə sxolastik təlim üsullarına qarşı bir sıra mütərəqqi təlim üsulları irəli sürülmüşdür. Bunların hamısı hələ XI – XII əsrdən Azərbaycanda məktəb təhsil sisteminin inkişafına təsir göstərmişdir.

Orta əsr məktəb və mədrəsələrin müsbət cəhətləri çox olmuşdur. Belə ki, məktəblərdə qiymətli əlyazma nüsxələrinin üzü köçürülüb çoxaldılır və yayılırdı.

Bu dövrdə məktəb və mədrəsələrdə mükəmməl proqram və dərsliklər olmadığı üçün Azərbaycan ədəbiyyatı inciləri əsas mənbə rolunu oynayırdı. Nizami Gəncəvinin "Xəmsə", Məhəmməd Füzulinin "Leyli və Məcnun»" əsərlərindən tədris vəsaiti kimi istifadə olunurdu.

Tərtib etdiyimiz dərs vəsaiti Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası ixtisası üzrə oxuyan magistrlər üçün nəzərdə tutulmuşdur. Dərs vəsaiti 3 hissədən ibarətdir. I hissədə Qədim və Orta əsrlərdə Azərbaycan maarifinin inkişafı, təşəkkül tarixi haqqında mənbələrin şərhini verməyə çalışmışıq. Bu dövrlərdə ədəbiyyatın bir fənn kimi tədris olunması məsələsini gündəmə gətirmişik. Məktəb və mədrəsələrdə ədəbiyyatın tədris olunmasının əhəmiyyəti haqqında məlumatları aydınlaşdırmağa çalışmışıq.

Təqdim etdiyimiz dərs vəsaitindən nəinki magistrlər, hətta bakalavr pilləsində təhsil alanlar, müəllimlər və eləcə də geniş oxucu kütləsi də istifadə edə bilər.

Xahiş edirik təklif və rəylərinizi ladaisa@rambler.ru elektron ünvanına göndərəsiniz. Buna görə sizə əvvəlcədən minnətdarlığımızı bildiririk.

# AZƏRBAYCAN ƏDƏBİYYATI TƏDRİSİNİN QAYNAQLARI

## *Azərbaycanda qədim maarif ocaqları və təlim-tərbiyə işinin ilkin nümunələri*

Qədim Azərbaycanda təsərrüfatın əsasını ovçuluq təşkil etmişdir. Tərbiyə işi isə sadə əmək alətləri və silah (nizə, ox və kaman) düzəltmək vərdişlərini, heyvanları ovlamaq üçün silah işlətmək bacarığını və dini ayinləri aşılamaqla məhdudlaşırdı. Ovçuluq əməliyyatı və ayin mərasimlərinin gənc nəslə öyrədilməsi və yaddaşlarda qalması üçün yazının ilk növü kimi piktroqrafik yazıların böyük əhəmiyyəti olmuşdur. Piktroqrafik yazılarda müəyyən ifadəli hərəkətlər təcəssüm etdirilirdi. Əslində, sözləri və ya ifadələri piktroqrafik yazılar vasitəsi ilə təcəssüm etdirmək bacarığı qədim Azərbaycan icma həyatında savadın məzmununu təşkil etmişdi. Yəni, savadın ilk növü kimi, «icma savadına» yiyələnmiş yaşlılar piktroqrafik yazılar barədəki bilik və təcrübələrini bu və ya digər formada gənclərə öyrədirdilər. Məişət mədəniyyəti, əsasən, piktroqrafik yazılar vasitəsi ilə gənc nəslə aşılanırdı. Qobustanın qayaüstü rəsmləri (miladdan əvvəl X – XII əsrlər) sırasında böyük zövqlə çəkilmiş belə şəkillərə tez-tez rast gəlmək olur. İcma quruluşunda Qobustan qayaüstü rəsmləri yazı vasitəsi kimi istifadə edilirdi. Bu yazılar vasitəsilə qəbilə üzvlərinin vəzifələri, qurban vermək ayinləri, eləcə də ov məşğələlərindən və s. göstərilirdi. Dini səciyyəli yazılar qəbilədə dini ayinləri yerinə yetirmək üçün əyani vəsait kimi də təcrübi əhəmiyyət daşıyırdı.

Qobustanın qayaüstü rəsmlərini tədqiq etmiş mütəxəssislər yazırlar ki, orada «böyük öküz rəsmlərində nizə və ox izləri indi də görünür». Deməli, Qobustanda yaşayan qədim insanlar vəhşi öküz ovlamağı öyrənmək məqsədi ilə qaya üstündə iri ölçüdə çəkilmiş öküzün şəklinə nizə, yaxud ox atmaqla təcrübi şəkildə ov məşqi keçirmişlər. Gənclər məşq prosesində ovlanacaq heyvanın bəzi xüsusiyyətlərini ağsaqqallardan öyrənir, ovu sərbəst nişana almaq və si-

lahdan bacarıqla istifadə etmək vərdişlərinə yiyələnirdilər. Belə qənaətə gəlmək olar ki, ibtidai şəkildə də olsa, əyani vəsaitlərlə müşayiət edilən təcrübi məşğələlərin əhəmiyyəti Azərbaycanın ən qədim sakinləri üçün məlum olmuşdur.

Ov məşqi üzrə icma üzvlərinin ovdan əvvəl necə məşq etdiklərini əks etdirən və daş dövrünə aid olan rəsm kompozisiyaları da Qobustan qayaüstü rəsmləri sırasında mövcuddur. Bu rəsmlərdə gənclərin silahdan istifadə etmək və öküz ovlamaq bacarıqlarının da nümayiş etdirilməsi mərasimi nəzərdə tutulmuşdur. Təcəssüm etdirilən mərasimlər, əslində, gənclərin lazımi bacarıq və vərdişlərə yiyələnmələrinin yoxlanması prosesinin, onların ovçuluq təsərrüfatı həyatına qəbul edilməsi qaydasının əks etdirilməsi kimi də başa düşə bilərik. Ovçuluq və ov məşqləri ilə bağlı olan təsvirlərdə qəbilənin gündəlik işləri, qəbilə üzvlərinin vəzifələri, dini ayinlər, animistik[1] təsəvvürlər təcəssüm etdirilirdi. Əslində, bunlar qəbilə üzvləri üçün yaddaş və əyani vəsait rolunu daşıyan süjetli şəkli yazılar idi. Məsələn, daş dövrünə aid olan qayaüstü bir təsvirdə yallıya oxşar qrup rəqsi, tunc dövrünün piktoqramlarının birində isə heyvanların qurban kəsilməsi ayininin icrası təcəssüm etdirilmişdir.

Qədim Azərbaycanda mərasim rəqsləri vasitəsi ilə gənclərdə birgə əməyə həvəs, cəsarət, qoçaqlıq və çeviklik keyfiyyətləri tərbiyə edilirdi. Uşaqlar xüsusi rəqsləri və ya oyunları rəsmlərdə, eləcə də həyatda müşahidə etməklə qəbilənin ənənə və adətlərini mənimsəyirdilər. Hətta ibtidai insan cəmiyyətində mövcud olan kosmoqonik[2] təsəvvürlər də şəkli yazılar vasitəsi ilə gənc nəslə çatdırılmışdır. Azərbaycanda bu cür şəkli yazıların yayılması üçün dulusçuluq və bədii metal məmulatlarından geniş istifadə edilmişdir. Qarabağ, Qazax, Naxçıvan və Mil düzü rayonlarında bədii dulusçuluq məmulatı istehsalı eramızdan əvvəl ikinci minillikdə inkişaf etmişdir. Bu-

[1] animistik – (animizm söz. sif.) ibtidai insanların hər şeydə ruh olmasına inanmasına aid olan.
[2] kosmoqonik – (космогония söz. sif.) kainatın əmələ gəlməsi proseslərinə aid olan;

na Qazax rayonunun Babadərviş adlı qədim yaşayış məskənində tapılmış qabların naxışları misal ola bilər.

Mütəxəssislərin fikrincə, Babadərviş piktoqramlarının birində quş və keçi timsalında göy və yer qarşılaşdırılmışdır. Burada torpağın göyə qarşı sitayişi və yağışa olan təmənnası ifadə olunmuşdur. Hətta, xeyir və şər qüvvələr arasında gedən mübarizənin şəkli yazılar vasitəsi ilə nəql edilməsinə da təsadüf edilir. Məsələn, Gədəbəydə tapılmış tunc kəmərin piktoqramında işıqla qaranlığın, həyatla ölümün mübarizəsi günəşi təmsil edən şirin və qaranlıq dünyanın rəmzi olan təkbuynuzlu əfsanəvi heyvanın simvolik şəkillərlə ifadə olunmuşdur.

Şəkli yazılarda ictimai hadisələr, ayin mərasimləri, təbiət və kainata aid animistik və kosmoqonik təsəvvürlər simvolik işarələrlə göstərilirdi.

Qədim Azərbaycanda yazının ilk növü kimi şəkli yazılara Qobustandan başqa, Şüvəlan qəsəbəsində, Ordubad yaylaqlarında, Kəlbəcər dağlarında və Cənubi Azərbaycanın Qaradağ bölgəsində rast gəlmək mümkündür.

İctimai həyat və ideologiyanın müxtəlif sahələrinə aid təsvirli yazıların geniş yayılması vaxtı ilə Azərbaycanın qədim sakinləri arasında piktroqrafiya mədəniyyətinə dair təlim işinin varlığı və yayılması müddəasını irəli sürməyə haqq qazandırır.

Qobustanın bir sıra təsvirli yazıları nümunəsində naşı əllərlə cızılmış natamam təsvirli yazılar müşahidə olunur. Bu onu göstərir ki, Qobustanın bir sıra piktoqramları buranın qədim sakinləri tərəfindən təsvirli yazı bacarığı əldə etmək üçün nümunə və əyani vasitə kimi istifadə edilmişdir.

*Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar*:

✓ Qədim Azərbaycanda «savadlılar» şəkli yazıları rəsm etmək və başa düşmək bacarığına yiyələnənlərdən ibarət olmuşlar. Bu ilk savad növünü şərti mənada «icma savadı» adlandırmaq olar.

✓ Təsvirli yazılardan baş çıxarmaq, yaxud hadisələri təsvirli yazı vasitəsi ilə təcəssüm etdirməyi bacarmaq qədim Azərbaycanda icma savadının məzmununu təşkil etmişdi. İcma savadına yiyələnmiş dədə-babaların bilik və təcrübələri bu və ya digər formada gənc

nəslə aşılanırdı. Məişət mədəniyyəti şəkli yazılar, mərasim rəqsləri və təqlid üsulu ilə gənc nəslə öyrədilirdi. Həmin şəkli yazılar qədim Qobustan sakinlərinin təfəkkür tərzini və bu dövrlərə məxsus olan öyrətmə və öyrənmənin, başqa sözlə, təlim işi mədəniyyəti ünsürlərinin ilkin və ibtidai şəkildə varlığını bildirir. İbtidai icma quruluşunda əqli tərbiyə və əmək tərbiyəsi işi rüşeymləri bu cür formalaşırdı.

***Sual:***

Qədim Azərbaycanda yaşayan ibtidai insanların bədii təfəkkürü və rəsm mədəniyyəti haqqında nə demək olar?

***Cavab:***

Qobustanın rəsmləri sırasında Mezolit dövrünə (miladdan əvvəl X – XII əsrlərə) aid çoxfiqurlu rəqs kompozisiyaları diqqəti cəlb edir. Rəsmlərdə rəqs edən insan fiqurlarının ritmik ardıcıllıqla təkrarı icma həyatında bədii təfəkkürün inkişafını əks etdirir.

Məsələn, Eneolit dövrünün (IV minillik) ilk əsrlərində Qobustan qayaları üzərində iri ölçüdə maralların bədən quruluşu verilmişdir. Diqqətlə baxanda görünür ki, heyvanların boyunları və başları çox zərifdir. Lakin maralların duruşunda qüvvət və əzəmət hiss olunur. Bu rəsmlər naturadan çəkilmiş sənət əsərləridir (İ.M.Cəfərzadə).

## ***Qədim Azərbaycanda maarif və təhsil***

Azərbaycanda məktəb təhsili tarixinin başlanması, adətən, VIII – IX əsrlərə aid edilir. Buna görə də ən qədim dövrlərdən başlamış ərəb istilasına qədər təlim, tərbiyə və məktəb təhsilinin tarixi kölgədə qalmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanda miladdan əvvəl zoroastrizmin meydana gəlməsi ilə tədricən Zərdüşt məktəb sistemi formalaşıb inkişaf etmişdir. Hələ Zərdüşt məktəb təhsil sistemindən əvvəl mütəşəkkil təlim və tərbiyə sistemi olmasa da, kortəbii təlim və tərbiyə formalarının ibtidai dövrü olmuşdur.

Azərbaycan qədim mədəniyyət tarixinə malikdir. Qobustanın qayaüstü rəsmlərində mədəniyyət, təlim və tərbiyənin ən qədim tari-

xi köklərini görmək olar. Bu rəsmlərin sırasında kişi dəstəsinin ifadəsində yallıya oxşar bir mərasim rəqsi təcəssüm etdirilmişdir. Qədim Azərbaycanda bu kimi mərasim rəqsləri vasitəsilə gənc nəslə birgə əmək həvəsi, cəsarət, qoçaqlıq, cəldlik keyfiyyətləri tərbiyə edilirdi. Uşaqlar xüsusi rəqsləri, oyunları müşahidə etməklə qəbilə, tayfa ənənə və adətlərini mənimsəyib yadda saxlayırdılar. O dövrdə təlim və tərbiyənin ibtidai və bəsit forması belə idi.

**Manna dövlətində təlim-tərbiyə.** Miladdan əvvəl I minilliyin başlanğıcında Güney Azərbaycan ərazisində sakin olan qədim tayfaların bir hissəsini mannalılar təşkil edirdi. Onların sakin olduqları ərazi Manna adlanırdı. Urmiyanın ətrafından miladdan əvvələ aid əldə edilmiş arxeoloji tapıntıların (qızıl cam, qızıl döşlük, qızıl bilərzik, gümüş piyalə) üzərindəki bədii naxışlar Mannada rəssamlıq və musiqi sahəsində təlim işlərinin varlığını əks etdirir. Bəzi mənbələrə görə, mannalılar yazıdan istifadə etmişlər. Yazı olan yerdə isə oxu da olmalıdır. Yazı və oxunun tətbiqi üçün savad təliminə ehtiyac olduğundan Mannada hakim sinfə mənsub ailələrin uşaqlarına savad öyrədilməsini güman etmək olar. Əlbəttə, bu, təlim və tərbiyə işinin sistem halına düşməsi və mütəşəkkil surətdə həyata keçirilməsi mənasında başa düşülməməlidir. Bu dövrdə sehr-cadu və bütlərin iradəsi cəmiyyətin əsas hərəkətverici qüvvəsi sayılırdı. İctimai həyatda əmək və tərbiyənin həlledici rolu hələ mannalılar tərəfindən dərk edilmədiyi üçün onun tətbiqində mütəşəkkillik və məqsədyönlülük də ola bilməzdi. Buna görə də Manna tarixinin bu inkişaf mərhələsində sistemli məktəb təhsilinə təsadüf olunmur. Yeniyetmələrin tərbiyəsinə gəldikdə bu, bütpərəstlik ayinlərinin, meydan tamaşalarının, maddi nemətlər əldə edilməsinin və məişət tərzinin müşahidəsi ilə məhdudlaşırdı. Ümumi təlim və tərbiyə kortəbii olaraq təqlid yolu ilə həyata keçirilirdi.

**Midiya dövlətində təlim-tərbiyə**. Manna dövləti süqut etdikdən sonra ərazisi Midiya dövlətinin vilayətləri sırasına keçdi. Bu da Midiyada sinifli cəmiyyətin inkişafı ilə nəticələndi. İctimai həyatda baş verən bu əsaslı dəyişikliklər yeni ictimai baxışların meydana

gəlməsinə səbəb olmuşdur. Azərbaycan ərazisində zoroastrizmin (Zərdüşt dini) yayılmasına başlanmışdır.

Əgər Mannada (tayfa quruluşunda) şər hadisələrin (zülmət, quraqlıq, qıtlıq, xəstəlik və s.) qarşısının alınması üçün bütlərə yalvarılırdısa, sehr və caduya əl atılırdısa, Midiya ictimai həyatında baş verən yeni dəyişmələrə uyğun olaraq təbiət hadisələri və xalq təsərrüfatı sahəsində bilik və mütəşəkkil əmək fəaliyyətinin həlledici rolu duyulurdu.

**Zoroastrizm məktəbi.** Zoroastrizmin ayinləri və prinsiplərindən məlum olur ki, bu dövrdə təbiətin dağıdıcı qüvvələrinin təsirinə qarşı ilk müqavimət və mübarizə meyli, düşünülmüş və mütəşəkkil əmək fəaliyyətinin zərurəti ortaya çıxmışdır. Bütün bunlar mütəşəkkil tərbiyənin gərəkliliyini irəli sürmüşdür. Təsadüfi deyildir ki, zoroastrizm Əhrimənə qalib gəlmək üçün zərdüştilərin lazımi biliyə, əmək fəaliyyətinə və müvafiq əxlaqi keyfiyyətlərə yiyələnmələrini vacib şərt hesab etmişdir. Zərdüştlük təliminə görə, bu xüsusiyyətlər gənc nəslə təlim və tərbiyə vasitəsi ilə aşılanmalıdır. Deməк, həmin dövrdə Azərbaycanda mütəşəkkil təlim və tərbiyə zərurəti duyulmuşdur. Azərbaycanda məktəb təhsili tarixi də bu dövrdə başlanır. Avestanın «Yəşt» adlı bölməsində «Çista» elm və bilik ilahəsi kimi göstərilmişdir. Zərdüşt «Çista» ilahəsinə xitabən belə demişdir: «Sən əgər irəlidə olsan, məni gözlə, əgər geridə qalsan, özünü mənə çatdır». Bununla Zərdüşt hər cür ətalətin əleyhinə çıxmış, hamını bilik əldə etməyə çağırmışdır.

Buna görə də Avestada elmə yiyələnmək əsas dini vəziyyətdən biri hesab edilmişdir. Bu barədə Avestada müvafiq dualar və göstərişlər də var. Həmin dualardan birində valideyn Ahuraməzdadan (baş ilahi qüvvə) yaxşı övlad, Avestanın digər bir yerində isə Ahuraməzdanın oğlu hesab edilən Azərdən şüur və zəka diləmişdir. Elə bu kimi ifadələrdən məlum olur ki, övladın əxlaqi və əqli tərbiyəsi valideynlərin diqqətini cəlb edən məsələlərdən olmuşdur. Sözsüz ki, əqli tərbiyə təlim vasitəsilə həyata keçirilir. Təlim isə müəllimin müşayiətini tələb edən iş sahəsidir. O dövrdə müəllimlər «hirbod», «əsərpəiti», şagirdlər isə «həvişt» kimi adlandırılmışdır. Əqli

tərbiyə ilə əlaqədar olaraq Avestadakı ehkamlar, dualar, eləcə də müəllim və şagird haqqında nəzərəçarpan məlumat, Azərbaycanda bu və ya digər şəkildə təhsil sisteminin və təhsil ocaqlarının varlığını göstərir. Avesta Azərbaycanında təhsil məktəblərinin atəşgahlarda yerləşməsini ilk mənbələrdən məlum etmək olur. O cümlədən «Şərəfnamə» əsərində miladdan əvvəl IV əsr Azərbaycan məktəbləri barədə maraqlı məlumata rast gəlirik. Nizami Gəncəvi bu dövrün atəşgahlarını təsvir edərkən yazır: «Keçmişdə adət belə idi ki, atəşgahlarda müəllim[1] olardı». Nizaminin bu sözləri qədim Azərbaycanda alim müəllimlərin atəşgahlarda fəaliyyət göstərmələrini bildirir. Nizaminin digər şeirində də atəşgahların təhsil mərkəzləri olmasını bildirən faktlar vardır. O, Azərbaycanın baş atəşgahından danışarkən burada qızıldan gərdənlənd[2] salmış yüz hirbodun (Zərdüşt din xadimləri) zoroastrizm qulluğunda hazır olmalarını fars dilində bu cür təsvir etmişdir:

*Sədəş hirbod bud ba toq-e zər,*
*Be atəşpərəsti gereh bər kəmər.*

N.Piqulevskaya "Erkən orta əsrlərdə İran şəhərləri" («Города Ирана в раннем средневековье») adlı əsərində göstərir ki, «Avesta təhsil sistemində» müəllimliklə hirbodlar məşğul olmuşlar. Qədim İranda ruhani rəhbərlərinə «hirbod» deyilirdi. Müəllimlik ruhanilərin öhdəsindəydi.

Avestanın «Vəndidad» bölməsində, «Dinkərd» və «Şahnamə» əsərlərində verilən məlumata görə, ibtidai təhsil yeddi yaşdan on beş yaşa qədər davam edirdi. Atəşgahlarda təhsil səhər tezdən başlanırdı. Avestanın duaları və nəğmələrinin öyrənilməsi ibtidai təhsilin məzmununu təşkil edirdi. Bu dini mərkəzlərdə icra edilən tədbirlər sisteminə pedaqoji işlər, yəni təlim və tərbiyə işləri də daxil idi.

---

[1] "Müəllim" sözü Nizaminin fars dilində yazdığı şeirində "amuzqar" sözünün Azərbaycanca tərcüməsidir.
[2] boyunbağı

Azərbaycanın Zərdüşt məktəblərində tədris prosesi müəyyən mərasim ilə müşayiət edilirdi. Bu da dərs materiallarının şagirdlər tərəfindən əzbərlənməsini asanlaşdırmaq məqsədini güdürdü. Saray və yüksək silkə mənsub olanların uşaqlarına müstəsna hallarda yazı və oxu öyrədilirdi. Yazı üçün əvvəllər mixi əlifbasından, sonralar isə Arami (Aramey) və Pəhləvi yazısından istifadə olunmuşdur.

Azərbaycanın qədim məktəblərində tərbiyə üçün başlıca olaraq düzlük və dürüstlük, əməksevərlik, ümumxalq işinə və Zərdüşt ehkamlarına sədaqətli olmağı tövsiyə etmişlər. Zərdüşt dualarının birində işgüzarlıq və vətənpərvərlik tərənnüm edilərək valideyn tərəfindən belə deyilir: «Ey Ahuraməzda, mənə adlı-sanlı, bacarıqlı, ədalətli, yaxşı rəftarlı, işgüzar və vətənpərvər övlad bəxş et!».

Bu dövrdə yeniyetmələrin əmək fəaliyyətləri aşağıdakı üç əsas prinsip üzrə qurulmuşdur: 1) yaxşı düşüncə; 2) yaxşı söz; 3) yaxşı davranış.

Qədim Azərbaycanda fiziki tərbiyə əxlaq tərbiyəsinin ayrılmaz hissəsi kimi başa düşülmüşdür. Məsələn, sağlamlığı qoruyub qüvvətli olmaq dini vəzifələrdən biri hesab edilmişdir. Buna görə də uşaqların fiziki tərbiyəsinə xüsusi diqqət yetirilmişdir.

«Yadegare Bozorgmehr» adlı nəsihətnamədə «Daha çox əzab verən kimdir?», «Daha çox qüssə verən kimdir?» suallarına «zəif və xəstə övlad» – deyə, cavab vermişdir.

Qədim Azərbaycanda at minmək, ox atmaq, nizə tullamaq, üzmək və ov fiziki tərbiyənin əsas ünsürləri kimi tətbiq edilmişdir.

**Atropatena dövlətində ədəbiyyat.** Eramızdan əvvəl 150-ci ilədək davam edən Atropatena dövləti zamanında sinfi cəmiyyət nisbətən sürətlə inkişaf edir, hərbi, ictimai-siyasi həyat sahələri üzrə mütəxəssislərə ehtiyac artırdı. Bu sahədə lazımi kadr «Saray məktəbində» hazırlanırdı. Burada hakim sinfin uşaqları 16 yaşdan başlayaraq ali təhsil alırdılar. Zoroastrizmi rəsmi dövlət dini elan edən Sasanilər dövründə isə (226 – 651) Zərdüşt dini hakim feodalların mənafeyinə daha uyğunlaşdırılmış və kəskin sinfi siyasət silahı səciyyəsi almışdır. Bu dövrdə Azərbaycanda Avesta ehkamlarının in-

kişafına və yayılmasına muğların fəaliyyətinə, ibtidai və ali təhsilin genişlənməsinə əlverişli şərait yaradılmışdır.

VI əsrdə Pəhləvi dilində yazılmış «Tansarın məktubu» adlı bir sənəddə əhalinin tərkibini təşkil edən dörd silkdən biri katiblər adlandırılmışdır. Bunlar məktubları, protokolları tərtib edənlərdən, hesabdar, hüquqşünas, həkim və mühəndislərdən ibarət olmuşdur. Buradan məlum olur ki, Sasanilər dövründəki Avesta Azərbaycanında bilik üzrə ali təhsil sahəsi genişlənmişdir. Savadlı və elm adamlarının müstəqil silkə mənsub edilməsi ziyalıların, başqa sözlə desək, ali təhsilin cəmiyyətdə əhəmiyyətli mövqe tutmasını göstərir. Bu zaman İranda və Azərbaycanda ali təhsil müəssisələri təşkil edilmişdir. Zərdüşt məktəbi yerləşən mərkəzlərdən biri kimi Azərqoşnəsbin ali təhsil ocağı olması müddəasını irəli sürmək olar.

Maraqlı haldır ki, X əsr coğrafiyaşünasları və səyyahları öz əsərlərində, Azərqoşnəsb məbədini əhatə edən binalara xüsusi diqqət yetirmişlər. X əsr ərəb səyyahı Əbu Duləf Mesər İbn əl-Mohəlhil «…bu məbədin yanında uca saraylar, hündür və əzəmətli tikintilər var» – deyə, özünün ikinci risaləsində oxucunun diqqətini məbədi əhatə etmiş qeyri-adi binalara yönəltmişdir.

Əbu Duləfin yuxarıdakı sözlərinə əsasən, Azərqoşnəsb məbədinin mədəni-maarif işlərini də əhatə edən müxtəlif korpuslar kompleksindən ibarət olması təsəvvürü yaranır. X əsr ən məşhur ərəb coğrafiyaşünas-tarixçi və səyyahlarından biri olan Əl-Məsudinin həmin məbəd haqqında yazdıqları daha çox maraq doğurur. O, özünün «Xəbərdarlıq və yenidən gözdən keçirmə kitabı» adlı əsərində belə yazır: «Zəmanəmizdə bu şəhərdə (Şiz şəhərində) heyrət doğuran binalar, eləcə də səma kürəsini, ulduzları, dünyanı, torpaqları və dənizləri, yaşayış yerlərini, onların bitki və canlılarını və s. qəribə şeyləri özündə əks etdirən rəngarəng və gözəl lövhələrin qalıqları görünür». Əl-Məsudinin dediyi kimi, kainatın maddi təsvirini verən Azərqoşnəsb (Nizaminin təbirincə, «Xodisuz») məbədinin lövhələri onun elm və təhsil mərkəzi olduğuna dəlalət edir. Görünür, Şiz şəhərində yerləşən və bütün İran və Orta Asiya atəşpərəstlərinin baş məbədi sayılan Azərqoşnəsb kompleksi vaxtilə Yaxın və

Orta Şərq ölkələri üzrə mühüm mədəniyyət, elm və ali təhsil mərkəzinə çevrilmişdir.

**Xristian məktəbləri.** Sasanilər dövründə (226 – 651) zərdüştlük rəsmi din kimi hakim mövqe tutmasına baxmayaraq, təxminən III əsrdən etibarən Suriya xristianlıları tərəfindən Azərbaycanda xristianlıq təbliğ edilmişdir. X əsr coğrafiyaşünası Əl-Fəqih əl-Həmədani Aran əhalisinin xristian olduğunu qeyd etmişdir. Xristian məktəbləri Zərdüşt məktəbləri ilə paralel şəkildə VII əsrə qədər, əsasən, Albaniya ərazisində fəaliyyət göstərmişdir. Xristian məktəbləri tədris proqramlarına görə Zərdüşt məktəblərinə nisbətən daha çox inkişaf etmişlər. Zərdüşt məktəblərində yazı və oxu təlim edilmədən Avesta ehkamları dərs materialları kimi əzbərlədilirdi, xristian məktəblərində isə V əsrdən başlayaraq yazı və oxu təlim edilmişdir.

## *Azərbaycanda qədim məktəb tarixi VII əsrə qədər*

Arxeoloji qazıntılar göstərir ki, qədim Azərbaycanda yüksək mədəniyyət olmuşdur. Mədəniyyət isə təlim və təhsilsiz təsəvvür edilə bilməz. Buna görə də qədim Azərbaycanda təlim və təhsil ocaqlarının mövcud olması labüddür.

Hələ eramızdan əvvəl qədim Azərbaycanda zoroastrizm hakim ideologiya olmuşdur. Bütün klassik ərəb tarixçilərinin və bir çox Avropa şərqşünaslarının fikrincə, eramızdan əvvəl VI əsrdə yaşamış Zərdüşt Azərbaycanda Urmiya şəhərinin yaxınlığında anadan olmuşdur. O öz əqidəsini ilk dəfə olaraq Azərbaycanda təbliğ etmişdir. Təbii ki, bu cəhətdən zoroastrizmin doğma vətəni Azərbaycan hesab edilməlidir. Qeyd olunmalıdır ki, qədim Azərbaycanın paytaxtı Şiz (Gəncək, Qazaka) şəhərində yerləşən Azərqoşnəsb atəşgədəsi bütün İran və Orta Asiya atəşpərəstlərinin də baş məbədi hesab olunurdu. Buna görə də Zərdüşt dininin müqəddəs kitabı olan «Avesta» qədim Azərbaycanda hakim olan ictimai şüur və düşüncənin bütöv inikasını verən məxəz kimi, o zamankı təlim-tərbiyə izlərini üzə çıxartmaq üçün tədqiq obyekti olmalıdır.

Zərdüştün əqidəsinə görə, Əhrimənə[1] qalib gəlmək üçün biliyə yiyələnmək “Avesta”da dini vəzifələrdən biri hesab edilirdi. Bu barədə “Avesta”da müvafiq dualar və göstərişlər var. Həmin duaların birində valideyn Ahura Məzdadan[2] “yaxşı rəftarlı və şüurlu övlad” diləyir. Buradan məlum olur ki, övladın əxlaqı və əqli tərbiyəsi o zaman valideynlərin diqqətini cəlb edən məsələlərdən biri olmuşdur. “Avesta”nın digər bir yerində Ahura Məzdanın oğlu hesab edilən Azərdən, şüur və zəka dilənmiş, ilahi qüvvələrdən biri də “Çista” adlı elm və bilik allahı göstərilmişdir .

Beləliklə, ideologiyası və ictimai həyatı Avesta ehkamları ilə səciyyələnən qədim Azərbaycanda elm və biliyə yiyələnmək, daha dəqiq desək, əqli tərbiyə məsələsi ictimaiyyətin, eləcə də cəmiyyətin rəhbər ideoloqları və icraiyyə qüvvəsini təşkil edən «möbid»lərin apardıqları işlərin əsas sahələrindən birini təşkil etməli idi.

Əlbəttə, əqli tərbiyə təlim vasitəsi ilə həyata keçirilir. Təlim isə müəllimin müşayiətini tələb edir. Buna görə də təsadüfi deyildir ki, Avesta dövründə müəllimlərin olmasına aid bəzi faktlara rast gəlirik. Buna misal olaraq, həmin dövrdə müəllimə müraciətlə deyilən «esrapaiti» sözünü göstərmək olar. «Avesta»nın «Yəşta» adlı hissəsində şagird və müəllim haqqında məlumat verilir, hətta Sena adlı bir müəllimin dərsində 100 nəfər şagirdin iştirak etdiyi də qeyd edilir. İbtidai təlim ilə «hirbod»lar məşğul olur, onların şagirdləri «xavişt» adlanırdı.

Beləliklə, əqli tərbiyə ilə əlaqədar olaraq «Avesta»dakı ehkamlar, dualar, eləcə də müəllim və şagird haqqında bəzi məlumatlar o dövr Azərbaycanında təhsil sisteminin və təlim ocaqlarının mövcud olmasını göstərir.

Avesta dövründə olan məktəblərdən və orada aparılan təlim işlərindən dəqiq məlumat bizə gəlib çatmamışdır. Ancaq məlumdur ki, bu zaman əxlaq və əqli tərbiyə dini vəzifələrdən hesab olunduğu üçün təhsil ruhanilərin əlində olmuşdur.

---

[1] Əhrimən – (Anqra Maynyu) şər allahı

[2] Ahura Məzda – xeyir allahı

VI əsrə aid «Ənuşirəvan və Qolam-bəççe-ye u» adlı bir sənəddən məlum olur ki, Qolam-bəççe öz təhsili haqqında şaha məlumat verərkən deyir ki, o, ibtidai məktəbdə «Avesta»nın əsas hissəsini izahatı ilə bərabər əzbərlədikdən sonra orta təhsil almağa başlamışdır. Həmin sənəddən, eləcə də «Avesta»dakı bir sıra dualardan belə qənaətə gəlmək olar ki, sasanilər dövründə (226 – 651) İranda, eləcə də Azərbaycanda «Avesta»dakı ayrı-ayrı duaların və dini nəğmələrin əzbərlənməsi ibtidai təhsilin məzmununu təşkil edirdi. İbtidai təhsil dövründə «Avesta» yeganə tədris vəsaiti kimi istifadə olunurdu.

IX əsrdə tərtib edilmiş Pəhləvi yazılarından olan «Dinkərd» kitabında «Avesta» İranda «təlim və nəsihət» üzrə istifadə olunan vəsait kimi qeyd edilmişdir.

IV əsrə qədər Avesta hələ kitab şəklinə düşməmişdi. Ruhanilər «Avesta»nın dualarını və nəğmələrini əzbərdən söyləməli idilər. Çindən gətirilən kağız bahalı olduğu üçün «Avesta» şagirdlərə şifahi yolla təlim edilir və əzbərlədilirdi. Məhz buna görə ruhanilər öz dualarında «elm allahından» həmişə möhkəm və qüvvətli hafizə diləyirdilər.

Beləliklə, demək olar ki, Azərbaycanda ibtidai təhsil dövründə oxu və yazı, demək olar ki, təlim edilmirdi. Müstəsna hallarda saray ailələrin, eləcə də yuxarı təbəqənin uşaqlarına yazı və oxu öyrədilir, onların orta və ali təhsilləri davam etdirilirdi.

Təxminən, VII əsrdən başlamış XIX əsrin axırlarına qədər ibtidai təhsil Azərbaycanda Quran ayələrini qiraət edə bilməklə tamamlandığı kimi, çox güman ki, sasanilərdən lap qabaqkı dövrlərdə «Avesta» parçalarının əzbərlənməsi ilə tamamlanırdı. Lakin Quran təlimi ilə Avesta təlimi arasında fərq var: birincisində şagirdlərə Quran ayələrinin öyrədilməsi əlifba təlimi ilə başlanıb kitab üzərində qiraətlə bitirdi, ikincisində isə Avesta duaları və nəğmələri əlifba təlimi və qiraət keçilmədən şifahi yolla öyrədilib əzbərlədilirdi.

Azərbaycanda Zərdüşt dini dövlət dini elan ediləndən sonra (sasanilər zamanında) Avesta ehkamlarının inkişafına və əməli tətbiqinə daha əlverişli şərait yaranmışdır.

Sasanilər dövründə İranda və eləcə də Azərbaycanda ictimai xadimlər, Avestanın baş xəttinə müvafiq olaraq, şərə qarşı mübarizədə həmişə elm və biliyə yiyələnməyi təbliğ edirdilər. Buna görə də onlar gənc nəslin tərbiyəsi ilə əlaqədar, əqli tərbiyəni ön plana çəkmişlər. Sasani şahlarından olan Xosrov Ənuşirəvanın (531 – 579) vəziri Bozorgmehrin nəsihətnaməsi buna yaxşı misal ola bilər. O, zoroastrizm şüarı ilə başlanan bu nəsihətnamədə «daha çox ürəyə yatan kimdir?» sualına – «layiqli övlad», «daha çox əzab verən kimdir?», «daha çox qüssə verən kimdir?» suallarına isə – «zəif və xəstə övlad», «nalayiq övlad» – deyə cavab vermişdir. Həmin nəsihətnamədə «adamlar üçün daha dəyərli bacarıq hansıdır?» sualına «alimlik və elm» cavabı verilir.

Bozorgmehrin nəsihətnaməsindən məlum olur ki, Azərbaycanda sasanilər dövründə gənc nəslin əxlaqi və fiziki, xüsusən əqli tərbiyəsi hakim sinfi maraqlandıran məsələlərdən biri olmuşdur.

Qeyd etmək lazımdır ki, Sasanilər dövlətində təhsilə olan ehtiyac və rəğbətin artması səbəblərindən biri sasanilərin nizama salınmış İran monarxiyasının yaranması və eləcə də Sasani hökmdarlığında feodal münasibətlərinin formalaşması və möhkəmlənməsi ilə əlaqədar idi.

İctimai ədalətsizliyə qarşı xalq kütlələrinin mübarizəsini təmsil edən Məzdəkilər hərəkatı[1] məğlub olduqdan sonra Sasani dövlətinin tərkibinə daxil olan vilayətlərdə, xüsusilə Azərbaycanda feodal münasibətləri möhkəmlənmiş və feodal istehsal üsulu qalib gəlmişdi. Bu zaman feodalların əksəriyyəti, tarixçilərin tədqiqinə görə, əsasən, Azərbaycanda mərkəzləşmişdilər.

O zamankı çoxsahəli bir ölkənin idarələrində işləmək üçün «Sasanilərin nizama salınmış İran monarxiyası»nda katiblərə, sa-

---

[1] Məzdəkilər hərəkatı – (480 – 529) Sasanilər dövlətində əyanlar və kahinlərdən ibarət varlı təbəqələr əleyhinə şəhər yoxsulları və kəndlilərin hərəkatı. Sasani hökmdarı I Qubad əyanlar və kahinlərin mövqelərinin zəiflətmək üçün həmin hərəkata qoşuldu. 529-cu ildə onun oğlu Xosrov Məzdəkilər hərəkatına son qoydu. Məzdəkilərin başçısı Məzdək və onun silahdaşları Xosrovun əmri ilə edam edildi.

vadlılara olan ehtiyac artırdı. Bu hal istər-istəməz İranda, xüsusilə Azərbaycanda VI əsrdə ibtidai və ali təhsilin əhəmiyyət və lüzumunu artırır, onun genişlənməsinə kömək edirdi.

Məzdəkilər hərəkatının məğlubiyyətə uğramasından sonra Şiz şəhərinin atəşpərəstliyin əsas mərkəzi kimi möhkəmlənməsi Azərbaycanda təhsil və maarifin qüvvətlənməsinə əlverişli şərait yaratdı. Lakin həmin dövrdə əhalinin silklərə bölünməsi səbəbindən təhsil silki xarakter daşıyırdı. Bu isə, öz növbəsində, xalq kütləsindən çıxan bir çox istedadların inkişafına böyük maneə yaradırdı.

Sasani dövlətində əhalinin tərkibini təşkil edən dörd silkdən birinin katiblərə mənsubluğu aydın görünür. Katiblər silkinə məktubları və protokolları tərtib edənlər, hesabdarlar, hüquqşünaslar, həkimlər, yazıçı və şairlər, coğrafiyaşünaslar və münəccimlər daxil idi. Həmin dövrdə savadlı şəxslərin və elm adamlarının ayrıca və müstəqil silkə məxsus edilməsi, Sasani dövlətinin şimal vilayəti tərkibinə daxil olan Azərbaycanda (Atropatena) ziyalıların, alimlərin, ümumiyyətlə, təhsilin cəmiyyətdə əhəmiyyətli mövqe tutmasını göstərir.

Avestada, eləcə də Sasanilər dövründə Avesta ehkamlarına istinadla yazılmış Pəhləvi ədəbiyyatında ali təhsil almaq sahəsində müəyyən tədbir və məsləhətlər göstərilmişdir ki, bunlar da Azərbaycanda ali təhsilin və müvafiq tədris mərkəzlərinin mövcud olması zərurətindən xəbər verir.

Cəmiyyət üzvləri üçün alimlik və elm ən dəyərli bacarıq hesab edilirdi. Bozorgmehr nəsihətnaməsində «daha faydalı şey nədir?» sualına «alimlərlə oturub-durmaq» cavabını vermişdir. Bozorgmehrin bu sözləri Avestanın müvafiq göstərişlərinə tamamilə uyğun gəlir. «Avesta»da hər ayın ikinci günü[1] «elmi sahədə işləmək və alimlər evinə getmək» üçün müəyyənləşdirilmişdir. «Alimlər evinə getmək», «alimlərlə oturub-durmaq» kimi verilən bir sıra məsləhətlər Azərbaycanda ali təhsil ocaqları və müəyyən elmi mərkəzlərin mövcud olmasına şübhə yeri qoymur. Nizaminin Qədim Azərbaycanda tədris ocaqlarının yerləşdiyi mərkəzləri müəyyənləş-

[1] Hər ayın ikinci günü Avestada «bəhmən» adlandırılır

dirməyə kömək edən «İskəndərnamə» poemasında bu barədə məlumata rast gəlirik.

Qeyd etmək lazımdır ki, Nizami poemanı yazarkən, eramızdan əvvəl IV əsrdə yaşamış Makedoniyalı İsgəndərin Azərbaycandakı sərgüzəşti ilə əlaqədar olaraq o zamankı tarixi faktları və bu barədə XII əsrə qədər gəlib çatmış Pəhləvi, yəhudi, ərəb dillərində olan ən qədim sənədlər və xronikalarda olan məlumatları diqqətlə öyrənmiş, dönə-dönə yoxlayıb müqayisə etmiş, məhz dəqiqiliyinə inandığı zaman onlardan istifadə etmişdir. Nizami bu haqda belə yazır:

*Ən qədim tarixi əsərlərdən mən,*
*Yəhudi, nəsrani, pəhləvilərdən.*
*Ən incə sözləri əlimə saldım,*
*Qabığın ataraq məğzini aldım.*
*Müxtəlif dillərdən yığdığım sözlər,*
*Bunlardan düzüldü yığdığım əsər.*

Poemada eramızdan əvvəl IV əsrdə Azərbaycanda gedən hadisələr haqqında verdiyi məlumata oxucularının şübhə ilə yanaşa biləcəyindən ehtiyatlanan şair əsərin yazılması üçün seçdiyi tədqiqat metodunu dönə-dönə qeyd edir:

*Hər gecə biliyə qapı açmadan,*
*Yastığa qoymadım başımı arxayın...*

Beləliklə, Avesta Azərbaycanındakı ictimai həyatı, orada baş verən bir sıra hadisələri və faktları təsvir edən «İskəndərnamə» poeması mötəbər tarixi mənbə kimi qədim mədəniyyət və maarifin bəzi izlərini üzə çıxartmağa kömək edir. Belə ki, İsgəndərin Azərbaycan atəşgədələrini dağıtmasından danışarkən Nizami yazır: «Keçmişdə adət belə idi ki, atəşgədədə müəllim olardı».

Qədimdə müəllimlik peşəsi ilə alimlər də məşğul olmuşlar. Onlar öz şagirdlərinə ibtidai və ali təhsil verirdilər. Məhz buna görə bəzi hallarda Nizami sadəcə *müəllim* mənasını verən «amuzqar» sö-

zü əvəzinə «oustad» (professor) sözünü işlətmişdir. Nizami Aristotelin atası Nikomaksini «Oustad-e dana» (yəni professor) ifadəsi ilə qeyd etmişdir.

Beləliklə, qədim Azərbaycan atəşgədələrindən danışarkən orada müəllimlərin toplanmasını xəbər verən Nizaminin yuxarıdakı sözlərindən məlum olur ki, Azərbaycanda olan atəşgədələr təkcə dini mərasimləri icra etmək yeri deyil, onların bir çoxu həm də mədəniyyət mərkəzləri olaraq elm adamlarının fəaliyyət və tədris mərkəzləri olmuşdur. Yəqin ki, Avestada da «Xane-ye danayan» («alimlər evi») deyəndə Avesta müəllifləri məhz atəşgədələri nəzərdə tutmuşlar.

Atəşgədələr arasında «Azərqoşnəsb» Azərbaycandakı ən mühüm tədris və elm ocaqlarından biri olmuşdur. 939-cu ildə Azərbaycanda olmuş ərəb alimi Əbudolf Mesər ibn Mohəlhəlin şəxsi müşahidələrindən, eləcə də digər ərəb və İran tarixçilərinin müvafiq məlumatlarından məlum olur ki, Nizaminin Azərbaycanda «Xodi suz» adı ilə təsvir etdiyi çox zəngin və əzəmətli atəşgədə məhz bütün atəşpərəstlərin baş məbədi olan həmin «Azərqoşnəsb» atəşgədəsidir.

Zoroastrizm aləmində mövcud olan Avestanın iki nüsxəsindən biri Şiz atəşgədəsində saxlanılırdı. Sasanilər dövründə Zərdüştün müqəddəs kitabı “Avesta”nın Şiz nüsxəsi əsasında tərtib edilmişdir. Bu da Şiz atəşgədəsinin mədəniyyət mərkəzi kimi vaxtı ilə mühüm bir kitabxanaya malik olmasına dəlalət edir.

Azərqoşnəsb atəşgədəsinin Şiz şəhərində yerləşməsindən bu nəticəyə gəlmək olur ki, qədim Azərbaycanın paytaxtı olan bu şəhər Avesta Azərbaycanında böyük elm və maarif mərkəzi olmuşdur. IV əsrin ortalarında ərəb tarixçisi Məsudi belə yazırdı: «Zəmanəmizdə bu şəhərdə (Şiz şəhərində) heyrət doğuran binaların qalıqları, eləcə də səma kürəsini, ulduzları, dünyanı, quru və dənizləri, yaşayış yerlərini, onların bitki və canlılarını və sair qəribə şeyləri özündə əks etdirən rəngarəng və çox gözəl rəssamlıq lövhələri görünür».

Məsudinin sözlərinə görə, kainatın maddi təsvirini verən «Azərqoşnəsb» məbədinin rəssamlıq əsərləri bu atəşgədənın həm də elmi mərkəz olmasına bir daha şəhadət verir.

Bir çox faktlardan, xüsusilə Hindistanda və Yunanıstanda yayılmış Avestanın tibb, nücum, coğrafiya və fəlsəfə sahələrinə aid olan hissələrinin toplanması haqqında Sasani şahı Şapurun (242 – 272) xüsusi fərman verməsindən belə bir qənaətə gəlmək olur ki, həmin elmlər vaxtı ilə ictimaiyyətin nəzər-diqqətini cəlb edən əsas sahələr olmuşdur.

Sasanilər dövründə rəsmi dövlət dini kimi qəbul edilmiş zoroastrizm digər ideoloji cərəyanların qüvvətlənməsi ilə öz nüfuzunu müəyyən dərəcədə itirməkdə idi. Belə ki, bir tərəfdən, zoroastrizmə qarşı yönəlmiş Mani (216 – 277) əqidəsi İranda, xüsusilə Azərbaycanda geniş təbliğ edilirdi. Digər tərəfdən, xristianlıq Yaxın Şərqdə, o cümlədən İranda yayılır və bu, Sasani dövləti üçün siyasi təhlükə əmələ gətirirdi. Çünki Bizans imperatorluğu İran əleyhinə apardığı işğalçılıq siyasəti üçün xristianlıqdan ideoloji dayaq kimi istifadə etmək niyyətində idi. Tarixi faktlardan məlum olur ki, bu vəziyyət IV əsrin axırları və V əsrin birinci yarısında Azərbaycanda zoroastrizmin əsas mübəlliğlərinin, moğların böyük fəaliyyətinə və zoroastrizm təlimatının daha da qüvvətləndirilməsinə səbəb olmuşdur. Həmin məsələ ilə əlaqədar olaraq Zərdüşt təlim ocaqları bu dövrdə İranın digər yerlərinə nisbətən, Azərbaycanda, xüsusilə Şiz şəhərində genişlənmişdir. Çünki muğların əsas mərkəzi Azərbaycan idi. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, hələ lap ilk dövrlərdə, o zamankı İranın bütün ərazisindən gələn moğlar məhz Şiz şəhərinin Siroş adlı nahiyəsində toplanır, burada Zərdüştlük dini üzrə təlimat alırdılar. Moğların ilk məktəbi də həmin məhəllədə olmuşdur.

VI əsrdən etibarən məzdəkilər hərəkatı[1] məğlub olduqdan sonra (528) zərdüştpərəstliyin əsas mərkəzi kimi Şiz şəhərinin mövqeyi həmişəkindən daha çox möhkəmlənmiş, buna görə də o, özü-

[1] Məzdəkilər hərəkatı – Məzdəkin rəhbərliyi ilə 496 – 531-ci illərdə Sasani zülmünə və feodallara qarşı baş vermiş hərəkat, erkən orta əsrlərin ən mühüm ictimai və tarixi hadisələrindən biri. Maniçiliyin təsiri altında yaranmış Məzdəkilər hərəkatı özünəməxsus spesifik xüsusiyyətlərə malik olmuşdur. Məzdəkilər hərəkatı ərəfəsində quraqlıqlar və təbii fəlakətlər nəticəsində ardı-arası kəsilmədən aclıqlar baş vermişdi. Beləliklə hərəkatın başlanması üçün iqtisadi və ictimai amillər meydana gəlmişdi.

nün daha yüksək inkişaf səviyyəsinə çataraq möhtəşəm saraylara, mədəni-maarif ocaqlarına malik olmuşdur. Əsməi adı ilə məşhur olan ən qədim ərəb müdərrislərindən biri Əbusəid Əbdülməlik ibn Qəribin (738 – 828) Şiz şəhəri haqqındakı müvafiq sözləri də bu barədə müəyyən təsəvvür yaradır.

I – VII əsrlərdə Azərbaycanda məktəb və maarifin inkişaf etməsinə xristian dininin yayılması da müəyyən təsir göstərmişdir. III əsrdən başlayaraq xristian dininin təbliği sahəsində böyük fəaliyyətə başlanmış, keçmiş Suriyanın mədəniyyət mərkəzlərindən olan Ədəs şəhərindən İranın və Zaqafqaziyanın müxtəlif vilayətlərinə təbliğatçı dəstələri ezam edilmişdir. Bununla əlaqədar olaraq Ədəs şəhərində böyük təlim mərkəzləri və məktəblər yaradılmışdı. Bu məktəblərdən biri də fars və fransız məxəzlərində «Dəbestan-e İraniyan», «Ekol de pers» adı ilə qeyd olunmuşdur.

IV əsrin ikinci yarısında Ədəs şəhərində təşkil edilmiş «Dəbestan-e İraniyan» 489-cu ildə bağlandıqdan sonra həmin məktəb yenidən müəllimlər tərəfindən Nəsibeyn şəhərində bərpa edilmişdir.

Dəbestan-e İraniyan və Nəsibeyn məktəbləri xristianlığı qəbul etmiş iranlılar tərəfindən idarə olunurdu. Bu məktəblərdə dini dərslərdən əlavə, ritorika, coğrafiya, nücum, xüsusilə Aristotelin əsərləri tədris olunurdu.

Qədim məxəzlərdən məlum olur ki, Yaxın Şərq ölkələrindən, xüsusilə Sasani dövlətinin tərkibinə daxil olan vilayətlərin əhalisindən xristian dinini qəbul edənlər IV – V əsrlərdə Dəbestan-e İraniyan və Nəsibeyn mədrəsələrində təhsil alırdılar. Bu mədrəsələrdə təhsil alanlar, əslində, Şərqdə, eləcə də İranda və Zaqafqaziyada xristian dinini təbliğ etmək və həmin rayonlarda mövcud olan kilsə şəbəkəsini genişləndirib onların nəzdində xristian təlim ocaqlarını təşkil etmək üçün hazırlanırdılar.

Mənbələrdən məlum olur ki, Dəbestan-e İraniyan bağlandıqdan sonra məktəbin bir çox üzvləri, o cümlədən Şirazlı Mühənna, Midiyanın baş yepiskopu İbrahim və başqaları öz vətənlərinə qayıdaraq müxtəlif şəhərlərdə mövcud kilsələrin nəzdində tədris işlərinə rəhbərlik etmişlər.

Qədim Azərbaycanda da (Atropatenada) xristian kilsələrinin mövcud olması bir çox mənbələrdə qeyd edilmişdir. Buna görə də İranın digər şəhərlərində olduğu kimi, Sasani dövlətinin şimal vilayəti tərkibinə daxil olan Azərbaycan şəhərlərində də kilsələrin nəzdində tədris ocaqlarının mövcudluğuna şübhə ilə yanaşılmamalıdır.

Xüsusilə qeyd etmək lazımdır ki, vətənimizin şimal hissəsini təşkil edən Qafqaz Albaniyasında xristian kilsələri daha geniş yayılmışdı. Ən qədim erməni məxəzlərindən məlum olur ki, V əsrdə xristian mübəlliğləri tərəfindən Zaqafqaziyada, o cümlədən Albaniyada savad təlimi və kitab yayılmağa başlamışdır. Əlbəttə, bu maarif işində yerli əhalinin nümayəndələri də iştirak etmişdir. Məsələn, Soqran adlı şəhərdə xristian dininin təbliğatçısı olan Eqişenin fəaliyyətində üç albanlının da iştirakı məxəzlərdə qeyd edilir.

Azərbaycanda və ümumiyyətlə, Zaqafqaziyada maarif və savadın yayılmasında xristianlığı təbliğ edən «Dəbestan-e İraniyan»-nın müəyyən rolu olmuşdur. Məsələn, qədim Ermənistanda məktəb və maarifin banisi olan Mesrop-Maştoç (361-440) Suriyada erməni əlifbasını tərtib edərkən «Dəbestan-e İraniyan» məktəbinin təsir və köməyindən faydalanmışdır. Yəqin buna görədir ki, o, Ermənistanın Sasanilər dövlətinin şimal vilayəti tərkibinə daxil olan hissəsindəki kilsələrdə və təşkil etdiyi kilsə məktəblərində fəaliyyət göstərməyə geniş imkan tapmışdır.

IV əsrin axırlarında Mesrop-Maştotsun müşayiəti ilə savad və dini təlimat almaq üçün Suriyaya gəlmiş erməni uşaqlarının bir qrupu, çox ehtimala görə, «Dəbestan-e İraniyan» məktəbində təhsil almışdır.

Tarixçilərin tədqiqatlarından bu nəticəyə gəlmək olur ki, xristian dininin yayılmasını qüvvətləndirmək üçün latın dilində mövcud olan «Bibliya»nın milli dillərdə təlim olunmasıı təmin etmək məqsədi ilə Mesrop-Maştots gürcü və alban əlifbasını da bərpa edərək Zaqafqaziyada ibtidai savad təlimi verən məktəblərin açılması uğrunda böyük fəaliyyətə başlamışdır.

Mesrop-Maştotsun Qafqaz Albaniyasında fəaliyyəti ilə əlaqədar V əsr erməni yazıçısı Koryun yazır: «Mesrop-Maştots Albaniya-

da olarkən onların əlifbasını bərpa etdi. Elmi biliklərin canlanmasına təsir göstərdi və orada müəllimlər qoyub Ermənistana qayıtdı».

Koryunun yuxarıdakı məlumatına əsasən, hələ V əsrdən qabaq orijinal Alban əlifbasının və eləcə də müəyyən elmi biliklərin mövcudluğunu güman etmək olar.

V əsrin birinci yarısında Albaniya hökmdarı, Arsvaqın zamanında Mesrop-Maştoç tərəfindən bərpa edilmiş alban əlifbasında ibtidai savad almaq üçün müəyyən məktəblər açılmışdır. Həmin məktəblərdə şagirdlər hətta aylıq maaş və yeməklə təmin edilmişlər. Musa Kalankaytuklunun məlumatında hətta Albaniyada V əsrin axırında mövcud olan bir kənd məktəbi qeydə alınmışdır. Musa Kalankaytuklunun yazdığına görə, bu məktəb «Albaniya hökmdarı Vaçaqanın əmri ilə» qədim yerli bütpərəstlik və digər əqidələrə pərəstiş edən valideynlərin uşaqlarını xristian dini əhval-ruhiyyəsində tərbiyə etmək üçün təsis olunmuşdu. Vaçaqan həmin kənddə olarkən bu məktəbə tez-tez gedir, əllərində yazı lövhəsi və ya kitab olan şagirdlərin ucadan oxumaları ilə maraqlanarmış. Alban əlifbasının bərpasından sonra V əsrin axırlarında belə bir məktəbdən söz açılması bu zaman Albaniyada oxu və yazı təlimi aparılan adi məktəblərin mövcud olmasını göstərir.

Musa Kalankaytuklu Albaniyada Arçaq adlı rayonda digər bir məktəbin də mövcud olmasını qeyd etmişdir. V əsrdə Albaniyada bu iki kənd məktəbinin mövcudluğu Albaniyanın Qəbələ və Kerdman kimi iri şəhərlərində xristian məktəblərinin varlığına şübhə yeri qoymur.

VII əsrdə Azərbaycanda müstəqil Alban dövlətinin yaradılması ilə əlaqədar, məktəb və maarif işləri daha da sürətlənmişdir. Azərbaycan hökmdarı Cavanşirin saray şairi Davdaqın şeirlərində elm və biliyin tərənnüm edilməsindən görünür ki, təlim və təhsil məsələsi Azərbaycanda ictimaiyyətin diqqət mərkəzində durmuşdur.

## *VII-XII əsrlər*

Təxminən, VII əsrin 40-cı illərindən başlayaraq ərəblər tərəfindən Zaqafqaziyaya islam bayrağı altında qəsbkarlıq yürüşləri

başlanmışdır. Ərəblər 734-cü ildə xəzərlər üzərində qəti qələbə qazanaraq Dağıstanı Zaqafqaziyada islam hakimiyyəti ordusunun mərkəzi təyin etmişlər. Bu tarixdən etibarən onlar ələ keçirdikləri şəhərlərdə ciddi intizam yaratmaq və əhalini islam dininə cəlb etmək üçün bir sıra tədbirlər görmüş, xüsusilə, dini təbliğat və təlimat mərkəzi kimi məscid şəbəkəsinin genişləndirilməsinə və ruhanilərin fəaliyyətinə böyük imkanlar yaratmışlar. Əlqədari 731-ci ildə Zaqafqaziyaya göndərilmiş ərəb ordusunun başçısı Müslemə ibn Əbdülməlikin, Dağıstanda həyata keçirdiyi tədbirlər barəsində belə yazır: «Onun fərmayeşi ilə burada olan əhaliyə təlim-e islam barəsində qazilər, alimlər, riyasət-e ümuratına hökəma və əkabir təyin olunmuşlar və məscid-o menarat təmir qılınıbdur…». Təkcə Dərbənd şəhərində «Musel», «Fələstin», «Dəməşq», «Ordon», «Cəzayer» və başqa adlarla bir sıra məscidlər yenidən təmir olunub bərpa edilmişdir[1].

Yeni tikilmiş və ya bərpa edilmiş məscidlərdə dini təbliğat – təlimat təşkil etmək məqsədi ilə Musel, Dəməşq və sair ərəb şəhərlərindən Azərbaycan şəhərlərinə bir çox din xadimləri və fəqihlər gətirilmişdir. Ərəbistanın özündə olduğu kimi, Azərbaycan şəhərlərində də ərəblər tərəfindən yaradılmış məscidlərdə Quran qiraət olunur, dini ehkamlar izah və təfsir edilirdi. Eyni zamanda bu məscidlərdə alimlər tədris işləri ilə məşğul olur, müxtəlif dini və elmi məsələlər ətrafında izahat işi aparırdılar. Bu kimi tədris mərkəzlərindən faydalanmaq üçün dinləyicilərin ibtidai savada malik olmaları, xüsusilə ərəb əlifbasını və ərəb dilini bilmələri zəruri idi. Bununla əlaqədar, sonralar həmin məscidlərin nəzdində ərəb əlifbasını və Quranın qiraətini təlim edən məktəblər açılmağa başlamışdır[2].

---

[1] Vaxtilə ərəblər tərəfindən Dərbənd şəhərinə çoxlu ərəb ailələri köçürülmüşdür. Bu şəhərdə olan məscidlər Dərbəndin ayrı-ayrı məhəllələrində yerləşdirilmiş ərəblərin mənsub olduqları ərəb şəhərlərinin adları ilə adlandırılmışdır. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, vaxtilə ərəb ailələri köçürülmüş Azərbaycanın bir çox yaşayış məntəqələrinin adlarının tərkibində indi də «ərəb» sözü işlədilir.

[2] Azərbaycan müharibəsindən Bağdada qayıtmış ərəb ordusunun başçısı Həzifə Yəmaninin Xəlifə Osmana verdiyi bir məlumatından aydın olur ki, hələ 640-cı illərdə Azərbaycan məscidlərində quran qiraətinə başlanmışdır.

«Məktəb» istilahı ilə əlaqədar, qeyd etmək lazımdır ki, VII əsrdən qabaqkı bəzi fars mənbələrində «məktəb» sözünün ilk variantı olan «kətəb» sözünə rast gəlmək olur. Ancaq görünür ki, o zaman «b» səsinin əvəzinə «u» səsini tələffüz etməklə «kətəb» sözü «kətu» kimi də işlədilmişdir. Bu istilahdan son zamanlaradək qismən istifadə edilmişdir. Belə ki, XIX əsrin axırları və XX əsrin əvvələrinə qədər İranın bəzi şəhərlərində «məktəb» əvəzinə «kətəbxanə» və ya «kətuxanə» sözünün işlədilməsi məlumdur. Hətta İranın keçmiş maarif naziri Həbibullah Amuzqar özünün bir məqaləsində «məktəbxanə» (molla məktəbi) əvəzinə «kətuxanə» istilahını işlətmişdir.

XI əsr mənbələrində, o cümlədən «Ketab əl-Aqani»də ibtidai təhsil ocaqları "məktəb" sözü ilə deyil, "kottab" sözü ilə də qeyd edilmişdir. Hicri 904-cü ildə vəfat etmiş Bəsrə şəhəri müəllimlərindən Mübrid isə «kottab» istilahını «ibtidai təhsil ocağı» mənası verən söz kimi işlədilməsinin əleyhinə çıxaraq yazmışdır: *Məktəb* təlim yerini, *mokteb* müəllimi və *kottab* şagirdləri bildirir. *Kottab* sözünü "təlim verilən yer" kimi başa düşmək yanlışdır».

Yuxarıdakılardan məlum olur ki, islam ölkələrində, o cümlədən Azərbaycanda hələ X əsrdən qabaq "məktəb" və ya "kottab" adları ilə ibtidai təhsil verən təlim ocaqları mövcud olmuşdur. Əldə olan məxəzlərin bəzisində bu dövrün məktəbləri haqqında, qısa da olsa, müəyyən məlumat verilir. Məsələn, ərəb hakimiyyətindən sonra, bizə məlum olan ən qədim ibtidai məktəbin yaranması VIII əsrin birinci yarısına təsadüf edir ki, bu barədə də ibn-Xəlkan Əbu-Müslüm Xorasaninin tərcümeyi-halında məlumat verilmişdir. Eləcə də Xorasanda X əsrdə mövcud olan bir məktəb barəsində XI əsr müəlliflərindən Qabus Voşmgirin məlumatını göstərmək olar.

Xacə Nizamülmülkün XI əsrdə yazılmış «Siyasətnamə» adlı əsərindəki bir qeydindən də bu dövrdə Səmərqənd bazarında bir ibtidai məktəbin mövcud olduğu görünür.

Həmin dövrdə islam ölkələrində ali təhsil sahəsində müəyyən irəliləmələr müşahidə edilir. Nəzərə alınmalıdır ki, islam ideologiyası bütpərəstlik, zoroastrizm, xristianlıq və maniçilik əqidələrinə

qarşı çıxmaq və üstünlük əldə etməkdən ötrü özü üçün fəlsəfi sistem yaratmalı idi. VIII əsrdən artıq təcrübi əhəmiyyət daşıyan elmlərin öyrənilməsinə də ehtiyac artmışdı. Buna görə də həmin əsrdə «Beşikdən qəbirə qədər bilik axtar» kimi hədislər islam kürsülərindən təbliğ olunan əsas şüarlardan biri kimi geniş yayılaraq elm həvəskarlarının artmasına və ali təhsil sahəsinin genişlənməsinə təsir göstərirdi.

Mövcud məxəzlərdə VII-X əsrləri əhatə edən dövrdə islam ölkələrində ali təhsil verən məktəblərin adı çəkilmir. Bu qənaətə gəlmək olar ki, ərəblərin yürüşlərindən sonra Yaxın və Orta Şərq ölkələrində, eləcə də Azərbaycanda bir müddət mədrəsə (ali təhsil məktəbləri) açılmamışdır. Bu ölkələrdə xilafət dövründə uzun müddət fərdi təhsil sistemi əsas yer tutmuş, elm həvəskarları ayrı-ayrı alimlərin yanında ali təhsil almışlar. Ərəb tarixçisi Corci Zeydanın (1861 – 1914) müvafiq qeydləri də həmin fikri təsdiq edir. O yazır: "İslam ölkələrində mədrəsə olmadan elm və mədəniyyət inkişaf etmişdir. Qanunşünaslar, həkimlər, filosoflar və alimlər mədrəsəyə getmədən meydana gəlmişlər".

Hicri 766-cı ildən etibarən Bağdad şəhəri bütün islam aləminin ən böyük elmi mərkəzinə çevrilərək X əsrə qədər, demək olar ki, bütün yunan elmi-mədəni irsinin ərəb dilinə tərcümə olunmasında və yayılmasında rəhbər rol oynamışdır. Yunan kitablarını ərəb dilinə tərcümə etmək məqsədi ilə bu zaman Bağdadda «Beyt ül-hekmə» adı ilə xüsusi tərcümə evi təşkil edilmişdir. Burada riyaziyyat, fəlsəfə, ritorika, psixologiya, əxlaq, coğrafiya, qrammatika və musiqi sahələrində Sokrat, Əflatun, Ərəstun, Eqlidos, Arximed və b. qədim yunan alimlərinin əsərləri geniş miqyasda ərəb dilinə tərcümə olunmuşdur. Məsələn, Ərəstunun 55 əsəri ərəb dilinə tərcümə olunmuşdur. Bu tərcümələrin çoxu Yaxın Şərq və Zaqafqaziyada geniş yayılaraq uzun müddət ali təhsil sahəsində orijinal tədris vəsaiti kimi istifadə olunmuşdur.

Qabus Voşmgir təbabət elmini öyrətmək məqsədi ilə öz oğluna yunan alimlərinin əsərlərinin tərcüməsindən ibarət olan geniş bir ədəbiyyatın mütaliəsini tövsiyə etmişdir.

X – XII və hətta XIII – XIV əsrlərdə İran və Azərbaycanda yunan ədəbiyyatının geniş miqyasda yayılmasını göstərən bu kimi faktları kifayət qədər göstərmək mümkündür. Bir çox Azərbaycan alimlərinin tibbə dair əsərlərindən aydın görünür ki, onlar təbabəti öyrənmək üçün yunan alimlərinin ərəb dilinə tərcümə olunmuş əsərlərindən XV əsrə qədər dərs vəsaiti kimi geniş istifadə etmişlər.

VII – X əsrlərdə islam ölkələrində ali təhsil sahəsində ayrıca mədrəsələr açılmasa da, bir çox iri şəhərlərdə, o cümlədən Bağdad, Şam, Hələb, Dəməşq, Həmədan, Rey, Xarəzm və Buxara şəhərlərində Əl-Xarəzmi (? – 850) Əbu Bəkr Məhəmməd ibn Zəkəriyya Yəhya əl-Razi (865 – 926), Əbu-Nəsr Məhəmməd əl-Farabi (873 – 951), ibn Məskuyə (? – 1030), Əbu Əli-Sina (980 – 1037) kimi dövrün bir çox ensiklopedik biliyə malik elm xadimlərinin ayrıca tədris dairələri olmuşdur. Yaxın və Orta Şərq ölkələrinin, o cümlədən Azərbaycanın elm həvəskarları bu kimi ayrı-ayrı alimlərin yanında riyaziyyat, fəlsəfə, məntiq, nücum, ilahiyyat, dil və ədəbiyyat sahələrində təhsil alırdılar. Məsələn, vaxtilə Yaxın Şərq mədrəsələrində fəlsəfə üzrə ən mühüm tədris vəsaiti sayılan «Ketab-ül-təhsil» adlı əsərin müəllifi azərbaycanlı Əbülhəsən Bəhmənyar ibn Mərzban (? – 1066) ali təhsilini Əbu Əli Sinanın yanında təkmilləşdirib filosof məqamına çatmışdır.

X əsrin ikinci yarısından başlayaraq bütün islam ölkələrindən, o cümlədən Azərbaycandan ziyalılar mədrəsə təhsili almaq üçün Əzhər mədrəsəsinə gedirdilər. 962-ci ildə Qahirə şəhərinin «Əzhər» adlı məscidində təşkil olunmuş Əzhər mədrəsəsi o zaman ümumislam ölkələri miqyasında mədrəsə tipli yeganə tədris ocağı idi. Burada fiqh, hədis, təfsir, nəhv, məntiq tədris olunurdu.

IX əsrin axırları, X əsrin əvvəllərində Yaxın və Orta Asiyada yeni sufizm məktəbinin mərkəzi kimi Nişapur şəhəri də bir çox sufi alimlərə, ədib və müdərrislərə, eləcə də mədrəsə və xanegahlara malik idi. Bəzi məxəzlərdə XI əsr Nişapur mədrəsələrinin adı çəkilmişdir. O cümlədən, həmin əsrdə fəaliyyət göstərən "İbn Furk" və "Beyhəqiyyə" mədrəsələrini də islam aləminin ilk ali məktəbləri sırasına aid etmək olar. Bunlardan 1065-ci ildə Bağdad şəhərində

açılmış «Nizamiyyə» mədrəsəsi Yaxın və Orta Şərqdə XI əsrin ən mötəbər mədrəsəsi kimi daha çox məşhur olmuşdur. Bağdad şəhərinin tədris dairələri, eləcə də "Nizamiyyə" mədrəsəsi uzun müddət Azərbaycan və Yaxın Şərq ölkələri ziyalıları üçün ən mühüm təhsil mərkəzinə çevrilmişdir. Bağdad tədris dairələrində və Nizamiyyə mədrəsəsinin pedaqoji fəaliyyətində azərbaycanlılar özləri də bilavasitə iştirak etmişlər. Məsələn, Nizamiyyə mədrəsəsinin kitabxanasını təşkil edən Xətib Təbrizi sonralar həmin mədrəsənin görkəmli müəllimlərindən biri olmuşdur.

### *XII əsrdə məktəb və tədris*

Səyyah İbn Cəbirin məlumatından və sair məxəzlərdən də məlum olur ki, XI əsrin ikinci yarısında islam ölkələrində mədrəsələrin təşkili və sayı sürətlə artmışdır. Bununla əlaqədar, ali təhsil imkanları da genişlənmişdir. Bu vəziyyət, ümumiyyətlə Yaxın və Orta Şərqdə, eləcə də Azərbaycanda məktəb şəbəkəsinin genişlənməsinə müsbət təsir göstərmişdir. Təəssüf ki, mənbələrdə Azərbaycanın VII – XI əsr məktəb və mədrəsələri haqqında hər hansı məlumata rast gəlmirik. Ancaq XI əsrdə Azərbaycanda bir çox xanegahların mövcud olduğu məlumdur ki, onların da çoxunu tədris ocaqları kimi qiymətləndirməyə əsas vardır. Çünki vaxtilə xanegahlarda da tədris təşkil edilmişdir. Bu cəhətdən, islam maarif tarixində xanegahların müəyyən əhəmiyyəti olmuşdur. İslam mədəniyyəti tarixinə dair ilk ərəb məxəzlərinə yaxşı bələd olan Corci Zeydan yazır: «Təkcə məsciddə deyil, xanegahlarda, təkyələrdə, evlərdə də dərslər təşkil edilirdi».

Qeyd edək ki, keçmişdə müəyyən nüfuz qazanmış şeyxlər, din xadimləri tərəfdar olduqları əqidəni çox zaman açdıqları mədrəsələr, xüsusilə, xanegahlar və təkyələr vasitəsi ilə təbliğ edirdilər. Belə ki, onlar təhsillərini davam etdirmək istəyən elm həvəskarlarını xanegahlara cəlb edərək tədris məşğələlərini mənsub olduqları dini cərəyanlara aid yazılmış ədəbiyyat üzərində aparırdılar. Bu məşğələlərdə ilahiyyat, fiqh, məntiq, fəlsəfə, ənsab sahələri əhatə olu-

nurdu. Belə təlim və təbliğ mərkəzləri nəzdində əksər hallarda ibtidai savad verən məktəblər də təşkil edilirdi. Corci Zeydan islam mədəniyyət tarixini araşdıraraq yazır: «Müəyyən din və məsləkə tərəfdar olmaq da çox zaman mədrəsələrin təsis edilməsinə səbəb olurdu».

Əbu Nəsr Şirvani tərəfindən Şamaxıda təşkil edilmiş xanegah ilə əlaqədar olaraq Məhəmməd ibn Monəvvərin «Əsrar əl-touhid» adlı əsərində verilən bir məlumatdan aydın olur ki, həmin dövrdə Şirvanda 400-dən çox xanegah fəaliyyət göstərirmiş. Bu zaman Azərbaycan xanegahlarının başında Pir Hüseyn Şirvani (? – 1074) və Əbu Nəsr Şirvani kimi dövrün ən məşhur alim və filosoflarının durduğunu xüsusilə qeyd etmək lazımdır. «Batiniyyə» cərəyanının tərəfdarları olan bu alimlərin məslək və əqidələri, əslində, xanegahlarda təbliğ edilirdi ki, bu da əsasən, orta və ali təhsil sahəsində tədris işinin müşayiəti ilə həyata keçirilirdi. Buna görə də XI əsrdə Azərbaycanda xanegahların yayılması müəyyən din və məsləkin təbliği məqsədini daşımışsa da, nəticə etibarilə savad və biliyin yayılması işinə də az təsir etməmişdir.

XI əsrdə Azərbaycanda Əbu-Ömər Naxçıvani, Ekmiləddin Naxçıvani, Qətran Təbrizi kimi böyük alimlərin sayı daha çox artmışdır.

Azərbaycanda məktəb və maarifin sürətlə çiçəklənməsi XII əsrdə daha bariz şəkildə nəzərə çarpır. Azərbaycanda formalaşmış məktəb və mədrəsə sisteminin fəaliyyət tarixinə aid ilk konkret faktlar da məhz XII əsrə aiddir. Bunları tarixi sənədlərə əsasən müəyyənləşdirmək mümkündür. XII əsrin görkəmli filosofu Şühabəddin Sührəverdinin (1155 – 1191) on yaşında Marağa şəhərində məktəbə getməsi haqqındakı məlumat dediklərimizə misal ola bilər.

Məhsəti Gəncəvinin ibtidai təhsili haqqındakı məlumat da bu dövrdə Azərbaycanda məktəblərin mövcud olmasını göstərən faktlardandır. Məlum olduğu kimi, Məhsəti beş yaşında Gəncə şəhərində məktəbə getmiş və on yaşında ikən orada orta təhsilini bitirmişdir.

İlk məxəzlərdəki bir sıra tarixi hadisələrin təhlilindən aydın olur ki, Azərbaycan Atabəyləri Eldəgizlər zamanında ali təhsil siste-

mi də müəyyən dərəcədə inkişaf etməyə başlamışdır. Həmin dövrdə mədrəsələr, əsasən, Marağa, Naxçıvan və Gəncə şəhərlərində mərkəzləşmişdir. Bu əsrdə hətta ixtisaslaşdırılmış ali təhsil ocaqlarına da təsadüf etmək olur. O cümlədən Xaqaninin əmisi Kafiəddin Ömər ibn Osmanın rəhbərliyi ilə Şamaxı yaxınlığında, Məlhəm adlı bir yerdə təşkil olunmuş «Mədrəse-ye tibb» adlı ali məktəbi qeyd etmək olar.

Xaqaninin özünün təhsil alması barəsində yazdığı bir şeirindən məlum olur ki, bu dövrdə Gəncə şəhərində ali təhsil sahəsində çalışanlar üçün mütaliə və tədris ocağına çevrilmiş böyük bir kitabxana fəaliyyət göstərmişdir.

Təhsilini böyük müəllim və şeir ustadı kimi tanınmış Əbül-Üla Gəncəvinin yanında davam etdirməsi ilə əlaqədar olaraq Xaqani yazır:

*Gördü ki, bələdəm hər nişanəyə,*
*Apardı bir böyük kitabxanəyə*
*Gördükdə olmuşam, doğrudan, heyran,*
*Oxutdu əvvəlcə «Xələqəl insan».*

Azərbaycanın XII əsr orta və ali məktəbləri sırasında Naxçıvan mədrəsələri daha artıq nəzər-diqqəti cəlb edir. Həmin mədrəsələr Azərbaycanın qədim məktəb tarixində ilk təhsil ocaqlarıdır ki, oradakı tədris və təlim-tərbiyə prosesləri barəsində nisbətən geniş məlumat əldə etmək mümkündür.

Naxçıvan mədrəsələri haqqında ilk yazılı məlumata XIII əsrdə yazılmış, hələlik müəllifi müəyyənləşdirilməmiş «Əcaib əd-dünya» adlı bir kitabda rast gəlinir. Həmin kitabda deyilir: «Naxçıvan Azərbaycanda böyük və abad bir şəhərdir» və orada «çoxlu saraylar…mədrəsələr…tikilmişdir... Deyirlər ki, Naxçıvanda olan qədər imarət, məscidlər və mədrəsələr heç bir kənd və şəhərdə yoxdur». Bu məlumat XII əsrdə Naxçıvanda çoxlu sayda mədrəsənin mövcud olmasını təsdiqləyir.

Elxanilər dövlətində maliyyə işlərini idarə edən baş vəzir Şəms əd-Din Məhəmməd Cuveyni tərəfindən 1263-1284-cü illər arasında hazırlanmış sənəddən Naxçıvan mədrəsələri haqqında daha geniş məlumat əldə etmək olur. Həmin sənəd 1186-ci ildə Naxçıvanda Mömin Xatun (Atabəy Məhəmməd Cahan Pəhləvanın (1172 – 1196) birinci arvadı) üçün tikilmiş məqbərənin vəqflərinə daxil olan iki mədrəsəyə aiddir. Bu sənədi yuxarıda adlarını çəkdiyimiz mədrəsələrin nizamnaməsi kimi qiymətləndirmək olar. Burada mədrəsələrin idarə olunması və tədris işlərinə rəhbərlik məsələsi, eləcə də müdərrislərin və tələbələrin qarşılıqlı münasibətləri müəyyənləşdirilmiş və təlim işləri ilə əlaqədar olaraq, indi də öz əhəmiyyətini itirməmiş bir sıra faydalı metodik göstərişlər və məsləhətlər verilmişdir. Sənəddən məlum olur ki, həmin mədrəsələrdə dini elmlərlə yanaşı, dünyəvi elmlər də tədris edilmişdir.

XI – XII əsrlərdə Hindistan, Çin, Misir, Slavyan ölkələrindən Azərbaycana, eləcə də Azərbaycandan bir sıra Avropa və Asiya ölkələrinə tacirlər, sənətkarlar gedib mədəniyyətlərini bir-birilərindən əxz ediblər.

Bu dövrdə Azərbaycanda bir sıra məhəlli məktəblər, xəttatlıq, musiqi məktəbləri və mədrəsələr də fəaliyyət göstərir, elm və mədəniyyət, ədəbiyyat və incəsənət, nəzm və nəsr bu dövrdə daha da inkişaf etməyə başlayır.

XI – XII əsrlərdə Azərbaycanda 210-dən çox şair, ədib, filosof fəaliyyət göstərmişlər. Bu dövrün görkəmli şəxsiyyətləri içərisində Xətib Təbrizi, Əbül-Üla Gəncəvi, Fələki Şirvani, İzzəddin Şirvani, Mücirəddin Beyləqani, Məhsəti Gəncəvi, Qivami Mütərrizi və başqaları də vardı. Onların içərisində ən istedadlıları, yüksək şairlik təbinə malik və öz dövrünə görə təlim-tərbiyə sahəsində müstəsna xidmət göstərən Xaqani Şirvani və Nizami Gəncəvi idi.

# XI – XII ƏSR AZƏRBAYCAN MÜTƏFƏKKİRLƏRİNİN ELMİ-PEDAQOJİ GÖRÜŞLƏRİ

## Qətran Təbrizi
## (1012 – 1088)

***Qətran Təbrizinin pedaqoji fikirləri.*** XI əsr Azərbaycan xalqının ictimai-bədii pedaqoji təfəkkür tarixinin görkəmli nümayəndələrindən biri Qətran İbn Mənsur Təbrizidir. O, təkcə Azərbaycanda deyil, bütün Yaxın Şərqdə mədhiyyələr yazan, dəyərli fikirlər söyləyən, hikmətli sözlər deyən böyük mütəfəkkir kimi tanınmışdır.

O, Təbrizdə, Gəncədə, Naxçıvanda yaşayıb yaratmış qüdrətli Azərbaycan sənətkarı olmuşdur. Qətran Təbrizinin «Divan»nı ilk dəfə toplayıb nəşr etdirən Məhəmməd Əli Naxçıvani olmuşdur. Daha sonra Azərbaycanda Qulamhüseyn Beqdeli bu əsəri farscadan azərbaycancaya sətri tərcumə etmişdir.

Qətran Təbrizinin bu gün əlimizə gəlib çatdığı həmin Divan həm bədii, həm pedaqoji, həm də tarixı baxımdan çox dəyərlidir. Onun Divanı şairin həyat və yaradıcığını öyrənməyə imkan verdiyi kimi o dövrün tarixi hadisələrini də öyrənməyə imkan verir. Q.Təbrizi 1012-ci ildə Təbrizin yaxınlığında Şadiabad kəndində əkinçi ailəsində anadan olmuş və 1088-ci ildə Gəncədə vəfat etmişdir.

İstər öz dövründə, istərsə də sonrakı dövrlərdə bir sıra məşhur səyyahlar, şairlər, mütəfəkkirlər öz əsərlərində Q. Təbrizinin adını çəkmişlər. Nasir Xosrov Ələvi (1004 – 1088) Q.Təbriziyə «gözəl şair», Ənvəri Əbivərdi (1111 – 1135) – «şairlərin fəsihi», Rəşidəddin Vətvat (1088 – 1182) – «həkim Qətran», Dövlətşah Səmərqəndi isə «şairlərin imamı» kimi adlandırmışlar.

Qətran öz şeirlərində Azərbaycan hökmdarlarının qəhrəmanlığı, şücaətini, ədalətini, vətənpərliyini, əxlaqi, mənəvi keyfiyyətlərini mədh etmişdir. Qətranın mədh etdiyi hökmdarlar XI ərdə Arran dövlətinin və Azərbaycanda hakimiyyət başında duran üç sülalənin üzvlərindən, habelə onlann saraylarının və ordularının xadim və sər-

kərdələrindən ibarətdir. Bu üç sülalə əsasən Şəddadilər, Vəhsudanlar və Rəvvadilərdən ibarətdir.

Qətranın yaradıcılığında həm yüksək bədiilik, həm tarixi hadisələrin təsviri, həm tarixilik, həm də tərbiyəvi əxlaqi keyfiyyətlərin şərhi yüksək dərəcədədir. Qətran Təbrizinin «Divan»ını oxuduqca gözümüz qarşısında yalnız yüksək ilhama malik bir şair deyil, həm də bir pedaqoq, müəllim, tərbiyəçi, qədim Yunan və Şərq elm və mədəniyyətinə dərindən bələd olan görkəmli bir alimin siması canlanır.

Təbrizi bir müəllim-metodist kimi fars dilinin ilk izahlı lüğətinin müəllifidir. «Ət-təfasir» adlanan fars dilinin bu izahlı lüğəti ilk didaktik əsərlərdən sayıla bilər. Qeyd edək ki, bu sadəcə olaraq bir sözlük deyil, həm də burada xüsusi metodika ilə hər sözün izahında əxlaqi fikirlər, atalar sözləri və məsəllər verilir ki, bu da sözün mənasının yaxşı mənimsənilməsinə, uzun müddət yadda qalmasına, dərk edilməsinə səbəb olur.

XI əsrdə yaşamış məşhur şair və səyyah Nasir Xosrov 1046 ildə Təbrizə gəldikdə Qətranla görüşmüş, onun bu kitabı ilə tanış olmuş və özünün «Səfəmamə» əsərində belə yazmışdır: «Bu fars dilinin ilk izahlı lüğətidir. Bu lüğətdə Qətran bir metodist kimi sözlərin izahını misallarda elə vermişdir ki, onu oxuduqda uzun müddət yadda qalır. Onun yazdığı lüğət kitabı uzun illər boyu fars dilini öyrənənlər üçün mühüm metodik kitab olmuş, bir növ dərs vəsaiti rolu oynamışdır”.

Orta əsr Azərbaycan tədqiqatçıları qeyd edirlər ki, Q.Təbrizi fars leksioqrafiyası tarixində ilk izahlı lüğətin yaradıcısı olmuşdur. Bu barədə «Lüğəti-fars»ın müəllifi Məhəmməd Hinduşah Naxçıvani (XII əsr) və başqaları yazmışlar. Bu yazılardan məlum olur ki, XI – XII əsrlərdə fars dilçiliyi sahəsində aparıcı rolu məhz azərbaycanlılar olmuşlar. Bu əsərin başa çatmasında Qətran hər vasitədən, o cümlədən təsadüfən rastlaşdığı səyyahdan, yəni Nasir Xosrovdan da istifadə etməyə çalışmışdır. Bunu da qeyd edək ki, məhz Q.Təbrizinin yazdığı lüğətin əsasında sonralar Əsəd «Müstəş-hədat», Əbu Nəfs Sədi «Risalə», Əlaəddin «Zübdətül-lüğət kitablarını yazmışlar.

Qətranm şeirləri də əxlaqi, mənəvi ibratamiz fikirlərlə zəngindir. O, həyat haqqında fikirlərini mənsub olduğu sadə xalq kütləsinə müraciətlə belə deyir:

*Ey ciyəri yanan, bu bağdan meyvə axtarma*
*Bu bağ ancaq ikiqapılı bir söyüdlükdür.*
*Bihudə danışma ki, bağban arxada durub*
*Torpaq kimi aram ol, yel kimi ötüb keç.*

Şair demək istəyir ki, yaşadığımız həyat olum və ölüm adlı iki qapısı olan söyüdlükdən ibarətdir. Olum qapısından bu söyüdlüyə daxil olan insan dadlı meyvələr axtarır, nəsə bir şey toplamaq istəyir. Lakin nəzərə almır ki, bu bağ söyüdlükdür. Bu söyüdlükdən dərilmiş «meyvə» heç nəyə yaramayacaq. Əcəl adlı bağban pusquda durmuş, insanı ölüm qapısından içəri atmaq üçün fürsət gözləyir. Şair bildirir ki, bu həyatda insan torpaq könüllü olmalı, aza qane olmalı, maddiyyətə, dünyagirliyə, mala, pula hərisliyə, yüksək könüllüyə meyl etməməlidir. Çünki əldə heç nə qalmayacaqdır. Bu dünyada heç nə əbədi deyildir. Qətran sanki demək istəyir ki, «Bir şey tapdınsa sevinmə, onsuz da sənin olmaycaqdı. Bir şey itirdinsə kədərlənmə, onsuz da o sənin olmayacaqdı». Şeirin bu açıqlamasından belə qənaətə gəlmək olar ki, Qətran maddiyyat aləminin adamı olmamış, mənəviyyat aləminin adamı olmuşdur.

*Başqa bir şeirində o, belə yazır:*
*Bədənimin yarısı zəhmətdə, yarısı əzabdadır,*
*Qördüyün hər işi əvvəlcə ağıl tərəzisi ilə ölç.*
*Kim ki, mal toplamaqdan ötrü dərd, qəm və əzab çəkir,*
*Mal-dövləti gedəcək. ona ancaq əzabı qalacaqdır.*

Qətranın şeirlərindən duyulur ki, dövlətçilikdə, hökmdarların dövləti idarə etməsində ilk növbədə onların ağlı, biliyi, maarifçiliyi, ədaləti böyük rol oynayır. Qətran hökmdarları tərif etməklə sanki onları dövləti ağılla, mənəviyyatla, elm və biliklə idarə etməyə çağı-

rır. Q.Təbrizinin Aərbaycan hökmdarlarını dostluğa və birliyə çağırır, ölkədə vahid qüdrətli bir dövlət yaratmağı zəruri hesab edirdi. Buna görə də Gəncənin Şəddadilər sülaləsinin altıncı hökmdarı Əbülhəsən Ləşkəri (1033-1050) ilə Əmir Əbüfəzl Cəfərin barışıb dostluq etməsini yüksək qiymətləndirir.

Q.Təbrizinin şeirləri, demək olar ki, tərbiyənin bütün sahələrini əhatə edir. Q.Təbrizi öz məmduhlarının daha çox mənəvi keyfıyyətlərinə üstünlük vermişdir. Bu mənəvi keyfiyyətlər sırasında vətənpərvərlik, qəhrəmanlıq, şücaət, cəsarət, düşmənə qarşı amansızlıq, dostluqda sədaqət, comərdlik, insanpərvərlik, sülhsevərlik, səxavət, əliaçıqlıq, fədakarlıq, xeyirxahlıq, ədalət və s. kimi sifətlər mühüm yer tutur.

Q.Təbrizi öz həyat və fəaliyyəti ilə mənəviyyat nümunəsi olan, insanlara öz əxlaqi ilə örnək olan Məhəmməd Peyğəmbərin nümunəsindən geniş istifadə edir. İnsanların əxlaqi, mənəvi keyfiyyətlərini tarixi şəxsiyyətlərin nümunəsində izah edir. Bu da şairin geniş məlumatlılığını göstərməklə bərabər, həm də onların özünəxas, əxlaqi sifətlərini oxuculara açıqlayır, onlardan nümunə gətirməyə çalışır. Məsələn, şair Əbülmüzəffər Fəzlu haqqında belə deyir: «Bu şah Firudin hörmətli, / Ənuşirəvan ədaləthdir / Bilikdə Buqrat və Əflatunun adlanı xatirələrdən çıxarmışdır».

Qətran Təbrizi irsi amillərin insanın formalaşmasında müəyyən rol oynamasını qeyd edir və "Ot kökü üstündə bitər" misalına istinad edir. Mütəffəkirin fikrincə hər canlı varlığın öz təbiəti var, o ancaq öz təbiətinin xususiyyətlərini ifadə edir:

*Hər qırmızı mərcan olmaz, hər yaşıl mina olmaz,*
*Dagda olan hər bir daş yaquti – rummani ola bilməz.*
*Sədəfə düşən hər damla nadir mirvari ola bilməz.*

Qstran Təbrizi böyük şair olmaqla bərabər, bir pedaqoq, metodist, tərbiyyəçi kimi də XI əsr pedaqoji fikir tariximizdə mühum yer tutmuşdur.

## Xətib Təbrizi
## (1030-1109)

Maarif, mədəniyyət və pedaqoji fikir tariximizin görkəmli nümayəndələrindən biri XI əsrdə yaşayıb yaratmış, ədəbiyyatşünas, dilçi, müəllim və pedaqoq Xətib Təbrizidir.

Dövrünün alimləri Xətib Təbrizini «ədəbiyyat, qrammatika və leksikoqrafiya elmlərinin başçısı», "ərəb elmlərinin rəhbəri və ədəbiyyatşünaslığın bayraqdarı», əxlaq və mənəviyyat şərhçisi» kimi adlandırmışlar. Bu dahi Azərbaycan alimi Şərqin müsəlman xalqlarının elm, maarif və mədəniyyətinin inkişafında böyük xidmətləri olmuşdur. O, qırx ildən artıq «Nizamiyyə» mədrəsəsində ədəbiyyat elmləri bölməsinin rəhbəri, professoru və həmçinin oranın zəngin kitabxanasının müdiri olmuşdur.

O öz dəyərli əsərləri ilə ədəbiyyatşünaslıqda tam bir çevriliş etmiş, dilçiliyin bir çox problemlərini təhlil etmiş, öz şərhləri ilə dərin əxlaqi, pedaqoji əhəmiyyətli fikirlər irəli sürmüşdür.

Xətib Təbrizinin əsil adı Əbu Zəkəriyyə Yəhya İbn Əli İbn Məhəmməd İbn Həsən İbn Məhəmməd İbn Musa İbn Bistam əl Şeybanidir. Lakin o özünü Xətib Təbrizi kimi təqdim etmişdir. Ədib 1030-cu ildə Azərbaycanın Təbriz şəhərində doğulmuş və böyümüşdür. İlk təsilini Təbrizdə almış, ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Sonra 10 ilə yaxın Suriya və Misiri gəzmiş, böyük alimlərlə görüşmüşdür. Bəsrədə ərəb filologiyası sahəsində mükəmməl bilik əldə etmək üçün Fədl İbn Məhəmməd ibn Əli Əbu-l Qasim əl Qəsabanidən[1] dərs almış və Təbrizə qayıtmışdır.

O, Dəməşqə olanda «Bağdad tarixi»nin müəllifi məşhur tarixçi Xətib Bağdadi ilə tanış olmuşdur. Ömrünün çox hissəsini isə Bağdadda yaşamışdır. X.Təbrizi Misirdən Bağdada qayıdandan sonra Bağdad Nizamiyyə mədrəsəsi açılır və 1067-ci ildə Nizam-əl-Mülk Xətib Təbrizini Nizamiyyə mədrəsəsinə dəvət edir.

Sərqin bir çox alimləri X.Təbrizinin tələbələri olmuşdur: Əbu Bəkr Məhəmməd İbn əl-Ərəbi (1076 – 1148), ), Əbu-l-Fədl İbn Na-

[1] Fədl İbn Məhəmməd ibn Əli Əbu-l Qasim əl Qəsabani (? – 1052)

sir (1074 – 1155), Əbu-l Həsən Səd əl-Xeyr İbn Məhəmməd İbn Səhl əl-Ənsari (? – 1146), və b. Onlar həmin dövrün məşhur alimləri kimi tanınmışlar. Bu da Xətib Təbrizinin yüksək pedaqoji ustalığından, bacarıqlı müəllim olmasından xəbər verir.

Xətib Təbrizinin əsərləri dünyanın müxtəlif kitabxanalarında qiymətli sənət nümunələri kimi qorunub saxlanılmış, müasir dövrümüzdə isə Almaniya, Hindistan və Ərəb ölkələrində çap olunmuşdur. Uzun illər boyu Xətib Təbrizinin şərhləri məktəb və mədrəsələrdə Şərq ədəbiyyatının klassik nümunələri kimi tədris olunmuşdur.

Xətib Təbrizinin həyat və yaradıcılığı haqqında Azərbaycanda ilk məlumatı XV əsrdə yaşamış Hinduşah Naxçıvani məlumat vermişdir, sonra Məhəmmədəli Tərbiyət özünün «Danişməndani-Azərbaycan» əsərində klassik ədəbiyyatdakı tərbiyəvi öyüdləri və vətənpərvərlik ideyaları haqqında məlumat vermişdir.

Xətib Təbrizinin elmi-pedaqoji irsi olduqca zəngin və rəngarəngdir. O, ömrünün sonuna qədər elmi-pedaqoji fəaliyyətini dayandırmamış, dəyərli əsərlər və şərhlər yazmışdır. Həmin əsərlərdə ədəbiyyat və dilçiliyin tədqiqi ilə bərabər Şərq xalqlarının adət və ənənələri, etnoqrafiyası, əxlaqi, mənəvi təfəkkürü öz əksini tapmışdır.

Xətib Təbrizi şeirlərin təhlilinə bir çox yönlərdən – pedaqoji, psixoloji, dilçilik, etnoqrafik, ədəbiyyatşünaslıq, tarix, folklor cəhətlərindən yanaşmışdır. Bu onun dərin və hərtərəfli biliyə olmasından, pedaqoji işdə çalışmasından, müəllimlik fəaliyyətindən irəli gəlmişdir.

Xətib Təbrizi insanın formalaşmasında, tərbiyə olunub ərsəyə çatmasında ictimai mühitin roluna yüksək qiymət verir. O, «Siqt əzzənd”in şərhi»ndə insanın formalaşmasında zaman və məkanın da böyük rol oynadığını deyərək Əbu-l-Əlanın aşağıdakı beytlərinin izahını vermişdir: «Kim ki, gecələrlə yoldaşlıq edibdir, ona (gecələr) dostu aldatmağı və cəfəngiyatı öyrədibdir. Dünyanın işləri onu o qədər dəyişdirmişdir ki, hətta elə zənn edir ki, dağları qarışqalar daşıyırlar». X. Təbrizi “gecələrlə yoldaşlıq” etməyi xoşagəlməz hesab edir. Səhərin, işığın əksi olaraq gecəni, qaranlığı insana pis təsir edən dosta bənzətmişdir.

Xətib Təbrizinin fikirlərindən aydın olur ki, cəmiyyətin əyrilikləri insanların tərbiyəsinə qüvvətli təsir göstərir. O, bu fikri ilə mühitin insan tərbiyəsində roluna yüksək qiymət verir. Pozulmalara müqavimət göstərməyi alim elmi biliklərə yiyələnməkdə görürdü. Yalnız elm, bilik vasitəsi ilə insanlar zamanın hadisələrini dərk edə bilərlər, mühitin onların qarşısına çıxardığı çətinliklərə sinə gərərək aciz və zəif qalmazlar.

Böyük mütəfəkkir insanları öz vətənini kortəbii surətdə deyil, ağılla sevməyə çağırırdı. Məhz buna görə də, alim vətənpərvərliyi insan ağlının kamilliyində, insanın mərdliyində görürdü. O öz vətəninə, xalqına biganə olanları tənqid edərək yazırdı: «Öz qəbilənin – xalqının olduğu bir ölkədən şikayətlənmə, yaxın adamlarının yaşadığı torpağa qarşı biganə olma».

İnsanpərvərlik Xətib Təbrizinin fikrincə, vətənpərvərlik kimi müqəddəsdir. O, insanların bir-biri ilə mehriban, xoş ünsiyyətdə olmasını təbliğ edirdi: «İnsanlarla xoş ünsiyyətdə olanlar ən şərəflisidir». Ədib öz əsərlərində insanları əməksevərliyə, fəaliyyət göstərməyə səsləmişdir.

X.Təbrizi insanları əzmlə, iradə ilə fəaliyyət göstərməyə çağıraraq deyir: «İnsan öz fikrində möhkəm olmalıdır». Alim bunu da tələb edirdi ki, insan bir iş görmək istədikdə təmkinli, səbirli olmalı, tələsməməlidir. Ədib deyirdi: «İnsan öz işində ola bilsin ki, tələsməsə, öz ehtiyacını tələsik etməsə, daha tez müvəffəqiyyət qazanar. Amma işində tələssə (bu) tələskənlik onun istədiyini gecikdirər». Bir işə başlayarkən onun aqibətini düşünməmək, düşüncəsiz hərəkət etmək daima fəlakətlə və uğursuzluqla nəticələnər. İnsanları əzmlə, tələsmədən, ağılla iş görməyə çağıran alimin fikrincə, mətanət və şəraiti qiymətləndirmək ən böyük qoçaqlıqdır. Düşüncəsiz hərəkət edərək özünü təhlükəyə atanları X.Təbrizi tənqid edərək yazırdı: "İnsanın özünü ölümə sürükləməsi qoçaqlıq deyil, axmaqlıqdır. Qoçaqlıq odur ki, insan qalib gələcəyini qət etdikdən sonra bir işə başlasın. Amma insan məhv olacağını bilə-bilə yersiz bir addım atsa, bunu dəlilikdən başqa bir şey hesab etmək olmaz".

Vətənpərvərlik, humanizm. insana qayğı, alicənablıq, mərdlik, əməksevərlik, qoçaqlıq kimi yüksək fikirlər irəli sürən X. Təbrizi bir pedaqoq kimi insanların davranış qaydaları, ünsiyyət mədəniyyəti, ləyaqəti, şərəfi, mənliyi haqqında da öz dəyərli pedaqoji görüşlərini söyləmişdir.

O, deyirdi: "Ədəb elə bir şeydir ki, insan ona əməl etdikdə xalqın içərisində zinətləndirir".

Xətib Təbrizi öz pedaqoji fəaliyyəti, yaradıcılığı və dəsti-xətti ilə Azərbaycan pedaqoji mühitində görkəmli yerlərdən birini tutur.

## Xaqani Şirvani
## (1120 – 1199)

Azərbaycan ədəbiyyatında nəsrin tarixindən danışanda onun ilk nümayəndəsi kimi, adətən, Füzulini göstərirlər. Lakin Xaqaninin yaradıcılığına müraciət edəndə onun bir neçə nəsr əsərinin də müəllifi olduğunu görürük. Xaqani öz fəxriyyələrində qüdrətli nasir olduğunu dəfələrlə söyləmişdir: "Mən nəzm və nəsr ustasıyam. Əlimə qələm aldıqda, qələmin özü dilə gəlib deyir ki, kimin belə əli olsa, o, ustaddır".

Hələlik bizə Xaqaninin "Töhfətül-İraqeyn" əsərinə nəsrlə yazdığı bir müqəddiməsi, epistolyar üslubda yazdığı 60 məktubu və ərəb dilində bir nəsr əsəri məlumdur.

Nizamidən fərqli olaraq, Xaqani sarayla əlaqədar olsa da, onun yaradıcılığı o zaman bir qayda şəklini almış məddahlıqla məhdudlaşmır. O öz şeirlərində mütərəqqi fikirlər yürütmüş, şah saraylarının iç üzünü ifşa edən əsərlər yazmışdır. Biz Xaqanini yalnız "məddah" şair hesab etsək, böyüklüyünü inkar etmiş olarıq, çünki onun mədhiyyələri, şairin əsas, xarakterik cəhətlərini deyil, tarixən şərtlənən məhdud cəhətlərini ifadə etmişdir. Xaqaninin əsl ürək arzuları, daxili iztirab və həyəcanları onun lirik əsərlərində – həbsiyyə, mərsiyə, qəzəl, rübai və qitələrində öz ifadəsini tapmışdır. Xaqani bu kimi əsərlərində xalqın ağır vəziyyətindən də bəhs edərək zülmkar şahlara qarşı nifrət və lənətlər yağdırmışdır. Xaqaninin ya-

radıcılığındakı bu cəhət onu bir çox müasirlərindən ciddi surətdə fərqləndirir. O, müəllimi Əbül-Ülanın təşviqi ilə saraya getmişsə də, sona qədər oranın zahiri dəbdəbəsinə valeh olub qalmamışdır. Xaqani mədh etdiyi şahları həm də sonsuz nifrət hissi ilə satira atəşinə tutmuş, xalqın dərdinə ağlamış, həbs, işgəncə və məhrumiyyətlərdən belə qorxmamışdır.

Xaqaninin əsərləri tədqiq edildikdə onun öz dövründəki əsas elmlərə yaxşı bələd olduğu ortaya çıxır. Azərbaycan alimlərindən Məhəmmədəli Tərbiyət, Xaqaninin elmləri necə dərindən bildiyi haqqında belə yazır: "Xaqani öz dövründə işlənməkdə olan elmlərin çoxuna, xüsusən hikmət, heyət, nücum, musiqi elmlərinə yaxşı bələd idi. Onun əsərlərində bu elmlərdən çox istilahlar vardır; o, tarixi də gözəl bilirdi".

**Xaqani Şirvaninin həyatı.** Xaqani 1106-cı ildə Şirvanda anadan olmuşdur. "Töhfətül-İraqeyn" əsərində o, vəzir Cəmaləddinlə söhbətini təsvir etdiyi zaman yazır ki, mən vəzirin "haralısan?" sualına belə cavab verdim:

*Dedim: Bir şagirdəm, həm də söz bilən,*
*Şirvan torpağında doğulmuşam mən.*

Xaqaninin əsl adı İbrahim, atasının adı Əli, ilk təxəllüsü "Həqayiqi", əsl təxəllüsü isə "Xaqani"dir. Şair yoxsul bir ailədə böyümüşdür. Xaqaninin ailəsi və necə həyat keçirdiyi haqqında onun öz əsərlərində çoxlu məlumat vardır. Xaqani xüsusilə "Töhfətül-İraqeyn" əsərində özü haqqında geniş söz açmışdır. O, ata babasının bir toxucu olduğunu bildirərək yazır:

*Sənətdə toxucu olmuşdur babam,*
*Onun sənətindən almışam ilham.*

Sonra o, atasının dülgər olduğundan bəhs edir:

*Atam dülgər idi, dərs alıb ondan*
*Mən də öz dövrümdə oldum sözyonan.*

Xaqani anasını həmişə məhəbbətlə yad etmiş və xətrini əziz saxlamışdır. O, anasından hörmətlə söz açaraq, aşpaz qızı olduğunu qeyd edir:

*Bir aşpaz qızıydı anam əzəldən,*
*Onunçun hər kəsi doyururam mən.*

Və sonra

*Nəsturi qızıydı möbədi nəcad,*
*Sonra da islama olmuşdur mötad.*

Xaqaninin bu beytlərindən aydın olur ki, onun ata-babası toxucu, atası dülgər, ana babası aşpaz, anası isə sonradan islam dinini qəbul edən nəsturi qızı idi. Belə kasıb ailədə doğulan İbrahimin həyatı olduqca mürəkkəb bir şəraitdə keçmişdir. O, səkkiz yaşında ikən atası "zəmanənin zülm və əzabına tab gətirməyib" ailəsini tərk edib getmişdir. Sonra kiçik yaşlı İbrahim o zamanın məşhur alim və təbibi olan əmisi Kafiəddin Ömər ibn Osmanın tərbiyəsi altında dövrünün müxtəlif elmlərindən dərs alıb böyümüşdür. Xaqani əmisi haqqında belə məlumat verir:

*Bil, əmim Ömərin sayəsində mən*
*Yetimlik divinin qaçdım əlindən.*
*Atam dözməyərək dərdə cahanda,*
*Sam Zalı atantək məni atanda,*
*Əmim Simurq kimi sərf edib əmək,*
*Qanadı altına alaraq, Zal tək –*
*Qaldırdı biliyin Qafına həmən,*
*Bəsləndim onun öz yuvasında mən.*

Xaqani öz əmisindən dərs aldığı zaman tacik xalqının XI əsr şairlərindən Sənai Qəznəvinin "Hədiqətül-həqayiq" adlı əsərinin təsiri altında "Həqayiqi" təxəllüsü ilə şeirlər yazırdı. Əmisi hələ sağ

ikən gənc Xaqanini bir şair kimi tanınmağa başlamışdı. Əmisi vəfat edəndə Xaqaninin 25 yaşı var idi. Artıq bu vaxt onun şeirləri çox yayılmışdı. Elə bu zaman Şirvanşahların məddahı, Məlik-üş-şüəra Əbül-Üla Gəncəvi onu Şirvanşahlar sarayına aparıb orada "Xaqani" təxəllüsünü vermişdir. Qısa vaxt ərzində Xaqani öz istedad və qabiliyyəti ilə saray şairləri arasında mühüm bir mövqe tutdu. Əbül-Üla əvvəlcə şair Fələki Şirvaniyə vəd etdiyi qızını Xaqaniyə verib, onunla qohum oldu. Az sonra Xaqani yaradıcılıq aləmində hətta öz ustadı Əbül-Ülanı belə geridə qoydu. Bu cəhət saray xadimlərinin həsədinə səbəb olduğu kimi, Əbül-Ülanı da narahat etdi. O, eyni zamanda saray həyatı ilə barışmayan, hökmdarla yola getməyən kürəkəninə görə öz hörmət və mövqeyinin əldən gedəcəyindən də qorxuya düşdü. Əbül-Üla onu nəsiyyətlə yola gətirə bilmədiyini görəndə Xaqanini kəskin bir surətdə həcv etdi. Şəxsi və ictimai həyatında haqsız hücumlara məruz qalan Xaqani özündən yaşca böyük olan qayınatası və müəllimi Əbül-Ülaya kəskin cavab verməyə məcbur oldu.

Bu kimi hadisələr Xaqanini ikiüzlülüklə dolu olan saray həyatından get-gedə usandırdı. Çünki o, düzlüyü sevən, paxıllığa nifrət edən bir şəxs idi. Bir rübaisində şair belə demişdir: "Əgər istəyirsən qəlbin ayna kimi təmiz olsun, on şeyi qəlbindən çıxart: tamah, xəyanət, paxıllıq, haram, qeybət, ədavət, həsəd, təkəbbür, riya və kin".

Xaqani bir saray məddahı kimi yaltaqlıq, itaət və təlxəklik etmək istəmirdi. Saray həyatı onun üçün getdikcə dözülməz olurdu. O, sarayda özünü "qanadı qırılmış quş kimi dəmir qəfəsdə" hiss edirdi. Şair saraydakı vəziyyəti "Töhfətül-İraqeyn" əsərində belə təsvir edir:

*İndi də halımdın qoy gileylənim,*
*Gör necə olmuşdur əhvalım mənim:*
*Bəla dənizinə*[1] *mən düşən gündən,*
*Sədəftək əlsizəm, ayaqsızam mən.*
*Sarayda qalmadı bir nəfər insan*
*Ki, mənə paxıllıq etməsin... aman!*

---

[1] Yəni saraya

*Arzu var isə də, ona yol yoxdur.*
*Murada çatmağa maneə çoxdur.*
*Fitil nazik olsa, tükənərsə ağ,*
*Titrəyib sönməzmi bir anda çıraq?*
*Mən vəfa görmədim bir həmdəmimdə,*
*Görmək nə, heç onu eşitmədim də.*
*Mən məna yaradan tütiyəm, əfsus,*
*Şirvan qəfəsində olmuşam məhbus!*
*Şamaxı, bu geniş, fərəhli diyar,*
*Nə üçün bəs gəlir ürəyimə dar?*
*Vətənim olmuşdur, bax, mənə zindan,*
*Hər tüküm canıma olmuş nigəhban.*
*Nəinki bir nəfər növi-bəşəri,*
*Hətta küləyi də qoymazlar bəri.*
*Bir addım atarsam yola əgər mən,*
*Ya da bir ah çəksəm dərdli ciyərdən,*
*Düşmən tez bir düyün vurub o aha,*
*Durmadan aparıb çuğullar şaha.*

Xaqani Şirvanşahlar sarayının məngənəsindən can qurtarmaq üçün hətta çox sevdiyi Şirvanı tərk etməyə belə məcbur olur. O zaman Xorasanda Səlcuq padşahı Səncər hökm sürürdü. Xaqaninin əsərlərindən aydın görünür ki, o, Əmiri Müizzi və Ənvəri kimi məşhur tacik şairlərinin yaşadığı Xorasana, ya da "Nizamiyyə" mədrəsəsi kimi şöhrət tapmış Bağdada getmək fikrində imiş. Çox ehtimal ki, şair, hökmdardan razılıq almaq üçün özünün bu səfərinə "ziyarət" adı vermişdir. Lakin Şirvanşah bu məsələnin əsl səbəbini başa düşdüyü üçün onu gözdən qoymaq istəmirdi. O, Xaqaninin saraydan narazı olduğunu bilərək, həmişəlik Şirvandan qaçmaq istədiyini duyub onun üstünə gözətçilər qoymuşdu. Şair bir qəsidəsində belə demişdir:

*Nə səbəbdir ki, Xorasanə məni qoymurlar,*
*Bülbüləm, bağü gülüstanə məni qoymurlar.*

Çox çəkmədi ki, Səncər səltənəti güclü xalq hərəkatı qarşısında dayana bilməyib süqut etdi. 1153-cü ildə Quz tayfası Ceyhun çayı ətrafında böyük üsyan qaldırıb ağır şah vergisindən boyun qaçırtdı. Bu etinasızlıqdan hiddətlənmiş Səncər quzlara divan tutmaq, silah gücünə onları yenidən boyunduruq altına salmaq məqsədilə hücuma keçdi. Lakin Səncər qoşunu quzların güclü müqavimətinə rast gəlib pərakəndə oldu. Quzlar böyük inad və cəsarətlə Səncəri məğlub etdilər.

Xaqani Xorasan tərəfdə baş verən bu hadisəni eşitdikdə fikrini dəyişərək Bağdada getməyi qərara aldı. Nəhayət o, Şirvanşah Mənuçöhrü "Məkkə ziyarətinə" icazə verməyə razı edib 1156-cı ildə, 36 yaşında yola çıxdı.

Şair səfəri zamanı, maraqlı hadisələrin şahidi oldu və bir neçə əsər yazdı. O, Dəclə kənarından keçərkən Sasani şahlarının paytaxtı olan "Taqi-Kəsra" qarşısında "Mədain xərabələri" adlı böyük fəlsəfi şeirini və sonra da Şərq ədəbiyyatı tarixində ilk mənzum səfərnamə olan "Töhfətül-İraqeyn" məsnəvisini yazdı.

Xəlifə Məhəmməd ibn Müstəhzər böyük Azərbaycan şairinin tərifini eşidəndə ona öz yanında mirzə (dəbir) olmağı təklif edir. Lakin Xaqani tezliklə doğma vətənə qayıtmaq fikrində olduğunu bildirərək, xəlifənin bu təklifini rədd etdi. Şair bu barədə belə yazır:

*Xəlifə deyir ki, dəbirim[1] olsan,*
*Qarşında baş əyər möhtəşəm dağlar.*
*Dəbirəm doğrudur, yazım misilsiz,*
*Lakin baş əymərəm bu işə zinhar.*
*Bu dəbir olmaqla nə fəxr edim ki,*
*Vəzirlik də mənə deyil iftixar.*
*Bir günəş ikən mən olmaram ulduz,*
*Borc papaq qoymaqda nə məziyyət var?*

Xaqani bu səfər zamanı gördüyü hörmətlərə baxmayaraq, vətənpərvər bir şair kimi, yenə ana yurda doğru can atırdı. 1165-ci ildə

---

[1] Dəbir – mirzə, katib deməkdir.

o, vətənə qayıtdı. İndi artıq Şirvanşah Mənuçöhr ölmüş və onun yerinə oğlu Axsitan keçmişdi. Səfəri zamanı hər yerdə böyük ehtiram görmüş olan Xaqani, qayıtdıqdan sonra daha məğrur və yenilməz idi. Şair hələ Şirvanşah Mənuçöhrün vaxtında onun oğlu Axsitandan çox ehtiramsızlıqlar görmüşdü. İndi o, Axsitana daha çox nifrət edir və ona qətiyyən boyun əymək istəmirdi.

Xaqani ikiüzlü, yaltaq saray adamlarının daha fəal surətdə onun əleyhinə çıxmasını görüb, saraydan tamamilə incidi və yenidən səfərə çıxmaq üçün Şirvanşahdan icazə istədi. Lakin Şirvanşah Axsitan onu gözdən kənar qoymaq istəmirdi. Bundan sonra saray mühiti Xaqanini daha artıq sıxmağa başladı və günlərin birində o, təhqirə, əzab və əziyyətə dözməyərək Beyləqan tərəfə qaçdıqda şahın adamları tərəfindən tutulub geri qaytarıldı. Beləliklə, bir zaman şahı öz sözləri ilə göylərə qaldıran şairin vəziyyəti və mövqeyi tamam dəyişdi. O, şaha xəyanətdə ittiham edilərək, 1170-ci ildə Şabran qalasına salındı. Bu vaxt Xaqaninin yaşı əllini keçmişdi. Şair, təxminən, yeddi aya qədər həbsdə qaldı. O, həbsxanada çox əziyyət çəkdi və “dünyaya sığmayan dərdlərini” “Həbsiyyə” adı altında toplanan əsərlərində ifadə etdi.

Şair həbsdə olan zaman Azərbaycana hücum edilir. Şirvanşah Axsitan gürcü şahın köməyi ilə hücumu dəf etmək üçün qoşun toplamış və əks-hücuma keçmişdi. Xaqani həbsdə ikən bu müharibədən xəbər tutmuş və gürcü qoşunu içərisində Bizans şahzadəsi Andronik Komnenə bir qəsidə yazaraq azad edilməsinə çalışmağı barədə ondan xahiş etmişdi. Lakin bu zaman Axsitanın hökmdarlığı çox zəiflədiyi üçün o, şairi xalqın tələbi ilə həbsxanadan azad etdi. Həbsdən azad olandan sonra Xaqani tamamilə ruhdan düşmüşdü. O, şah sarayından və öz dövründən narazılığını bir çox əsərlərində qeyd etmiş və belə nəticəyə gəlmişdir:

*Ya olaydım yüz il əvvəl mən, ya da –*
*Yüz il sonra doğulaydım dünyada.*

Xaqani aydın görürdü ki, zəmanəsində “cahillər rahat olduğu halda, alimlər əziyyətdədir; səfil adamlar dövlətli, alicənab adamlar

möhtacdırlar”. Nəhayət, Xaqani əzab və işgəncələrə dözə bilməyərək, tamamilə Şirvandan çıxıb getmək qərarına gəldi. O, 1173-cü ildə ikinci dəfə “ziyarətə” getdi. Lakin o, bu dəfəki səfərində əvvəlki hörmət və ehtiramı görmədi.

Az sonra şair gizlincə Şirvana qayıdıb ailəsini də Təbrizə köçürtdü. Doğma vətənindən ayrılmasının ağırlığını onun aşağıdakı misralarinda aydın görmək olar:

*O köç günü ki mən etdim vida Şirvanə,*
*Təəssüf eylədi qəlbim, ciyər alovlandı.*
*Tutuldum atəşi-hicrə, Arazla dərdləşdim,*
*Araz bu dərdimi bildikdə od tutub yandı.*

Bütün məhrumiyyətlərə baxmayaraq, şair Təbrizin “suyuna və çörəyinə qane olaraq” ömrünün sonunadək orada yaşadı.

Şairin həyatının son illəri çox ağır keçdi. Onun çox sevdiyi ailə üzvləri – 20 yaşlı cavan oğlu, qızı və arvadı bir-birinin ardınca vəfat etdilər. Qoca şair tamamilə tək qaldı. Ömrünün bu dərdli günləri haqqında bir çox mərsiyələr yazdıqdan sonra, 1199-cu ildə Xaqani vəfat etdi və Təbriz şəhəri yaxınlığında, sonralar “Məqbərətüş-şüəra” adlanan Sürxab qəbristanlığında dəfn edildi.

**Xaqani Şirvaninin pedaqoji görüşləri.** Xaqani XII əsr Azərbaycan mədəniyyəti və maarifinin ən görkəmli nümayəndəsi kimi həmişə iftixarla yad edilir. Öz dövründə ümumdünya şöhrəti qazanmış Xaqani barədə deyilməmiş fikirlər hələ çoxdur. Onun şairliyi Azərbaycan ədəbiyyatına bəllidir. Lakin təlim-tərbiyə sahəsində xidmətləri hələ də öyrənilməmişdir. Xaqani haqqında ən böyük məlumat şərqşünas M.A.Sultanov tərəfindən verilmişdir.

Bildiyimiz kimi, XIX əsrə qədər Azərbaycan pedaqogikası müstəqil elm kimi fəaliyyət göstərməmiş, fəlsəfə ilə birlikdə inkişaf etmişdir. Xaqaninin də təlim-tərbiyəyə aid fikirləri bu fəlsəfənin böyük bir hissəsini təşkil edirdi. Onun dünyagörüşü ziddiyyətli və son dərəcə mürəkkəb olduğuna görə hadisələrin ilahi tərəfindən idarə

edildiyini düşünmüş, xalqın çəkdiyi əzab-əziyyəti, zülm-əsarəti dinlə bağlamışdır:

*Şər dolu qapıdan uzaqlaş daha,*
*Xaqani, get sığın vahid allaha.*

Xaqani vahid çıxış yolunu, əsasən, elmdə, idrakda, oxumaqda, bilik əldə etməkdə görürdü:

*Şəriət haqqında mənə sual ver,*
*Möminlər haqqında ancaq xəbər al.*

Şair öz əsərlərində müxtəlif elmlər – fəlsəfə, musiqi, tibb, kimya, ədəbiyyat, sərf-nəhv, natiqlik, iksir və s. barədə fikirlər söyləmiş, bu elmləri öyrənmək üçün "Əbcəd"i əzbərləməyi məsləhət görürdü:

*Əvvəlcə o mənə öyrətdi "Əbcəd",*
*Mənə "həqaiqi" dedi nəhayət.*

Xaqani insana nə qədər çox bilsə də, lovğalanmağı məsləhət görmür, insana hər dəqiqə, hər an oxumağı, öyrənməyi təklif edir:

*Cahildir özünü tərif edənlər,*
*"Çox bilirəm" demə, bilsən də əgər.*

Dahi Xaqani "püstə olmağı", kamal məqamına çatmağı elm öyrənənin əsas vəzifəsi hesab etmişdir. O, bütün elmləri öyrənən adamları padşahlardan, hakimlərdən yüksək tutur, onları – elmli və savadlı adamları özü ilə bərabər tutur, söz diyarına hökmdar hesab edirdi.

Xaqani filosofluq, kimyagərlik, münəccimlik, həndəsə və cəbr kimi elmləri bilənləri aqillik dərəcəsinə qədər yüksək tuturdu, yalnız bu yolla ədalətsiz, rəzil adamlara qalib gələcəyini düşünürdü. Onun fikrincə, "elm adamı ya şair, ya münəccim, ya filosof, ya da iksir axtaran" olarsa, onu neçə-neçə bəla gözləsə də, o bir zaman parlamalı və şəxalənməlidir.

Xaqani elm öyrənməyi, bilməyi, hadisələrin incəliyinə varmağı, insan üçün ən yüksək əqli keyfiyyət hesab edir, tədris və təlim məsələlərinə müstəsna əhəmiyyət verirdi.

Şair uşaqları elm sahəsində öyrənməyə yaş dövrü ilə əlaqədar göndərməyi lazım bilirdi. O, göstərirdi ki, yeddi yaşa qədərki dövr ailə tərbiyəsi dövrü, yeddi yaşdan sonrakı dövr isə müstəqil elmlə məşğul olmaq dövrüdür:

*Sudan və alovdan çıxıb boy atdım,*
*Yəni yeddi yaşa mən gəlib çatdım.*
*Baxaraq açılmış şirin dilimə,*
*Ağıl lövhəsini verdi əlimə.*

Xaqani təhsil alıb böyüdükcə əqlə, zəkaya dolduqca hansı xüsusiyyətə və təbiətə malik olduğunu və sevincinin hüdudsuz olduğunu əsərlərində yer verir. Xaqani yalnız oxumaqla kifayətlənməyi deyil, yeri gəldikcə oxuduqlarını təkrarlamağı da təklif edirdi:

*Məktəbdə elm oxu, fənn öyrən dərs al,*
*Hər nə oxumusan, bir-bir yada sal.*

Xaqaniyə görə, sakitlik və təmkinlilik tədris və təlimin ən birinci şərtlərindəndir. Onun fikrincə, elmə böyük marağı olan hər kəsi, diz çöküb oxuyanı heç kim susdura bilməz, çünki bilik xəstə canın təbibi, kor gözləri nurlandıran işıq, əsarətdən xilas olmaq üçün bir yoldur.

Xaqani hesab edirdi ki, fəlsəfə əqli təcrübə aparan təfəkkür, gizli fikirlərin, təbiət hadisələrinin müammasını açılmasını təmin edən örnəkdir.

Xaqani tərbiyənin mövqeyini qiymətləndirirdi, lakin "əsli-nəcabəti", "zatı-kökü" fərdin inkişafında əsas hesab edirdi. Şairin əsərlərindən öyrənirik ki, bəxt, tale, qəzavü-qədər yox, insanın düşüncə və idrakı onun taleyində böyük rol oynayır.

İnsanda saf və lüzumlu fikirlərin əmələ gəlməsində, püxtələşməsində müstəsna yeri müəllim və onun fəaliyyəti tutur, yəni Xaqani müəllimin əməyi ilə yüksələnləri bu işə qiymət verməyə çağırırdı.

O, bu haqda müxtəlif fikirlər söyləmişdir ki, bunlar da pedaqoji fikir tarixində əhəmiyyətə malikdir. Xaqani müəllimi "könül dostu", "Dəbistanın yaraşığı", "qolundan tutaraq ayağa qaldıran hikmət sahibi", "insanı dilə gətirən sima" və s. adlandırmışdır:

*Gümüş bərabərdir gözündə daşa,*
*Ləldir qələmində qopan talaşa.*
*Gümüş, ya daşdakı naxışlar kimi,*
*Düşüncə tacıma həkk olmuş ismi.*

Xaqani əqlin inkişafında elmə sahib olmaqda məktəbi, müəllimi üstün tutmuşdur. O, ailə tərbiyəsinə də üstünlük vermiş, insanda müsbət keyfiyyətlərin yaranmasında ailənin rolunu yüksək qiymətləndirmişdir. Bir şeirində dünyaya göz açan körpənin ailənin digər yaşlı üzvlərindən faydalanmasını istəyir:

*Odur, bil, böyüyüm, yol göstərənim,*
*Tərbiyə verənim onlardır mənim...*
*Gəlmişəm dünyaya mən belə saf çeşmədən,*
*Xəlq olub ol çeşmədən gövhəri-ümmanım mənim.*

Əxlaq müğənnisi hesab olunan Xaqani tərbiyəli ustad, pedaqoq kimi mənfi və müsbət əxlaqi keyfiyyətlərə aid indi də aktuallığını itirməyən fikirlər söyləmişdir. O, şeirlərində hər şeyi ev tərbiyəsi ilə bağlayır, insanda "bir üz, bir söz" görmək istədiyini tövsiyə edir. Ömrü mənasız keçirməməyi, yaxşı keyfiyyətlər qazanmağı məsləhət görür:

*Dünya bazarında aldanacaqdır*
*Ömrünü mənasız keçirən kəslər.*

Dahi şair öz əsərlərində dostluğa, demək olar ki, hər zaman qiymət vermişdir:

*Dostlarına dünyada zəlillik istəyənin,*
*Özü zəlil bir halda dünyadan köçüb gedər...*
*Dosta üz çevirmək dosta nə layiq?*
*Bu sifət görünmüş düşmənə layiq...*

Xaqani dostluğun qüdrətinə inanır, onun asanlıqla başa gəlmədiyini etiraf edir:

*Çox dost olar dost yolunda cahanda,*
*Şərbət kimi zəhri içər bir anda.*

Xaqani insanın hər bir hərəkətini, ülviliyini tələb edir, "gözəl insana" "gözəllik bulağı, çeşməsi" kimi baxır, "təvazökar olmağı", "acıdil olmamağı", "hər sözə dürr saçmağı", "günəş kimi parlamağı" arzulayırdı.

Xaqaninin fikirləri bu gün də davam edən pedaqoji fikir tariximizdə gözəl və qiymətli səhifələrdən hesab olunur.

**Xaqani Şirvaninin *"Töhfətül-İraqeyn"* əsəri.** "Töhfətül-İraqeyn" əsəri nəinki təkcə Xaqani Şirvaninin öz yaradıcılığında, habelə bütün Azərbaycan ədəbiyyatı tarixində oduqca böjük əhəmiyyətə malikdnr. Xaqaninin bu poeması bizə gəlib çatmasaydı, şairin dövrü və şəxsiyyəti haqqında çox az məlumatımız olardı, çünki Xaqani məhz bu əsərdə özü, ailəsi və müasirləri haqqında geniş məlumat vermişdir.

Xaqani "Töhfətül-İraqeyn" əsərini, təxminən, 36 yaşında yazmışdır. Bu əsərin aydın və xronoloji cəhətdən müəyyən bir süjet xətti yoxdur. Əsər şairin hər iki İraqa (İraqi-ərəb, İraqi-əcəm) səfəri zamanı təsadüf etdiyi şəxsiyyətlərin tərifindən, şahidi olduğu hadisələrdən aldığı təəssüratın tərənnümümündən ibarətdir.

"Töhfətül-İraqeyn" Azərbaycan ədəbiyyatı tarixində ilk mənzum səyahətnamədir. Burada Xaqaninin səfər zamanı gəzdiyi şəhər-

lər, gördüyü xalqların vəziyyəti, təbiət mənzərələri və s. təsvir edilir. Bu əsərdə XII əsrdə Yaxın Şərqdə olan bəzi dövlət xadimlərinin, mədəni adamların adları çəkilir və şairin şəxsi tərcümeyi-halına dair olduqca mühüm və maraqlı məlumat verilir.

Xaqaninin elmə verdiyi yüksək qiymət onun «Töhfətül-İraqeyn» əsəri ilə məhdud olmayıb «Şiniyyə» adlı «Xorasan yabəm» rədifli və s. qəsidələrində, qəzəl, qitə və rübailərində dəfələrlə öz ifadəsini tapmışdır. Onun dini ehkamlara tənqidi münasibəti də elmə yüksək qiymət verməsi ilə üzvi surətdə bağlıdır.

Xaqani öz əmisi haqqında

*Çox asan yol ilə o mahir insan,*
*Etdi «bir», «iki», «üç», «dörd», «beşi» bəyan.*

Klassik Şərq ədəbiyyatında 1-9 rəqəmlərinin müəyyənləşmiş mənaları vardır: bir – allah, iki – dünya, üç – nəbatat, cəmadat, heyvanat, dörd – dörd ünsür: su, od, torpaq, hava, beş – beş hiss: dad bilmək, görmək, eşitmək, ləms və iyi bilmək (bəzən beş rəqəmi – Məhəmməd peyğəmbərin əbası altında gizlənənlərə də aid edilir ki, bunlara «pənctəni-aliəba» deyirlər), altı – altı cəhət: ön, arxa, sağ, sol, yuxarı və aşağı, yeddi – yerin yeddi təbəqəsi, doqquz – doqquz fələk («Doqquzunçu fələk guya allahın oturduğu yerdir”).

Xaqani yuxarıdakı beytdə əmisinin rəqəmlərin bu sirrini ona öyrətdiyini xəbər verir.

## Nizami Gəncəvi
## (1141 – 1209)

XII əsr Azərbaycan ictimai-siyasi, fəlsəfi və bədii fikrinin inkişafında ən yüksək mövqe, təbii ki, Nizami Gəncəviyə məxsusdur. Nizami Gəncəvi orta əsr Azərbaycan fəlsəfi poeziyasının ən görkəmli nümayəndəsidir. Həm ictimai-siyasi, həm fəlsəfi müddəaları fövqəladə gözəl bir ədəbi-bədii formalarda ifadə etməklə Nizami, mütəxəssislər tərəfindən haqlı olaraq, nəinki orta əsrlərdə Azərbay-

canın, həm də bütün Şərqin ictimai-siyasi fikrinin ən böyük və misilsiz nümayəndəsi hesab olunur. Dövrünün ilahiyyatla qovuşan fəlsəfəsinə və hüququna, materializm ilə qovuşan riyaziyyatına, fizikasına, astronomiyasına, təbiət və coğrafiyasına yaxından bələd olan Nizami qələmə aldığı beş əvəzsiz əsəri ilə o dövr üçün insan ağlının, zəkasının qəbul edə biləcəyi, elmi-fəlsəfi fikirləri bədii dillə tərənnüm etməyə müvəffəq olmuşdur. Onun bütün əsərlərində elmin, fəlsəfənin, insanın yüksək əxlaqi keyfiyyətlərinin, insan xoşbəxtliyini təmin edən, zülmə və bədxahlığa, şərə son qoyan ədalətin, azad və bərabərhüquqlu insan cəmiyyətinin tərənnümü və təbliği əsas yer tutur. Filosof şair öz fikirlərini ortodoksal dini dünyagörüşü çərçivəsində deyil, özündən əvvəlki böyük filosofların – Zərdüştün, Məzdəkin, Maninin, Fərabinin, İbn Sinanın, Bəhmənyarın, Eynəlqüzatın və b.-nın mövqeyindən işıqlandırmışdır.

XII əsrdə bir günəş kimi parlayıb, bütün Şərq ədəbiyyatının inkişaf yollarını işıqlandıran Nizami Gəncəvi, nəinki Azərbaycan ədəbiyyatı tarixində, hətta bütün Şərqdə belə yeni bir ədəbi məktəbin əsasını qoymuşdur. Nizamidən sonra yaşamış görkəmli Şərq şairləri əsrlərcə böyük sənətkarın əsərlərindən ilham almış, ondan sənətkarlıq öyrənmiş, onun irəli sürdüyü mütərəqqi fikirlərini tərənnüm edib, şairi böyük ustad kimi xatırlamışlar.

***Nizami Gəncəvinin yaradıcılığı.*** Yaxın Şərqdə əsasən saray şeri, cəngavərlik epopeyaları və təriqət ədəbiyyatı hökmran olduğu bir dövrdə həyat və məişət ilə bağlı, dərin ictimai-siyasi və fəlsəfi mənalı, insan taleyindən bəhs edən, müxtəlif insan səciyyələri yaradan Nizaminin əsas qüvvət və qüdrət mənbəyi şərqşünaslar üçün bugünə qədər məchul qalmışdır. Hətta şairin əsərlərinə şərh yazan alimlər belə o zamankı Azərbaycan mədəniyyətilə, onun adət və ənənələrilə yaxından tanış olmadıqlarından, şairin ayrı-ayrı ifadə və təşbihlərini, işlətdiyi sözlərin mənasını belə doğru-düzgün izah edə bilməmişlər. Nizami yaradıcılığının qüdrətini Azərbaycan mədəniyyətinin inkişafı ilə izah edərkən, bu qüdrətin əsas təməlini təşkil edən zəngin və qüdrətli şifahi xalq yaradıcılığını yaddan çıxartmaq olmaz. Çünki bütün Şərq şairlərindən, xalq həyatına və xalq məişə-

tinə yaxınlığı və bağlılığı ilə fərqlənib, Azərbaycan xalqının milli xüsusiyyətlərilə ayrılmaz dərəcədə əlaqədar olan Nizami, zəngin şifahi xalq ədəbiyyatı ilə tərbiyələnib, öz yaradıcılığını da ondan bacarıqlı istifadə yolu ilə rəngarəng edib.

Nizami yaradıcılığını şifahi xalq ədəbiyyatı ilə bağlayan cəhətlərdən biri şairin öz əsas mövzularını folklordan almasıdır. O, hələ ilk böyük əsəri olan «Sirrlər xəzinəsi»ndə xalq rəvayətlərindən istifadə edərək, əsərdə qoyduğu ideyaları oxucuya maraqlı surətdə çatdırmağa çalışmışdır. Bu Nizaminin şifahi xalq ədəbiyyatından ilk istifadəsi idi («Ənuşirəvan və bayquş» hekayəsi, «Bülbül və qızılgül» və s. hekayələr). Lakin şair ilk məhəbbət poeması olan «Xosrov və Şirin» əsərində xalq ədəbiyyatı ilə dərindən bağlı olan bir sənətkar kimi meydana çıxır və bundan sonra yaratdığı əsərlərin hamısında bu bağlılıq hakim yer tutur.

Nizami bu əsərin mövzusunu xalqdan almışdır. O, müqəddimədə belə yazır:

*Məlum hekayədir bu Xosrov Şirin,*
*Ancaq dastan yoxdur bu qədər şirin.*
*Ruha xoş gəlsə də bu gözəl dastan,*
*Pərdədə qalmışdı bu gəlin çoxdan.*
*Tanıyan yoxdu bu gözəl alması,*
*Bərdədəydi onun bir əlyazması.*
*O ölkənin qədim tarixlərindən,*
*Tamam bu dastanı öyrənmişəm mən.*
*O ölkədə olan qədim adamlar*
*Təşviq etdi, işə mən verdim qərar.*

Bu sətirlər şairin əsərin məzmununu Bərdə qocalarından öyrəndiyinə heç bir şübhə yeri buraxmır. Həm də şair hadisəni:

*Köhnə dastanların qoca ustadı*
*Öz hekayəsinə belə başladı...*

deyə başlayır.

Nizami ikinci poeması olan «Leyli və Məcnun» əsərinin də mövzusunu şifahi xalq ədəbiyyatından almışdır. Ərəb şifahi ədəbiyyatında canlanıb Yaxın Şərq xalqları arasında yayılmış olan bu dastanın XII əsrdə Azərbaycan xalqı arasında məşhur olması məlumdur. Bunu şair özü əsərin müqəddiməsində qeyd edir:

*Bu söz incisini düzən zaman mən,*
*Böylə danışmışdı bu nəqli edən.*

Şair «Yeddi gözəl» poemasını xalq nağılları quruluşunda yazdığı kimi, qızların söylədiyi nağılların məzmununu da xalq ədəbiyyatından almışdır. Nizami özü əsəri Buxari və Təbəri əsərlərindən aldığı məlumat əsasında yaratdığını, eyni zamanda xalq ədəbiyyatından aldığı nağıllar və rəvayətlər əsasında qurduğunu söyləyir.

Şairin son əsəri olan «İskəndərnamə» də belə qurulmuşdur. Nizami bu əsərində ərəb, fars, yunan, rum dillərində yazılmış tarixi məlumatlar əsasında qurduğu kimi, xalq ədəbiyyatında İsgəndər haqqında yayılmış rəvayətlərdən də çox istifadə etmişdir. O, əsərin müqəddiməsində:

*İsgəndər haqqında heç bir əsərdə,*
*Məlumat görmədim yığcam bir yerdə.*
*Ən qədim tarixi əsərlərdən mən*
*Yəhudi, nəsrani, pəhləvilərdən*
*Ən incə sözləri əlimə saldım*
*Qabağı ataraq məğzini aldım...*
*dediyi kimi eyni zamanda:*
*Yazsaydım hər bilib, hər eşidəni*
*Yalana çəkərdi sözün yüyəni...*

deyə xalq ədəbiyyatından da istifadəni söyləyir.

Nizami əsərləri yalnız öz mövzu və quruluşu ilə deyil, eyni zamanda bədii xüsusiyyətləri ilə də şifahi xalq ədəbiyyatı ilə bağlıdır. Bu cəhətdən şairin ayrı-yarı surətləri ilə şifahi ədəbiyyatda nağıl və dastanlarda olan surətlərin müqayisəsi maraqlıdır. Biz şifahi ədəbiyyatda irəli sürülən müsbət və mənfi surətlərin mühüm hissəsini

Nizami poemalarında görürük. Nizamiyə qədər olan ədəbiyyatda isə bu surətlərin ancaq bir hissəsinə, yalnız cəngavərliklə əlaqədar olan hökmdar surətlərinə təsadüf olunurdu. Lakin Nizami surətləri həyatı hərtərəfli əhatə edib, xüsusən əməkçi xalq içərisindən aldığı müsbət surətlərlə, xalq ədəbiyyatı ilə daha yaxından bağlanmış olur. Biz Nizamidə şah, vəzir surətləri ilə yanaşı çoban, əkinçi, daşkəsən, kərpickəsən surətlərinə, alim surətlərinə, xüsusən o dövr ədəbiyyatında müstəsna bir yer tutan müsbət qadın surətlərinə tez-tez təsadüf edirik.

Ümumiyyətlə xalq ədəbiyyatında iki cür şah surətinə təsadüf edilir: müsbət, mənfi. Həyatı ağır keçən, yaşadığı dövrün üsul-idarəsindən narazı qalan xalq kütlələri dövlət quruluşu haqqındakı tələblərini bu surətlər vasitəsilə ifadə etmişlər. Bu xüsusiyyətləri biz Nizami poemalarında da görürük. Nizami də ədalətli şah arzularını ifadə etdiyi zaman zülmkar şahlara ədalətli, maarifçi şahzadələri, yaxud xalq içərisindən çıxmış tədbirli insanları qarşı qoyur.

Biz Nizami poemalarında Məhinbanu, Şirin, Bəhram, İsgəndər kimi şah surətlərini görürük. Bu surətlər ayrı-ayrı şəraitdə yarandıqlarına baxmayaraq, onları birləşdirən əsas bir cəhət vardır ki, bu da qayğıkeş, ədalət və əhalini rifahını düşünmələridir. Nizami hər zaman müsbət şah surətlərini geniş xalq kütlələri mənafeyi ilə əlaqədar verir. Odur ki, Şirin hakimiyyət başına gələn kimi ölkənin siması dəyişir:

*Şirinin əlinə yetincə şahlıq,*
*Hər yana yayıldı ölkədən işıq.*
*Ədalətlə qıldı rəiyyəti şad,*
*Məhbusları etdi həbsdən azad…*
*Şahlıq qapısından bir bac almadı,*
*Heç bir əkinçidən xərac almadı.*
*Vergidən qurtardı şəhər, kəndistan,*
*Ona dua xoşdur dünya malından…*
*Bolluq oldu hər şey məhsul gətirdi,*
*Bir buğda dənəsi yüz dən yetirdi.*

Burada diqqəti cəlb edən səciyyəvi cəhət şahın ədaləti sayəsində kəndli həyatının yaxşılaşması məsələsidir. Kəndli vergidən

azad olur, «Əkin birə yüz bar verir». Bu münasibət Nizaminin, açıq-dan-açığa müasir hakimlərə qarşı qoyduğu Hörmüzün qanunlarında da özünü göstərir. Nizami Hörmüzün ədalətindən danışarkən yazır:

*Hanı o ədalət, o insaf hanı,*
*Öz oğluna verə böylə cəzanı?*
*Atəşpərəstlikdən dünya isindi.*
*Bu müsəlmanlıqdan utan bir indi.*
*Düşündürər bu kəbr hər müsəlmanı,*
*Əgər bu kəbr isə müsəlman hanı?*

Bu misralar şairin tarixdən aldığı surətlər vasitəsilə müasir hakimləri tənqid etdiyini açıq göstərir. Şairin müasirlərinə qarşı qoyduğu Hörmüz şah da verdiyi qanunlarda əsasən kəndli hüququnu müdafiə edir:

*Dedi: carçı çağır aləm bilsin qoy*
*Kim zülm etsə ona tutulacaq toy.*
*Əgər bir at gedib girə tarlaya,*
*Biri bağdan meyvə, gül oğurlaya,*
*Ən ağır cəzanı görəcək onlar.*
*Şah and içdi dedi: - sınmaz bu ilqar.*

Bu misralar şairin kəndli əməyinə münasibətinin açıq ifadəsidir. O, hələ ilk böyük əsəri olan «Sirlər xəzinəsi»ndə şahlara «kəndlərin viranəyə çevrildiyini» xatırladır, «kəndli xırmanlarının dənsiz qalmasını» zülmdən görür.

Lakin müsbət şah surətləri Nizami yaradıcılığında getdikcə dərinləşir. Biz onun şahlığı tərbiyə, islah məqsədilə «Nuşirəvan və bayquş», «Doğru danışan qoca və zalım hökmdar» hekayələrində, ümumiyyətlə «Məxzənül-əsrar» əsərində qoyduğu fikirləri «Xosrov və Şirin» əsərində müəyyən dərəcədə dərinləşdirdiyini, şahlığı tərbiyə etdiyini görürüksə, bu cəhət Bəhram surətində tam mənası ilə təkmilləşir. Bəhram simasında Nizami daha yüksək fikirlər irəli sürür. Bu qəhrəman daha mütərəqqi prinsiplər əsasında mübarizə apa-

rır. Lakin Nizami, Bəhramın başı kefə qarışdığı zaman ölkəni unutduğunu göstərməklə, nəhayət, onu qoca çobanla qarşılaşdırır. Bununla da ağıllı şah xalqdan öyrənməlidir, ölkənin tədbirli, hikmətli, bilici qocalarından, çobanlarından öyüd almalıdır, fikrini irəli sürür.

Nizami son əsərində qılıncla qələmi birləşdirib bütün dünyada ədalətli bir hökmranlığın, məzhəb və irqləri bir gözlə görən, dövləti bacarıqla idarə edən şah arzusunu İsgəndər surətində verir.

Nizami yaradıcılığında vəzir surətləri xüsusi yer tutur, həm müsbət, həm də mənfi vəzir surətləri təsvir olunur. Nizaminin mənfi vəzir surəti xalq – vətən satqını olaraq göstərilir. Rast-Rövşənin ölkəni Çin xalqına satması onu daxildən zəiflətməsi kimi cəhətləri göstərməsi şairin dərin siyasi görüşlərə malik, mütərəqqi bir adam olmasından irəli gəlir.

Nizaminin çoban surətləri də maraqlıdır.Bu surətlər dastan və nağıllarda verilən çoban surətləri ilə uyğun gəlir. Nizamidə ilk çoban surəti onun «Yeddi gözəl» poemasındakı nağıllarda verilmişdir. Bu surət Çin qızının Bəhrama söylədiyi «Xeyr və Şər» nağılında canlandırılmışdır. Şair Xeyrin qalibiyyətində əsasən çobanın köməyini göstərmişdir.

Əsərin sonunda verilən çoban surəti öz əqli və tədbiri ilə şifahi xalq yaradıcılığındakı çobanlara çox bənzəyir. O, vəzirin xəyanəti nəticəsində ölkəsinin hərbi qüdrəti sarsıldığını görüb kədərlənən Bəhrama ibrət dərsi verərək, onu istiqamətləndirir. Burada Nizaminin çoban surəti xalq nümayəndəsi, tədbir və bilik rəmzidir. Şair çobanı şahdan bacarıqlı və tədbirli göstərməklə eyni zamanda özünün dövlət şəkli haqqındakı fikirlərini ifadə etmiş olur. O, ölkəsinin idarəsini öhdəsinə almış hökmdarın ağıllı, tədbirli xalq məsləhətçilərindən öyrənməlidir fikrini irəli sürür.

Nizaminin çoban surətləri «İsgəndərmə»nin ikinci hissəsində «İqbalnamə»də də maraqlı yer tutur. İsgəndər iki dəfə çobanla qarşılaşır. Əflatunun söylədiyi hekayədə də çoban bir qəhrəman kimi canlandırılır. Bu surətlərin hər birisi eyni zamanda xalq ədəbiyyatına keçərək, ona təsir göstərmişdir.

Nizami bütün Şərq ədəbiyyatında müsbət qadın surətləri yaradan ilk sənətkardır. Qadına dərin bir hörmət bəsləyən Nizami, bu münasibətlə bütün islam dünyasından ayrılaraq, öz xalqının sadiq bir oğlu kimi meydana çıxır. Nizami qadını bir ana və əziz sevgili kimi yüksəldib, əsərlərində insanlığın anasına şərəfli yol vermişdir. O, Şəmira, Nüşabə kimi qüdrətli hökmdar, Şirin kimi qoçaq, Fitnə kimi ağıllı, Leyli kimi sadiq, Çin kənizi kimi müharib, Mariya kimi alim qadın surətləri yaratmışdır.

***Nizaminin humanizm, ədalət və dövlət idarəçiliyi haqqında fikirləri.*** Orta əsrlərdə yazılan bütün ədəbi-bədii əsərlər Allahın, Peyğəmbərin və dövrün hökmdarlarının şəninə yazılmış "mədhiyyələr"lə başlayır. Nizami bu məsələdə özündən əvvəlki bütün sənətkarlardan fərqli olaraq, öz humanizmi və özünəməxsus bir səciyyə daşıyan rasionalizmi ilə seçilir. Mütəfəkkirin minacat və nətlərdə ağlın tərifi mühüm yer tutursa, hökmdarlara həsr etdiyi "mədhiyyə"lər mədhiyyədən daha çox "Nəsihət"ləri xatırladır. Bunu nəzərə alaraq Nizami tədqiqatçılarından olan M.Ə.Rəsulzadə yazır: " Yüksək izzəti-nəfs sahibi olan şair həyatda özünü… heç bir zaman kiçiltməmişdir. Hökmdarlara müraciət edərkən onları mədh etdiyi və onlardan bir diləkdə bulunduğu zamanlarda belə özünü onlara bərabər səviyyədə görmüş, hətta ruhunun verdiyi içdən gələn bir qüvvətlə mədh etdiyi tac daşıyanlara ata kimi öyüdlərdə belə bulunmuşdur".

Mütəfəkkir şairin dünyagörüşünün formalaşmasında orta əsrlərdə fəaliyyət göstərən "Əxilər" cəmiyyətinə üzv olmasını bütün tədqiqatçılar qəbul edirlər. Bu cəmiyyət orta əsr Şərq aləminin ictimai həyatında böyük rol oynamışdır. Bunu nəzərə alan bəzi tədqiqatçılar göstərirlər ki, " Görünür, "Əxilər" cəmiyyəti təliminin demokratik meyilləri, yaxın adama və ehtiyacı olanlara köməyi şairin mütərəqqi siyasi ideyalarının, humanist dünyagörüşünün formalaşmasına az təsir göstərməmişdir. Onun ədalətsiz və qəddar şahlara cəsarətli müraciətlərini, şəfqətə və insaniyyətə, əməkçi xalqın maddi vəziyyətini yaxşılaşdırmağa inadlı çağırışlarını müəyyən dərəcədə "əxilər" cəmiyyətinin o dövrdə Gəncənin şəhər əhalisi arasında geniş təbliğ olunan ideyalarının təsiri ilə izah etmək olar". "Əxilər"

cəmiyyətinin üzvləri bir-biri ilə əmək əlaqələri yaratmış, ümumi mənafe naminə xərcləmək üçün öz şəxsi qazanclarının müəyyən hissəsini ümumi xəzinəyə vermiş və ehtiyacı olanların tələbatını ödəmiş, zülm və haqsızlıq edənləri cəzalandırmış, bununla da bütün Şərq ölkələrində, o cümlədən Azərbaycanda ümumxalq rəğbəti qazanmışdılar.

XIV əsrin məşhur ərəb səyyahı İbn Bətuta şimali Afrikadan İspaniyaya, Anadoludan Hindistana və Çinə qədər bir çox ölkələri gəzib dolaşaraq yazdığı məşhur "Səyahətnamə" əsərində göstərir ki: "Başqa ölkələrdən olan adamlara onlardan (Əxilərdən) daha qayğıkeş, acları yedizdirməyə səy göstərməkdə, ehtiyacı olanların tələbatını ödəməkdə, zülmkarın əlini kəsməkdə, yaxud ziyankar və pis adamlardan onlara qoşulanları məhv etməkdə onlardan daha tələskən adamları dünyada tapmaq olmaz. Mən (İbn Bətuta) dünyada onlardan (Əxilərdən) əməlisaleh adam görmədim".

Böyük mütəfəkkir bütün əsərlərində mənəvi kamillik, əməksevərlik, insanpərvərlik və başqa yüksək əxlaqi keyfiyyətlərlə yanaşı, ən çox ədalətli hökmdar və ideal siyasi quruluş üzərində dayanmışdır. Şahlığın nüvəsini ədəbdə, adillik nişanəsini xeyirxahlıqda, ən böyük xəzinəni xalqa xidmətdə görən mütəfəkkir şair dövrünün hökmdarlarını ədalətə səsləyirdi:

*Ədalət müjdəsilə cahanı şad eylə sən,*
*İşlər gör ki, iş olsun, yurdu abad eylə sən!*
*Ədalət təşnəsidir, inan bu gözəl diyar,*
*Ədl ilə iş görənlər əbədi özül tapar.*

Öz türklüyü ilə daim fəxr edən böyük mütəfəkkir Türk hakimiyyətini ədalətin simvolu, "Türk" sözünü "gözəlliy"in sinonimi hesab etmişdir. Səlcuq İmperatorluğunun dağılmasında "müstəsna" rol oynayan, gününü eyş-işrətə sərf edərək keçirən, məmur və darğaları ölkədə özbaşınalıqlar törədən, xalqa zülm edən Sultan Səncəri, etnik cəhətdən türk olsa da, onu türk yox, "yağmaçı hindu" adlandırır, təqribən iki yüz illik, nəhəng bir Türk imperatorluğunun parçalanmasını şair ürək ağrısı ilə qələmə alır:

*Dağ kimi ucalmışdı bir zaman Türk dövləti*
*Sarmışdı məmləkəti ədaləti, şəfqəti.*
*Sən yıxdın o şöhrəti, batıb getdi o ad-san,*
*Demək, sən Türk deyilsən, yağmaçı bir hindusan...*

Dahi mütəfəkkirin dünyada şöhrət qazanmış ölməz "Xəmsə"si "İskəndərnamə" poeması ilə sona çatır. Əsərin "Şərəfnamə" adlanan birinci hissəsi Azərbaycan Atabəylər dövlətinin dördüncü hökmdarı Atabəy Məhəmməd Cahan Pəhləvanın oğlu Nüsrəddin Əbubəkr Atabəyə, ikinci hissəsi – "İqbalnamə" isə Mosul Atabəylərindən İzzəddin Məsuda ithaf edilmişdir.

Bütün əsərlərində olduğu kimi, bu əsərində də dahi şair bu iki türk hökmdarına mədhiyyələr yazmış, onlardan öz müdrik məsləhətlərini əsirgəməmişdir. Hər iki türk hökmdarı ilə qürur duyan şair Nüsrəddin Əbubəkrdən bəhs edərkən göstərir ki, onda Cəmşiddən qılınc, Kəyumərsdən tac, Firudindən taxt, Keyxosrovdan ulduzların sirrini aşkar edən cam, Süleymandan parlaq üzük, İskəndərdən parlaq bir güzgü ilə yanaşı, həm də onlarda olmayan altı xislət var:

*Hamıda insanlıq bir təbiətdir*
*Bu başqa insandır, başqa xislətdir.*
*...Hər yeni nemətdən dağıdır xalqa*
*Neməti çay kimi axıdır xalqa.*

Əsəri ulu Tanrının adı ilə başlayıb Atabəy Əbubəkr Nüsrəddinin adı ilə tamamlayan şair onu "Yeni İskəndər" adlandıraraq xeyir-dua verir və yazır:

*Yaşasın padişah uca baxtıyla!*
*Var olsun həmişə tacu-taxtıyla!*
*... Bu taxta tək səni bəyəndi dövlət,*
*Dünyada bəxtiyar bir sənsən, əlbət...*

Böyük mütəfəkkir Nizami Gəncəvi intibah mədəniyyətimizin zirvəsidirsə, Nizami yaradıcılığının zirvəsi, onun əzəmətli və ləya-

qətli yekunu “Şərəfnamə” və “İqbalnamə”dən ibarət “İskəndərnamə” poemasıdır. Özünəqədərki bütün Şərq və Yunanıstan tarixini, elmi-fəlsəfi və dini irsini, görkəmli filosoflar, hökmdar və sərkərdələrin həyat və fəaliyyətini dərindən öyrənən böyük şair bütün yaradıcılığı boyu onu düşündürən ictimai-siyasi həyat həqiqətlərini araşdırmış, insan və cəmiyyət münasibətlərini öz fəlsəfi konsepsiyası əsasında aydınlaşdırmağa səy göstərmiş, bu ictimai problemlərlə bağlı suallara İskəndər surəti vasitəsilə cavab tapmağa çalışmışdır.

Dahi şair bütün əsərlərində olduğu kimi, “İskəndərnamə”də də feodal cəmiyyətində müşahidə etdiyi ictimai və mənəvi nöqsanları ifşa edərək onları hansı yollarla aradan qaldırmaq haqqında düşünmüş, feodal hakimlərə təsir göstərmək və onları ədalətə çağırmaq istəmişdir. Nizaminin elmi-fəlsəfi dünyagörüşünün ən böyük qələbəsi ondadır ki, onun yaratdığı ədalətli hökmdar yalnız qılıncla, şəxsi şücaəti ilə deyil, elmlə, ağılla, zəka ilə qalib gəlir. İskəndər həmişə öz ətrafına alimləri, filosofları toplayır, müxtəlif dillərdə olan kitabları yunancaya tərcümə etdirir, elmə qiymət verir, alimi, filosofu hamıdan üstün tutur:

*...Ağıl hər bir sirrə yol tapsın deyə,*
*O verdi fikrini elmə, biliyə.*

Şair öz qəhrəmanı İskəndəri bilici Bəlinasın dili ilə başa salır ki, dünyada taxt-tac, şöhrət və dövlət müvəqqətidir, daimi olan yaxşı addır ki, bunu da yalnız yaxşı əməllərlə qazanmaq mümkündür. Bu fikirlər göstərir ki, dahi mütəfəkkir bütün ömrü boyu inam bəslədiyi “ədalətli şah”, “ideal hökmdar” konsepsiyasından əl çəkir; əsərin ikinci hissəsini təşkil edən “İqbalnamə”də İskəndəri ideal cəmiyyətə, xoşbəxtlər ölkəsinə aparıb çıxarır və bununla da təsdiq edir ki, bəşər cəmiyyətinin səadət dolu gələcəyi ədalətli şah konsepsiyası ilə deyil, ancaq maddi və mənəvi azadlıq ideyaları ilə bağlıdır. Şairin təsvir etdiyi xoşbəxtlər ölkəsində düzlük və bərabərlik hökm sürür, heç kəs yalan danışmır, acizlərə, dara düşənlərə kömək göstərilir. Bu ölkədə hamının varı bərabərdir, bütün mallar bərabər bölü-

nür, heç kəs heç kəsdən artıq deyil, heç kəs ağlayana gülmür, heç kim oğurluq etmir, qapılara qıfıl vurulmur, mal-davar gözətçisiz otlayır. Bu ölkədə kimsə xəbərçilik etmir, özgənin eybinə göz yumulur, qəzəbli, acıqlı insan gördükdə ona məsləhətlə kömək edilir, heç kəs pis yola çəkilmir, fitnə-fəsad axtarılmır, qan tökülmür, dərdlinin dərdinə şərik çıxılır, qızıla, gümüşə heç kəs aldanmır, heç kəs xəsisliyin nə olduğunu bilmir, heç kəsdən zorla bir şey alınmır, heç bir vəhşi heyvana əziyyət verilmir, ov heyvanları ehtiyac olduğu qədər ovlanır. Bu ölkədə insanlar cavan yaşlarında ölmür, ölüm haqq olduğundan ölüyə yas saxlanılmır. Üzə deyilməyən heç bir söz daldada deyilmir, kimsə kimsənin işinə qarışmır, naşükürlük edilmir. Kimsə bu qaydaları pozsa, kimliyindən asılı olmayaraq, ölkədən qovulur. Dahi mütəfəkkir ideal qəhrəmanı, peyğəmbərlik rütbəsinə yüksəlmiş İskəndəri belə mat vəziyyətinə salır. Bu ölkəni və onun insanlarını görən İskəndər çaşbaş qalır və öz-özünə belə söyləyir:

*Bütün bildiklərim qalsın bir yana,*
*Bunların söhbəti bəs edər mənə.*
*Elə bil, dünyanı o Pərvərdigar*
*Bu mərd isanlarçın etmiş bərqərar.*

Nizami öz ideal qəhrəmanını belə utandıracaq bir şəklə salmaqla gələcək cəmiyyət quruluşunun ən yaxşı formasını xalq hakimiyyətində görür, ən müqəddəs dinin də xalq dini olduğunu təsdiqləyir. Bununla da dahi şair maarifçi monarx ideyalarından uzaqlaşaraq, humanizm, bərabərlik və azadlıq prinsiplərinə əsaslanan tamamilə yeni dövlət, yeni cəmiyyət qurulması ideyasını irəli sürməklə əsl ədalətli cəmiyyət axtarışlarında çoxillik və gərgin ictimai-siyasi və fəlsəfi fəaliyyətinə yekun vurur. Onun təsvir etdiyi ideal cəmiyyətdə zalımlar və məzlumlar, varlılar və yoxsullar yoxdur, hamı eyni hüquqa malikdir. Bu əfsanəvi ölkənin sakinləri əmlak bərabərsizliyini ləğv edərək əsl həqiqətə nail olmuş, ədalətli bir cəmiyyət qurmuşdur. Bu cəmiyyəti şair belə təsvir edir:

*Bizdə bərabərdir hamının varı,*
*Bərabər bölərik bütün malları.*
*Bizdə artıq deyil, heç kəsdən heç kəs*
*Bizdə ağlayana heç kimsə gülməz.*

Nizaminin kamil cəmiyyət nəzəriyyəsi fantastik uzaqgörənliyin məhsulu, şair dühasının qeyri-adi tapıntısı deyil. Bu nəzəriyyə Şərq və dünya ictimai-fəlsəfi fikir tarixinin ideal cəmiyyət haqqındakı nəzəriyyələr zəncirində bir halqadır – XII əsrə qədər tarixən mövcud olan bu və ya digər dərəcədə utopik ideala yaxınlaşan, müvəqqəti də olsa, ömür sürmüş demokratik dövlətlərin qanunauyğun davamıdır". Nizaminin irəli sürdüyü ideal cəmiyyət haqqındakı fikirləri, ondan qabaq da mövcud idi. İdeal şəhər və cəmiyyət haqqında həm qədim dövr, həm də orta əsr Şərqinin abidələrində müxtəlif təsəvvürlərə təsadüf edilir. Yaxın və Orta Şərqdə böyük şöhrət tapmış IX əsr alim və filosofu Fərabinin (Farabi ət-Türki) "Xeyirxah şəhər" əsərində hətta ideal şəhərlərin müəyyən təsnifat verilir. Tarixdən məlumdur ki, kəskin sinfi mübarizə nəticəsində xalq kütlələrinin gücünə əsaslanaraq, Şərqdə ideal dövlətlər bu və ya digər dərəcədə özünü xatırladan – demokratik Qərmətilər, İsmaililər dövlətləri mövcud olmuşdu. Bu dövlətlər və xüsusən Beyləqanda, XI əsrdə müvəqqəti də olsa, yaranan xalq hakimiyyəti, sözsüz ki, Nizaminin ideal cəmiyyət nəzəriyyəsini qidalandıran real zəmin idi.

Nizami bütün yaradıcılığında olduğu kimi, "İskəndərnamə" əsərində də Vətəni Azərbaycanı və mənsub olduğu Türk millətini unutmamış, böyük imperiyaları diz çökdürən İskəndəri Şimali Azərbaycanın qadın hökmdarı Nüşabə qarşısında aciz vəziyyətə salmışdır. Nüşabə mütəfəkkirin "Xosrov və Şirin" poemasındakı Məhinbanu və Şirin surətlərinin davamıdır. Burada da "Nizami İskəndəri öz doğma yurdu Azərbaycana gətirmək üçün bilərəkdən tarixi anaxronizmə yol verir".

Şairin qələmə aldığı Bərdə hakimi Nüşabə həm də onun "ədalətli hökmdar" haqqındakı görüşlərinin ifadəçisidir. Şair öz milli hökmdarını dünya fatehi İskəndərə belə təqdim edir:

*Erkək tinətliyəm, olsam da qadın,*
*Hər işi bəllidir mənə dünyaının.*
*Mən də bir aslanam düşünsən bir az,*
*Aslanını erkəyi, dişisi olmaz.*

Öz türklük qürurunu hər yerdə canlandıran şair, Firdovsidən fərqli olaraq, İskəndəri etnik cəhətdən fars deyil, yunan hesab edir, lakin mənəvi cəhətdən onu türk kimi qələmə verir:

*Özünə düzlüyü eyləyib şüar,*
*O, yeddi ölkəyə oldu hökmdar.*
*Yoxsa rum papaqlı bir türk nə sayaq*
*Çinə, Hindistana basardı ayaq*
*Tədbir soruşardı iş bilənlərdən*
*Odur ki, olmuşdu özü işbilən.*

Gördüyümüz kimi, N.Gəncəvi öz yaradıcılığında türk dövlətçilik təfəkkürünü: ədaləti, humanizmi, insanın maddi və mənəvi azadlığını əsas prinsip hesab edərək həmişə alqışlamışdır. Hökmdarları ilə fəxr edərək onlara müdrik məsləhətlərini verməyi əsirgəməmişdir. Eyni zamanda bu prinsipləri pozan vəzifə sahiblərini tənqid etməkdən qəti çəkinməmişdir.

# XIII – XIV ƏSRLƏRDƏ MƏKTƏBLƏRİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

XII əsrin axırlarından başlayaraq, Azərbaycanda məktəb və mədrəsə təhsili keçmiş əsrlərə nisbətən sürətlə inkişaf etməyə başlamış, XIII əsrin axırları və XIV əsrin əvvəllərində nisbətən yüksək səviyyəyə çatmışdır. Azərbaycanın keçmiş məktəbləri haqqında ilk dəqiq və geniş məlumat da həmin dövrə aiddir.

Əldə olan məxəzlərdə XII – XIII əsrlərdə Azərbaycanda yetişən alim və şairlərdən çoxlarının öz doğma şəhərlərində məktəb və mükəmməl mədrəsə təhsili almaları qeyd edilmişdir.

XIII əsrin birinci iyirmi ilində Azərbaycanda nisbətən geniş məktəb və mədrəsə şəbəkəsinin mövcud olmasını təsdiq edən faktlar da az deyildir. Bu cəhətdən ərəb səyyahı Yaqut Həməvinin (1179 – 1229) Azərbaycan şəhərləri haqqında verdiyi bir sıra məlumatlar mühüm əhəmiyyət kəsb edir.

XIII – XIV əsrlərdə Azərbaycanda fəlsəfə, məntiq, riyaziyyat, astronomiya, tarix, ədəbiyyat, musiqi, rəssamlıq və memarlıq sahələrində yetişən bir çox şirvanlı, gəncəli, bərdəli, beyləqanlı, naxçıvanlı, təbrizli, xalxallı, marağalı, urmiyalı şair, ədib, alim və müdrik qocaların adlarına həmin dövrün ərəb və fars səyyahlarının, bioqraf və tarixçilərinin əsərlərində və bir sıra təzkirələrdə rast gəlirik. Məsələn, məşhur tarixçilərdən Məhəmməd Hinduşah Naxçıvaninin, İbn-Əl-Əsirin, Rəşidəddinin tarixi əsərərindən məlum olur ki, XIII əsrdə Azərbaycanın Gəncə, Şamaxı, Nişapur, Ürgənc, Beyləqan, Naxçıvan, Bərdə, Təbriz, Tus, Rey, Marağa və s. kimi mədəniyyət mərkəzlərində xanəgahlar, iri məscidlər, kitabxanalar, mədrəsələr, memarlıq, xəttatlıq, musiqi məktəbləri də fəaliyyət göstərmişdir.

Memarlıq məktəblərinin təşəkkülü XI – XII əsrlərdən başlasa da, onların inkişafı XIII – XIV əsrlərə aiddir. Naxçıvanda, Abşeronun Nardaran və Ramana kəndlərində, Marağa, Ağsu, Zəngilan, Təbriz, Bərdə, Qarabağda və s. kimi yerlərdə incə, zərif nəqşlərlə, dəqiq hesablamalarla yüksəldilmiş məqbərələr və abidələr «Memarlıq məktəbləri»nin əyani sübutudur.

Məsələn, XIII – XIV əsr Azərbaycan memarları Cəmaləddin və Əhməd ibn-Eyyubun yaratdıqları abidələr, o dövrdə bir sıra Yaxın və Orta Şərq ölkələrindən gələnlərin diqqətini cəlb edir. Onlar həmin memarlardan dərs alıb, öz vətənlərinə gayıdır, oxşar abidə və məqbərələr ucaldıblar. Memarlıq məktəblərində riyaziyyat, həndəsə, coğrafiya, rəsm nəqqaşlıq dərsləri də tədris edilirdi. Sonralar memarlıq məktəbi nəqqaşlıqla birləşərək "Memarlıq-nəqqaşlıq məktəbi" kimi fəaliyyətə başlayır. Belə məktəblər Təbriz, Naxçıvan, Marağa, Gəncə, Nişapur və Şirvanda çox geniş fəaliyyət göstərmişdir.

XIII – XIV əsrlərdə Azərbaycanda ən çox yayılmış tədris müəssisələrindən biri də rəssamlıq məktəbləri idi. İlk dəfə belə məktəb Təbriz şəhərində yaranmışdı. Sonralar bu tipli məktəblər Şəki, Naxçıvan, Gəncə və Qəbələdə təsis edilmişdir. Memarlıq-nəqqaşlıq məktəbləri də bütün dünyada məşhur olmuşdur. Azərbaycanda rəssamlıq məktəblərinin inkişafına qədim Hindistan və qədim Çin məktəblərinin də böyük təsiri olmuşdur.

Nizaminin "Xəmsə"sinə çəkilmiş miniatürlər bunu daha aydın göstərir. Əsrlərdən əsrlərə gəlib çatan Nizami "Xəmsə"sinin miniatürləri XII – XVII əsrlərdə çox yayılmış və Azərbaycanda rəssamlığın yayılıb inkişaf etməsinə təsir göstərmişdir.

Rəsm sənəti yalnız müxtəlif kitablara çəkilmiş miniatürlərlə məhdudlaşmırdı, onlardan parça, xalça, ümumiyyətlə, əmtəə istehsalında da geniş istifadə olunurdu.

Şamaxı, Naxçıvan, Gəncə, Təbviz, Nişapur və s. kimi yerlərdə tədris müəssisələrinin, xüsusən sənətkarlıq məktəblərinin fəaliyyəti Kastilaya elçisi Ryu Qonzales de Klavixo tərəfindən də qeyd edilmişdir. O, "Дневник путешествия к двору Тимура в Самарканде" əsərində belə yazmışdır: "Şamaxı el sənəti Qərb, Şərq, hətta Venesiya və Genuyada da məşhurdur".

Azərbaycanda olmuş Əvliya Cələbi, Jan Şarden, Adam Oleari, Marko Polo və başqa xarici ölkə səyyahlarının, İskəndər Münşinin "Tarixi-aləm-araye Abbasi", Qazi Əhmədin "Rəssamlıq və xəttatlıq haqqında risalə", Sadıq bəy Əfşarın "Qanunus-Səvər" kimi yol qeydləri və tarixi əsərlərində XIII – XIV əsrə dair Azərbaycan

məktəbləri, eləcə də rəssamlıq məktəbləri haqqında çox maraqlı məlumatlar verilmişdir.

XIII – XIV əsrlərdə fəaliyyət göstərən tədris müəssələrindən biri də xəttatlıq məktəbidir. Xəttatlıq tədris müəssisələrinin meydana gəlməsində böyük rol oynamışdır. Kitabın meydana çıxması, xəttatlar və şagirdlər tərəfindən üzünün köçürülüb yayılması, bir tərəfdən, elm və mədəniyyətin inkişafına, digər tərəfdən isə, maarif və məktəbin tərəqqisinə müstəsna xidmət göstərmişdir.

Qazi Əhmədin «Rəssamlıq və xəttatlıq haqqında” risaləsi Azərbaycanda xəttatlığın inkişafına dair çox maraqlı məlumatlar verir.

Yaqut Həməvi «Mocəm ol-boldan» adlı kitabında Marağa şəhərində «mədrəsə, xanegah, ədib, şair, mühəddis və fəqihlər»in olmasını qeyd edir. Yəqin ki, Azərbaycan şəhərlərində olan mədrəsələr sırasında Marağa mədrəsələrinin sayı və mövqeyi üstünlüyə malik olduğendan Yaqut Həməvi onları Marağa şəhərinin əlamətdar cəhətlərindən biri kimi ayrıca qeyd etməyə məcbur olmuşdur.

Yaqut Həməvi Azərbaycanın ayrı-ayrı şəhərlərindən danışarkən bu yerlərə mənsub olan yalnız bir neçə görkəmli şəxsin adını çəkməklə kifayətlənmişdir. Ancaq o, Marağa şəhəri alimlərinin tək-tək adlarını, görünür, sayca çox olması üzündən, coğrafi lüğət tipində yazdığı «Mocəm ol-boldan» əsərində sadalamağı məqsədəuyğun hesab etməmişdir. Buna görə də Y.Həməvi Marağanın görkəmli alim və şəxslərini ixtisasa görə qruplaşdıraraq şəhərin ədəbi-elmi simasını onun ədiblərə, şairlərə, mühəddislərə, fəqihlərə, eləcə də mədrəsələrə malik olması ilə izah etmişdir.

Bunu da qeyd etmək lazımdır ki, Y.Həməvinin xəbər verdiyi Marağa mədrəsələri haqqında «Mocəm ol-boldan» əsərindən sonra yazılan məxəzlərdə geniş bir məlumata rast gəlmirik. Buna görə də istər-istəməz belə bir sual meydana gəlir: Y.Həməvinin qeydə aldığı Marağa şəhərindəki mədrəsələr XIII əsrin hansı illərinə aiddir? Onların taleyi necə olmuşdur?

Y.Həməvinin tərcümeyi-halında deyilir ki, o, «…Xorasanda olması vaxtdan (1215-ci il) beş il sonra, …İrana basqın edən monqol qoşunlarının qarşısından qaçaraq Musel şəhərində gizlənmişdir».

Məlum olduğu kimi, monqollar 1220-ci ildə İrana, 1221-ci ildə isə qəflətən Marağaya hücum etmişlər.

Deyilənlərdən bu nəticəyə gəlmək olur ki, Yaqut Həməvi monqol qoşunlarının 1221-ci ildə Marağa üzərinə yürüşü zamanı bu şəhərdə olmuş və həmin ildə buradan Muselə qaçmışdır. Demək, Y.Həməvinin Marağa mədrəsələri haqqında verdiyi məlumat XIII əsrin 20-ci illərinə aiddir.

Bəzi məlumatlara görə, ərəb işğalından sonra Azərbaycanda mədrəsə şəbəkəsinin inkişaf etməyə başlaması əsasən XII əsrin sonu – XIII əsrin əvvəllərinə təsadüf edilir. Ancaq Azərbaycanda yüksələn bu mədəniyyət və elm mərkəzləri monqolların basqınları nəticəsində məhv edilmiş, ədəbiyyat, incəsənət və ümumiyyətlə elmi-ictimai düşüncənin inkişafı və maarifin irəliləməsi bir müddət ləngimişdir.

K.Marks monqol hücumlarından bəhs edərək yazır: «...incəsənət, zəngin kitabxanalar, mükəmməl kənd təsərrüfatı, saraylar və məscidlər, hər şey yerlə yeksan edilirdi». Lakin bütün bu ağır şəraitə baxmayaraq, xalqımızın mübarizəsi nəticəsində Azərbaycan qısa bir müddət ərzində özünün tədris ocaqlarını bərpa edərək milli məktəb və maarif uğrunda daha iri addımlarla tərəqqiyə doğru hərəkət etmişdir. 1233-cü ildə Qul Əlinin Azərbaycan dilində yazdığı "Qisse-yi-Yusif" əsərini, görkəmli şair İzzəddin Həsənoğlunun[1] Azərbaycan dilində tərtib etdiyi divanını bu baxımdan önəmli hesab etmək olar.

Azərbaycan məktəb və maarif tarixində əhəmiyyət kəsb edən «Sihah əl-əcəm» adlı lüğətin bu dövrdə tərtib edilməsi daha artıq diqqət çəkir. «Sihah əl-əcəm» əsəri fars dilinin öyrənilməsində azərbaycanlıları müvafiq tədris vəsaiti ilə təmin etmək məqsədi ilə yazılmışdır. Bu barədə tərtibçi Hinduşah Naxçivani[2] müqəddəmədə

---

[1] XV əsr müəllifi olan Dövlətşah Səmərqəndi Təzkirət-ül-şüəra adlı əsərində yazdığına görə Həsənoğlunun divanı vaxtı ilə Azərbaycanda və Türkiyədə böyük şöhrət qazanmışdır.

[2] Hinduşah Naxçivani XIII əsrin ikinci yarısı-XIV əsrin əvvəllərində yaşamış, 1330-cu ildə vəfat etmişdir. Onun «Sihah əl-əcəm» adlı əsəri haqqında ilk dəfə olaraq Həsən Zərrinəzadə geniş məlumat vermişdir.

aydın izahat verərək, ikinci dil kimi, fars dilinin tədrisi üzrə ana dilində tədris vəsaitinin olmamasından narazı qaldığına işarə etmişdir.

İki hissədən ibarət olan «Sihah əl-əcəm» əsərinin birinci hissəsinə farsca-azərbaycanca təxminən dörd min söz daxil edilmişdir. İkinci hissəsində isə fars dilinin qrammatikası haqqında Azərbaycan dilində oçerk verilmişdir. Burada bir çox qrammatik dəyişmələr müvafiq misallar əsasında izah edilmişdir. Buna görə də məktəb və maarif tariximizdə «Sihah əl-əcəm» əsərini fars dilinin ikinci dil kimi tədrisi üçün Azərbaycan dilində tərtib edilmiş ilk tədris vəsaiti kimi dəyərləndirmək lazımdır. Bu cəhətdən, Azərbaycan məktəb tarixində «Sihah əl-əcəm» kitabı müstəsna əhəmiyyət kəsb edir. Çünki «Sihah əl-əcəm» əsərinin Azərbaycan dilində tərtib edilməsi ancaq təlimin ana dilində aparılması zərurətinin dərk edilməsi ilə əlaqədar olan bir təşəbbüsdür.

XIII əsrdə nəstəliq xəttini icad edən Xacə Mirəli Təbrizinin fəaliyyətindən belə bir qənaətə gəlmək olar ki, həmin dövrdə xətt və yazının inkişafı məsələsi ilə də Azərbaycanın maarif xadimləri məşğul olmuşlar.

XIII əsrin ikinci yarısında Azərbaycanda təbabət üzrə Mahmud ibn İlyas, Əbdülməcid Təbib kimi görkəmli tibb alimlərinin də elmi və pedaqoji fəaliyyətləri nəzəri cəlb edir. Bu alimlərin “Tebbiname”, “Ketab ol-tebb” adlı əsərlərinə verilmiş təhlilə əsasən belə bir nəticəyə gəlmək olar ki, Azərbaycanda müstəqil bir elm kimi sistemləşdirilmiş tibbi fikir inkişafının başlanması məhz XIII əsrin ikinci yarısına təsadüf edir.

XIII əsrin axırları və XIV əsrin əvvəllərində Azərbaycanda maarif sahəsində yüksəliş daha artıq gözə çarpır.

Bu dövrün mühüm xüsusiyyətlərindən biri bundan ibarətdir ki, Azərbaycanda ədəbi irsin ana dilində təşəkkül tapması, həmin istiqamətdə maarif və təhsilin inkişafı məsələsi bir sıra şair, alim və ictimai xadimləri böyük maarif əhəmiyyəti daşıyan təşəbbüslər göstərməyə sövq etmişdir. Habelə bu dövrdə fəlsəfə, ədəbiyyat, tarix, astronomiya və tibb elmləri üzrə tədqiq və təhsil sahələri daha da genişlənmiş, İranda və Azərbaycanda elmi düşüncə və maarifin in-

kişafı nöqteyi-nəzərdən tarixi əhəmiyyət daşıyan bir sıra mühüm abidələr yaranmışdır. Marağa rəsədxanası, "Şənb Qazan" məktəb və mədrəsəsi, Rəb Rəşidi darülfünunu, "Sultaniyyə" mədrəsələri bunlara misal ola bilər.

Marağa rəsədxanası XIII əsrin ikinci yarısında (1258 – 1259) Məhəmməd Nəsirəddin Tusinin rəhbərliyi altında tikilərək, Şərqdə ən mühüm elm və tədris mərkəzlərindən biri olmuşdur[1].

Marağa şəhərində rəsədxana yaradılması burada elmi ocaqların, maarif işlərinin genişlənməsinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Rəsədxananın nəzdində açılmış kitabxana şərq ölkələrində mövcud olan ən mühüm kitabxanalardan biri idi. Nəsirəddinin yazdığına görə, Bağdad, Şam, Musel və Xorasanda olan ən dəyərli kitablar Marağa kitabxanasına köçürülmüşdü.

Nəsirəddin Tusi kimi dövrün ən böyük alimi Marağa mədrəsələrinin müəllimlərindən biri idi[2]. Onun mühazirələrində Şərqin müxtəlif rayonlarından gəlmiş tələbə və elm həvəskarları iştirak edirdilər. Tusinin yanında təhsil almış Azərbaycanın görkəmli alim və ədibləri az olmamışdır. Hümam Təbrizi də bu sıraya daxildir.

Marağa rəsədxanasında Nəsirəddin Tusi ilə əməkdaşlıq etmək üçün Tiflis, Qəzvin, Dəməşq, Musel şəhərlərindən dəvət edilmiş riyaziyyatçı Möhyəddin İxlati, filosof Nəcməddin Dəbiran, həndəsəyə və rəsədxana alətlərinə yaxşı bələd olan Müəyyəddin əl-Ərzi və Fəxrəddin Mərağı kimi görkəmli alimlərin də Marağa mədrəsələrində tədrislə məşğul olmalarıni ehtimal etmək mümkündür.

Qeyd etmək lazımdır ki, XIII əsrin axırları və XIV əsrin əvvəlləri Azərbaycanda Məhəmməd Qazan xanın hakimiyyəti dövrünə təsadüf edir. Məlum olduğu kimi, Qazan xan öz hakimiyyətini möhkəmləndirmək üçün ölkədə monqolların zülmü nəticəsində büsbü-

---

[1] Marağa rəsədxanasında ulduzların xəritələri, astronomiyaya aid olan cədvəllər, alətlər, elmi-nəzəri əsərlər yaradılmışdır. Burada 1279-cu ildə Məhəmməd ibn Müəyyidəddin tərəfindən hazırlanmış bir ulduz qlobusu Drezden şəhərində «Riyaziyyat-fizika zalı» adlı bir muzeydə saxlanmaqdadır.

[2] XVII əsr fransız səyyahı Şardənin yazdığına görə, «Tatar imperiyası mədrəsələrinin rəhbərliyi uzun müddət Nəsirəddin Tusiyə tapşırılmışdır».

tün dağılmış kənd təsərrüfatı sahəsində, eləcə də maliyyə və pul sistemində bir sıra islahat aparmağa başladı. Qazan xanın islahatı mülkədarların xeyrinə olsa da, hər halda, ölkədə müəyyən dərəcədə kənd təsərrüfatını və maliyyə vəziyyətini yaxşılaşdırdı, xüsusilə ticarətin inkişafına səbəb oldu. Əlbəttə, bu vəziyyət ölkədə savada olan ehtiyacı daha artırdı, elm və mədəni-maarif işlərinin yüksəlişinə təsirsiz qalmadı.

Elm və sənətə dərin rəğbət bəsləyən Qazan xanın özü hərtərəfli inkişaf etmiş bir hökmdar olmuşdur[1]. Buna görə də Fəzlullah Rəşidəddin kimi böyük tarixçi və maarifpərvər alimin Qazan xan tərəfindən dövlət başçısı təyin olunması təsadüfi deyildir.

Əlbəttə, yuxarıda göstərdiyimiz şərait XIII əsrin axırları və XIV əsrin əvvəllərində Azərbaycanda elm, mədəni-maarif işlərinin inkişafı üçün imkanların xeyli genişlənməsinə təsir etmişdir. Belə ki, Qazan xan və onun vəziri Fəzlullah Rəşidəddinin dövründə Azərbaycanda mühüm elmi mərkəzlər və təlim-tərbiyə ocaqları təsis edilmişdir. Bunlardan biri Qazan xanın təşəbbüsü ilə 1302-ci ildə Təbrizin yaxınlığında Şam adlanan yerdə tikilmiş və "Şənb Qazan" adı ilə məşhur olmuşdur. Orta əsr məxəzlərində Şənb Qazanda gözəl mədrəsələr mövcud olduğu qeyd edilmişdir.

"Şənb Qazan" mədrəsəsini ibn Bətutə (1303 – 1379) görmüş və onu səyahətnaməsində qeyd etmişdir. O, yazır: «10 gün yol getdikdən sonra Təbriz şəhərinə çatdıq. Təbrizin xaricində Şam adlanan bir yerdə mənzil etdik. Əraq padşahı olan Qazan xanın qəbri bu məhəldədir. Onun qəbri yanında gözəl bir mədrəsə tikilmişdir».

---

[1] Orta əsrin ən mötəbər tarixçilərindən biri olan Fəzlullah Rəşidəddinin M.Qazan xana (1217 – 1304) yazdığı tərcümeyi-haldan məlum olur ki, yaxşı zərgər, dəmirçi, dülgər, xarrat olan M.Qazanxan kimyanı, təbabəti və əczaçılığı gözəl bilirdi. O, hətta təbabət sahəsində tədqiqat işi ilə də məşğul olurdu. Vaxtı ilə təbabət üçün çox əhəmiyyətli olan onun hazırladığı bir dərman «Teryaq-e Qazani» adı ilə məşhur olmuşdur.

Qazan xan mahir mədəniyyətşünas və tarixçi olmuş, nücum elmini öyrənmişdir. «Came ət-təvarix»də Qazan xanın ərəb, fars, hind və Avropa dilləri ilə tanış olduğu qeyd edilmişdir.

Qazan xan tərəfindən təsdiq edilmiş Şənb Qazanın vəqfnaməsini F.Rəşidəddin «Came ət-təvarix» kitabına köçürmüşdür. Vəqfnamənin mətnindən məlum olur ki, Şənb Qazanda bir rəsədxana, iki mədrəsə, bir məktəb, bir uşaq bağçası (kudəkestan), kitabxana, xəstəxana, emalatxanalar, eləcə də digər mədəni-yaşayış binaları mövcud olmuşdur[1].

Şənb Qazan vəqfnaməsində qeydə alınan mədrəsələr «Şafeiyyə» və «Hənəfiyyə» mədrəsələrindən ibarət olmuşdur.

«Hənəfiyyə» və «Şafeiyyə» adları altında "Şənb Qazan" mədrəsələrinin bir-birindən ayrılmaları mədrəsə tarixinin öyrənilməsi cəhətdən maraqlıdır. Quranı təfsir etmək, şəriət qanunlarını, eləcə də hədislərin həqiqiliyini müəyyənləşdirmək üçün istifadə olunan prinsip və metodların müxtəlifliyi ilə əlaqədar, islam ideologiyası özünün inkişaf tarixində, dini firqələr formasında təzahür edən müxtəlif cərəyanlara məruz qalmışdır. «Hənəfiyyə»[2] və «Şafeiyyə»[3] cərəyanları da bu qəbildəndir.

Yaxın və Orta Şərq ölkələrində mövcud olan mədrəsələr bir müddət dini firqələrə görə bir-birindən ayrılır, öz tələbə kontingentlərini mənsub olduqları firqənin tərəfdarları sıralarından seçirdilər.

Xandəmirin (1475 – 1534) verdiyi məlumata görə, Şənb Qazan «Hənəfiyyə» və «Şafeiyyə» mədrəsələrinin hər biri üçün ayrı-ayrı müdərrislər, müəyyidlər (müdərrislərin muavinləri), tələbələr və xidmətçilər müəyyənləşdirilmişdi.

**Şənb Qazan rəsədxanasında** nücum və fəlsəfədən də dərs deyilirdi. Bu rəsədxanada tədris məşğələləri keçirilməsini Xandəmirin aşağıdakı sözlərindən də müəyyənləşdirmək olur. O, həmin rəsədxanadan danışarkən yazır: "...və observatoriyada fəlsəfə elmlə-

---

[1] Şənb Qazan məqbərə və binaları çox əzəmətli olmuşdur. XIV əsr tarixçisi Şühabəddin Abdullah Şirazinin «Tarix-e vəssaf» adlı əsərində qeyd edilmişdir ki, Şənb Qazan məqbərəsində hər birisinin çəkisi 15 batman olan 80 qızıl və gümüş qəndil (lüstr) asılmış, onun tavan və divarlarının naxışlarında 300 batman laciverd işlənmişdir.

[2] «Hənəfiyyə» firqəsinin banisi Əbu Hənifə Nöman ibn Sabit Zutidir (699 – 767).

[3] «Şafeiyyə» firqəsinin banisi Şafei Məhəmməd ibn İdrisdir (767 – 819).

rindən dərs deyə bilən müdərris və müəyyid, eləcə də tələbə və xidmətçi… təyin etdi”.

Rəsədxana və kitabxananın nəzdində iki emalatxananın mövcud olması da vəqfnamədən məlum olur. Bu emalatxanalar rəsədxana cihazlarının və kitabların təmiri üçün təşkil edilmişdi[1].

Şənb Qazanda, rəsədxana cihazlarının eləcə də kitabların təmir olunması üçün daimi emalatxanalar təşkil edilməsindən rəsədxanada gərgin təcrübə məşğələləri keçirilməsini və kitabxanada kitab dövriyyəsinin yüksək olmasını, daha doğrusu, kitablardan ardıcıl şəkildə tələbələrin istifadə etmələrini güman etmək olar.

Şənb Qazanın ibtidai məktəbində 100 nəfər şagird pulsuz olaraq təhsil alırdı. Həmin məktəbdə işləyən müəllimlərin və tərbiyəçilərin miqdarı da məlumdur. Bu barədə vəqfnamədə deyilir: “...beş nəfər müəllim, beş nəfər tərbiyəçi və beş nəfər qadın xidmətçi uşaqlarla məşğul olsunlar”. Bu sözlərdən aydın olur ki, Şənb Qazan ibtidai məktəbi üçün 5 müəllim, 5 tərbiyəçi və 5 nəfər də qadın qulluqçusu təyin edilmişdir. Beləliklə, əgər məktəb şagirdlərinin miqdarını vəqfnamədə göstərilən kimi yüz nəfər nəzərdə tutsaq, onda hər iyirmi nəfər şagird qrupuna bir müəllim, bir tərbiyəçi və bir qadın qulluqçunun təhkim edildiyi məlum olur ki, bu da məktəb təşkilatı cəhətdən tamamilə məqsədəuyğundur.

Ata-anasız körpə uşaqların Şənb Qazanda tərbiyə olunmaları barədə də Vəqfnamədə müəyyən göstərişlər vardır.

Yuxarıda deyilənlərdən bu nəticəyə gəlmək olur ki, «Came ət-təvarix» kitabında «Əbvab ol-bərr» adlanan Şənb Qazan vaxtı ilə böyük təlim-tərbiyə ocağı olmuşdur. Qazan xanın xüsusi göstərişinə görə burada elm və tədris işləri üzrə vəzifə tutanlar və işləyənlər dövrün ən böyük alim və kamil adamları sıralarından seçilməli idilər. Bu barədə Xandəmirin qeydləri daha maraqlıdır. O, Şənb Qazan tədris ocaqlarının nizamnaməsinə işarə edərək yazır: “…qeyd olunmuş şərtlərə bir neçə digər şərt də əlavə etmişdir. Birincisi budur ki,

---

[1] «Həbib os-siyər» kitabında göstərilir ki, rəsədxana cihazlarının və kitabların təmiri üçün sərf olunacaq xərclərin ödənilməsi də Şənb Qazanın ümumi illik xərcində nəzərdə tutulmuşdu.

dövrün ən fazil və dahiləri hesab edilən ruhanilər, alimlər və filosoflar qeyd olunmuş boqelərdə vəzifə sahibi olaraq maaş alsınlar və onlar daim sakin olmalı, şəri zərurət olmadan qeybət etməməlidirlər”.

Deməк, Şənb Qazan təhsil ocaqları üçün müəllim heyətinin seçilməsinə ciddi fikir verilmişdir. Eləcə də burada xidmət etməyə cəlb edilmiş hətta əsrin ən məşhur ruhanilərinə, alim və filosoflarına belə üzürsüz səbəbdən iş başında hazır olmamaq qəti qadağan edilmişdir. Buradan Şənb Qazan təlim-tərbiyə ocaqlarında möhkəm əmək intizamının da mövcudluğunu görmək olur.

Tarixi faktlar göstərir ki, XIV əsrin əvvəllərində Təbrizdə və Azərbaycanın digər şəhərlərində mədəni-maarif hərəkatı daha da qüvvətlənərək maarif əhəmiyyəti daşıyan bir sıra mühüm işlər görülmüş, yeni məktəb və mədrəsələr açılmışdır. Məsələn, həmin dövrdə Təbrizin elmi dairələrində Çin, Hindistan, Orta Asiya və ərəb ölkələrindən gəlmiş alimlərə daha tez-tez rast gəlmək olur. Dünya şərqşünaslarının diqqət nəzərində duran “Came ət-təvarix” kitabı da müxtəlif xalqların nümayəndələrinin iştirakı ilə Fəzlullah Rəşidəddinin rəhbərliyi altında bu dövrdə Təbrizdə hazırlanmışdır. 1301-ci ildə Bakıda Cümə məscidi yanında tikilmiş mədrəsə də yeni təhsil ocaqlarından idi.

Keçmişdə mədrəsələr, əsasən, məscidlərdə təşkil edilirdi. Əksər hallarda bu kimi məscid və ya mədrəsələr özlərinin «molla» ləqəbi daşıyan adlı-sanlı baş müdərrislərinin adları ilə tanınırdılar. Povoljda yerləşən Molla Əbd üs-Saleh mədrəsəsi buna yaxşı nümunə ola bilər. “Molla” istilahından ümumiyyətlə müəllim, qismən *müdərris* və *alim* mənasında da istifadə edilmişdir. “Hər oxuyan molla Pənah olmaz” sözlərində “molla” məhz *alim* və *bilikli* mənasında işlənmişdir.

Beləliklə, yuxarıdakıları nəzərə alaraq, demək olar ki, XIV əsrin əvvəllərində Azərbaycanda tikilmiş Molla Əhməd məscidi, Molla Nəsrulla məscidi və bu kimi “Molla” titulunu daşıyan digər məscidlər də vaxtı ilə təlim ocaqları olmuşdur.

**«Rəbe Rəşidi» tədris ocağı.** Orta əsrdə ən böyük elm və təhsil ocağı olan «Rəbe Rəşidi» də məhz bu dövrdə Fəzlullah Rəşiddə-

dinin (1247 – 1318) təşəbbüsü ilə Təbrizin yaxınlığında təşkil olmuşdur. Əlbəttə, bu zaman Təbriz elmi mərkəz kimi bir sıra mühüm mədrəsələrə malik idi. Lakin bu mədrəsələr sırasında «Rəbe Rəşidi» xüsusi bir mövqe tuturdu. «Rəbe Rəşidi» müxtəlif ixtisaslar üzrə ali məktəblərdən ibarət idi və əslində, darülfünun şəhərciyi tipində tikilmiş elm və təhsil məntəqəsi idi. Burada din, fəlsəfə, təbiiyyat, nücum fakültələri ilə bərabər, tibb şöbəsi də var idi. «Rəbe Rəşidi»nin müxtəlif fakültələrində tədrislə 450-dən çox müəllim məşğul olurdu və cəmi 7000 tələbə təhsil alırdı.

Rəşidi adına darülfünun haqqında yalnız iki əlyazma bizə qədər gəlib çatmışdır. Bu iki mühüm sənəd «Rəbe Rəşidi» darülfünunu haqqında az-çox təsəvvür əldə etməyə imkan verir. Həmin sənədlərdən biri darülfünunun banisi olan Fəzlullah Rəşidəddinin[1] Xacə Sədəddinə yazdığı məktubdur. Digəri isə darülfünun haqqında onun tərtib etdiyi vəqfnamədir[2].

F.Rəşidəddinin oğlu Sədəddinə yazdığı məktub tədqiq etdiyimiz mövzu nöqteyi-nəzərindən daha çox maraqlıdır. Müəllif həmin məktubda «Rəbe Rəşidi» şəhərciyində 24 böyük karvansara, 1500 dukan və 30 000 yaşayış evinin tikildiyini qeyd etmişdir. Məktubda verilən məlumatdan görünür ki, «Rəbe Rəşid»inin sakinləri peşələrinə görə təsnif edilmiş, müəyyən küçələrdə və məhəllələrdə yerləşdirilmişlər. Məsələn, «Alimlər küçəsi» adını daşıyan küçədə 400 nəfər alimin və «Tələbələr məhəlləsi»ində isə 1000 nəfər tələbənin yaşadığı göstərilmişdir.

---

[1] Qazan xan və Sultan Məhəmməd Xudabəndənin hakimiyyət dövrlərində dövlət başçısı vəzifəsində işləyən Xacə Fəzlullah Rəşidəddin həkim, görkəmli ictimai-siyasi xadim, maarifpərvər və pedaqoq olaraq orta əsrin ən böyük tarixçilərindən biri kimi məşhur olmuşdur. Onun «Came ət-təvarix», «Ketab ət-tozihat», «Resale-ye Sultaniyyə»; «Meftah əl-təfasir», «Mokatebat-e Rəşidi» adlı əsərləri var. 1248-ci ildə Həmədanda anadan olmuş, 1318-ci ildə şaqqalanmışdır.

[2] Bu vəqfnamə haqqında Tehranda nəşr edilmiş «Seyahətname-ye Şardən» eləcə də Minorskinin «Tarix-e Təbriz» adlı kitablarında geniş məlumat vardır. Məhəmməd-luy Əbbasi Şardənin fars dilinə tərcümə olunmuş səyahətnaməsinə yazdığı əlavədə göstərir ki, o, həmin vəqfnamənin əlyazmasını Təbrizdə şəxsən oxumuşdur. Təbrizin Surxab dağının ətəyində, 1299-cu ildə «Rəbe Rəşidin təsisinə başlanmışdır.

«Rəbe Rəşidi»də həkimlər, cərrahlar və tibb tələbələrinin sakini olduqları məhəlləyə «Moalece-ye moalecan», ruhanilərin yaşadıqları yerə isə «Məhəlle-ye salehiyyə» adı verilmişdir. Göründüyü kimi, tibb müəllimləri və tələbələrinin yaşayış yerləri ümumi alim və tələbə məhəllələrindən ayrılır. Bu isə darülfünunda digər fakültələrə nisbətən tibb fakültəsinin üstün mövqe tutmasını göstərir və ola bilsin ki, tibb müəllimləri və tələbələrinin ayrıca yaşamaları tibb fakültəsinin xüsusi imtiyaza malik olmasını göstərən bir əlamət kimi qəbul edilmişdir. F.Rəşidəddin özü həkim olduğu üçün «Rəbe Rəşidi» də tibb elminə xüsusi diqqət yetirilməsi təsadüfi deyildir. «Rəbe Rəşidi»də tibb fakültəsinin üstün mövqe tutmasını müsbət bir cəhət kimi qeyd etmək lazımdır. Çünki tibb fakültəsini ilk sıraya çəkmək – bu, darülfünunda təbiət elmləri tədrisinin güclənməsinə səbəb olmaya bilməzdi.

F.Rəşidəddinin məktubundakı bəzi qeydlərindən bu qənaətə gəlmək olur ki, darülfünuna daxil olan tələbələrin hamısından qəbul imtahanları alınmış, onların bilik səviyyələri dəqiq yoxlanılmışdır. Məktubda darülfünun tələbələri haqqında deyilir: *«...hər biri bilik meydanında cəngavər və fəzilət səmasında ulduz olan min tələbəni «Tələbə məhəlləsi» adlanan məhəllədə yerləşdirdik...»*.

F.Rəşidəddin həmin məktubunda «Rəbe Rəşidi»ni təsvir edərək orada görülmüş tədbirlərdən və işlərdən də danışmışdır. Məktubun məzmunundan aydın görünür ki, o, həmin məktubunda darülfünunun təşkil edilməsi və işə başlaması haqqında oğluna məlumat vermişdir. Deməksurface, F.Rəşidəddin həmin məktubunda darülfünunda yenicə təhsilə başlamış tələbələrdən danışmışdır. F.Rəşidəddinin bu tələbələrin hər birini «bilik meydanının cəngavəri» və «fəzilət səmasının ulduzu» adlandırmasından məlum olur ki, o, darülfünunda təhsilə başlamazdan əvvəl həmin tələbələr haqqında dəqiq məlumat almışdır. Bu fikir onun məktubun digər bir yerində yazdığı *“...tələbələrin istedad və meyillərinə müvafiq olaraq onların ictimai və dəqiq elmlər sahələrində təhsil almalarını əmr etdik...”* sözlərindən tamamilə aydınlaşır.

Darülfünuna daxil olan tələbələrin bilik səviyyələrini və hansı elmə meyil göstərmələrini müəyyənləşdirmək, əlbəttə, onların biliklərinin qabaqcadan yoxlanılması nəticəsində mümkün ola bilərdi. Bu da darülfünunda qəbul imtahanlarının keçirilməsi ehtimalını doğurur.

"Rəbe Rəşidi"də tələbələr və müəllimlər mənzil ilə təmin edilirdi. Təhsil pulsuz idi. Hətta tələbələr yaşayış xərcləri ilə təmin olunmaqdan əlavə, illik paltar və "sabun pulu" alırdılar.

Müxtəlif müsəlman ölkələrindən "Rəbe Rəşidi"yə gəlmiş 6000 tələbə haqqında məktubda deyilir: "Korluq çəkmədən təhsil ala bilmələri üçün əmr etdik ki, onların yaşayış xərci Qostəntəniyyədən alınan vergilər hesabına təmin edilsin".

F.Rəşidəddin yay və qış fəsilləri üçün tədris binası kimi müəyyənləşdirilmiş iki məsciddən vəqfnamədə danışaraq yazır: "…Orada yayda namaz qılırlar, dərs deyirlər və elmlərin təlimi ilə məşğul olurlar… digərində qışda namaz qılırlar, dərs deyirlər, təfsir, hədis və sair elmlərin tədrisi ilə məşğul olurlar"[1].

Yay və qış fəsilləri üçün ayrıca təlim binalarının nəzərdə tutulması "Rəbe Rəşidi" təhsil mərkəzində tədrisin bütün il boyu davam etdiyini göstərir.

"Rəbe Rəşidi"də tədris işinin aparılmasına ciddi nəzarət yetirilir və fakültələr üzrə tələbə qruplarının və müəllimlərin seçilməsinə xüsusi fikir verilirdi. F.Rəşidəddin yazır: "Bu və ya digər tələbə qrupunun hansı müdərrisin yanında təhsil alacağını müəyyənləşdirdik…", "…təbabəti öyrənmək üçün hər həkimə 10 nəfər istedadlı tələbə təhkim etdik".

Yuxarıdakı sözlərdən tibb fakültəsində hər tələbə qrupunun 10 nəfərdən ibarət olması məlum olur. Lakin digər fakültələrin qruplarında tələbələrin sayı 10 nəfərdən çox olmuşdur. Çünki əgər tibb fakültəsində olduğu kimi, hər müəllimə 10 nəfər tələbə təhkim olunsaydı, onda "Rəbe Rəşidi"də olan 450 müəllimin öhdəsində 4500 nəfər tələbə olardı. Halbuki, "Rəbe Rəşidi" də təhsil alan tələbələrin sayı 7000 nəfər idi.

---

[1] Vəqfnamədə tədris binası kimi bu iki məscid birlikdə «Rouze» adlandırılmışdır.

“Rəbe Rəşidi”də Şərqin müxtəlif rayonlarından tədris üçün ən yaxşı müəllimlər cəlb edilmişdi. F.Rəşidəddin tibb fakültəsindən danışarkən yazır: “Hindistan, Çin, Misir, Şam və digər rayonlardan gəlmiş 50 nəfər təcrübəli həkimə hər gün bizim darülşəfayə gəlmələri haqqında göstəriş verdik».

“Rəbe Rəşidi”nin “Moalece-ye moalecan” adlı məhəlləsində sakin olan və xəstəxanada işləyən “Kəhhalan” (göz həkimləri), “Cərrahan” (cərrahlar) və ”Mocəbberan” (sınıqçılar), yuxarıdakı 50 həkimdən fərqli olaraq, məktubda ayrıca qeyd edilmişdir. Əgər bu bölmələrdə təhsil alan tələbələr də nəzərdə tutulsa, “Rəbe Rəşidi”nin tibb fakültəsində 500-dən artıq tələbənin təhsil alması məlum olur. Tibb fakültəsinin tələbələri “Darülşəfa” adlanan xəstəxanada mühazirə dinləməklə bərabər, təcrübi məşğələlər də keçirdilər. Tibb fakültəsində əczaçılıq da ayrıca fənn kimi tədris olunurdu.

Tibb fakültəsində təhsil müddəti 5 il idi. Bu müddətdən sonra tələbə öz müəllimindən yazılı icazə aldıqda təbabətə başlaya bilərdi. Vəqfnamədə bir fəsil ata-anasız uşaqların «Rəbe Rəşidi»-də tərbiyə edilmələrinə həsr olunmuşdur. Bu sənəddə ətabəkin[1] vəzifələri və uşaqlarla keçiriləcək təlim-tərbiyənin məzmunu müəyyənləşdirilmiş və ətabəklərin, eləcə də uşaqların yaşayış yerləri göstərilmişdir.

Vəqfnamədə ata-anasız uşaqların tərbiyəsi haqqındakı fəsildən məlum olur ki, «Rəbe Rəşidi»də məktəbəqədər və məktəb təlim-tərbiyə işləri də aparılmışdır.

“Rəbe Rəşidi” də müxtəlif təlim ocaqlarından başqa, xəstəxana, əczaxana, kitabxana[2], kağız karxanası və sair bu kimi mədəni-maarif təşkilatların mövcud olmasını vəqfnamədən müəyyən etmək olur.

---

[1] Vəqfnamədə tərbiyəçi «Ətabək» adlandırılmışdır.

[2] «Rəbe Rəşidi» də iki kitabxana mövcud olmuşdur. Bu kitabxanalarda 60 000 nüsxə nadir əlyazma toplanmışdır. Bu barədə Rəşidəddin yazır: «Müxtəlif elmlərə, tarixə, şeir və hekayələrə və sairəyə aid İran, Turan, Misir, Qərb (Şimali Afrika və İspaniya ölkələri) Rum, Çin və Hind ölkələrindən topladığım 60 000 nüsxə kitabın hamısını «Rəbe Rəşidi»yə vəqf etdim».

Rəbe Rəşidi darülfünunu XIV əsrin əvvəllərində islam aləminin ən böyük təlim-tərbiyə mərkəzlərindən biri olaraq nəhəng alim-müdərris və tələbə heyətinə malik olmuşdur. Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycan məktəb və maarif tarixində ilk darülfünun olan Rəbe Rəşidi bu günə qədər ətraflı öyrənilməmiş, onun elmi-pedaqoji fəaliyyəti işıqlandırılmamışdır.

XIII əsrin axırları – XIV əsrin əvvəllərində monqol şahları tərəfindən aparılan islahat Azərbaycanda bir sıra yeni qəsəbə və şəhərlərin də meydana gəlməsinə səbəb olmuşdu. O cümlədən hələ 1290-cı ildə İlxan Arqun tərəfindən binası qoyulan Sultaniyyə[1] şəhəri, 1303-cü ildə səltənətə çatmış Sultan Məhəmməd Xudabəndənin[2] səyi ilə bütün İranda ən möhtəşəm bir şəhərə çevrilərək beynəlxalq ticarətin ən böyük mərkəzləri səviyyəsinə qədər tərəqqi etmişdi. Sultan Məhəmməd Xudabəndə Təbriz, Marağa, Ərdəbil, İsfahan, Kirman, Şiraz və sair şəhərlərdən incəsənət, ədəbiyyat və elm adamlarını, görkəmli müdərrisləri, adlı-sanlı ictimai xadimləri, böyük tacirləri və əhalinin ən bacarıqlı və işgüzar dairələrini şahlar qərargahı adlandırdığı bu yeni şəhərə zorla köçürmüş və sakin etməyə məcbur etmiş idi. Sultan Məhəmməd şəhərin möhtəşəm olması və şöhrətlənməsi üçün bütün vasitələrdən istifadə edirdi. O, hətta Əmir əl-Mömenin Əli ibn Əbutalib və İmam Hüseynin məqbərələrini belə həmin şəhərə köçürtmək əzmində idi.

**Sultaniyyə mədrəsələri.** İlk məxəzlərdə olan bir sıra faktlardan bu nəticəyə gəlmək olur ki, Sultan Məhəmməd Sultaniyyə şəhərini bütün islam aləminin yeganə ticarət, elm və təhsil mərkəzinə çevirmək məqsədilə dövrün bütün mədəni-maarif, yaşayış və asayiş şəraitinin burada təmin olunmasına xüsusi səy göstərmişdir. Məsələn, həmin şəhərdə F.Rəşidəddin tərəfindən tikilmiş min evdən ibarət bir məhəllədə gözəl bir məscid, yüksək dərəcəli müdərrislərə və mükəmməl təhsil vasitələrinə malik olan bir mədrəsə və xəstəxana

---

[1] Zəncan şəhərinin 40 kilometrliyində yerləşən Sultaniyyənin tikildiyi yer 1303 – 1304-cü ildən qabaq “Şəhryaz”adlanarmış. “Sultaniyyə” – “Şahlar qərargahı”mənasında işlənmişdir.

[2] Məhəmməd Qazan xanın qardaşıdır.

məhəllə sakinlərinin istifadəsinə verilmişdir. Şəhərin digər məhəllələri də dövrün bu kimi mədəni maarif ocaqları ilə təchiz olunmuşdu. «Həbib os-siyər» kitabında Sultan Məhəmməd tərəfindən Sultaniyyədə çoxlu məscid, Dar ol-qorra (Quran qiraət olunan ev), Dar ol-hədis (hədis oxunan ev) və mədrəsə tikilməsi qeydə alınmışdır.

Vaxtılə Sultaniyyə mədrəsələrinin görkəmli pedaqoqlarından olmuş Şəmsəddin Məhəmməd Amolinin yazdığına görə, şəhərin mərkəzində ”Sultan Məhəmmədin özü üçün tikdirdiyi səkkizminarəli məqbərənin ətrafında yerləşən came, xanegah və mədrəsələrin tayını heç kim dünyada görməmişdir”.

Sultan Məhəmməd məqbərəsinin nəzdində tikilmiş mədrəsədə 10 müdərris, 20 müəyyed, 4 müəllim və 100 nəfər tələbənin sakin olduğu məlumdur. Hətta bu mədrəsədə sakin olan müəllim heyəti və tələbələrin maaşları da aşağıdakı qaydada müəyyənləşdirilmişdir:

| | |
|---|---|
| Müdərris | 1500 dinar |
| Müəyyed | 750 dinar |
| Müəllim | 120 dinar |
| Tələbə | 120 dinar |

Şəmsəddin Məhəmməd Amoli Sultaniyyə şəhərində Sultan Məhəmmədin tikdirdiyi digər böyük və möhtəşəm bir mədrəsədən də xəbər vermişdir. O, yazır: “*...eləcə də, Sultaniyyədə olduqca əla bir came və nəzdində xəstəxanası olan bir mədrəsə bina etmişdir ki, digər ölkələrdə heç birisinin misli tapılmaz”*.

Yəqin ki, Amolinin qeyd etdiyi bu mədrəsə “Həbib os-siyər” kitabında “Kərbas” adı ilə qeydə alınmış mədrəsədir. Çünki Xandəmirin Kərbas mədrəsəsi haqqındakı sözlərindən məlum olur ki, mədrəsədə Sultan Məhəmməd alim və müdərrislərin söhbət və mübahisələrini dinləyirmiş.

Kərbas mədrəsəsinə dövrün görkəmli alimləri cəlb edilmişlər. Onların arasında Kərbas mədrəsəsində müdərrislik edən alimlər – Mövlana Bədrəddin Şostəri və Mövlana Əzodəddin İci də var idi .

Sultaniyyə mədrəsələrində təhsil pulsuz idi. Kərbas mədrəsəsində təhsil alan tələbələrdən hətta 100 nəfəri yataqxana, "məkul" (yemək), "məlbus" (geyim) və sair lazımi vəsaitlə təmin olunurdu.

Ş.M.Amolinin yazdığına görə, Sultaniyyə mədrəsələri F.Rəşidəddinin rəhbərliyi altında tikilərək idarə olunmuşdur. Təbrizdə Rəbe Rəşidi mədrəsələrində təlim-tərbiyə və maarif işlərinin zəngin təcrübəsini əldə etmiş F.Rəşidəddinin Sultaniyyə mədrəsələrinə rəhbərlik etməsi həmin mədrəsələrdə təlim işinin yuksək səviyyədə təşkil olunmasını bildirir.

Ş.M.Amolinin qeydlərindən bizə çatdığı "Nəfayes əl-Fonun fi Ərayes əl-Oyun" adlı əsərindən məlum olur ki, o, özü həmin dövrün ensiklopedist alimlərindən biri kimi Sultaniyyə mədrəsələrində tədrislə məşğul olmuşdur. Amoli həmin əsərində, demək olar ki, ictimai və dəqiq elmlərin əsas sahələrindən, o cümlədən riyaziyyat, nücum, fizika, kimya, psixologiya, pedaqoqika, ədəbiyyat, dilçilik, tarix, ilahiyyət və sairədən bəhs etmişdir.

Qeyd etmək lazımdır ki, "Nəfayes əl-Fonun fi Ərayes əl-Oyun" kitabı mövzu və quruluşu etibarı ilə dərs vəsaiti formasında tərtib olunmuşdur. Həmin kitabda o zamankı ali məktəblərdə (mədrəsələrdə) tədris olunan bütün elmlər şərh edilmişdir. Buna görə də XIV əsr Azərbaycan mədrəsələrində və ümumiyyətlə, Yaxın və Orta Şərq mədrəsələrində tədris proqramlarını müəyyənləşdirməyə, eləcə də o zamankı tələbələrin bilik səviyyələrini təsəvvür etməyə "Nəfayes əl-Fonun fi Ərayes əl-Oyun" əsəri imkan verir.

# AZƏRBAYCANDA DÜNYƏVİ MƏKTƏBLƏRİN YARANMASI TARİXİ (VIII – XVIII əsrlər)

VII əsrdə ərəb hakim dairələrində belə bir ümumi rəy hökm sürməkdə idi ki, "islam keçmişi (yəni özündən əvvəlki elmi irsi) məhv etməlidir". VIII əsr islam ideoloqlarından Əbd ür-Rəhman Ozai (706 – 773) yazırdı: "*Peyğəmbərin ardıcılları tərəfindən deyilənlər elmdir, ondan başqa nə varsa, elm deyil*". Buna görə də "Peyğəmbərin ardıcılları Rum və İran üzərində qələbə çaldıqdan sonra belə bir qənaətə gəldilər ki, "…Qurandan başqa heç bir kitab oxunmasın". Bu tələb ərəblərin qələbə çaldığı ölkələrdə dövlət qərarı kimi tətbiq edilirdi. Lakin Quran hələ yazılı mətnlər və kitab şəklində tərtib edilmədiyindən, ilk ərəb ibtidai məktəblərində Quran ayələrinin və duaların şifahi öyrənilməsi, əzbərlənməsi təhsilin məzmununu təşkil edirdi. Bu vəziyyət ərəb istilasının ilk dövründə Azərbaycanda "məktəb" adı ilə fəaliyyət göstərən müsəlman tədris ocaqlarında təkrar olunurdu. Bu cəhətdən, müsəlman ibtidai məktəbləri ilk inkişaf dövründə Zərdüşt ibtidai məktəblərinə çox oxşayırdı.

Ərəb imperiyası milliyətcə ərəb olmayan xalqların mədəniyyət və elmi irsini məhv etmək niyyətində olsa da, buna nail ola bilmədi. Ərəb istilası müxtəlif xalqları vahid islam dövlətində birləşdirdi; Yunanıstan, Roma, Bizantiya, Hindistan, eləcə də Yaxın və Orta Şərq xalqları mədəniyyətlərini bir-birinə yaxınlaşdırdı. Bu vəziyyət islam alimlərinin gərgin fəaliyyəti hesabına elmi düşüncənin qarşısıalınmaz yüksəlişi ilə nəticələnərək ərəb irticasını geri çəkilməyə məcbur etdi. Həmin dövrdə islam alimləri bir-birinə qarşı duran iki dəstəyə ayrıldılar: 1) Əshab-e hədis (bunlar öz tədqiqatlarında hədis və rəvayətlərə istinad edirdilər); 2) Əshab-e rəy (bunlar əql və məntiqi əsas götürürdülər). Bu baxımdan islam maarifində elmlər iki əsas qrupda cəmləşdirilmişdi: 1. Ülum-e mənqul (dini elmlər); 2. Ülum-e məqul (dünyəvi və qismən də dini elmlər). Bu hadisə təhsilin məzmununa təsir göstərməyə bilməzdi. VIII əsrdən təhsil

də dini çərçivədən müəyyən qədər kənara çıxmağa imkan taparaq, bir sıra dünyəvi fənləri əhatə etmişdir. IX əsrin ikinci yarısından etibarən bu vəziyyət Azərbaycan, İran və Orta Asiya xalqları içərisində daha qabarıq şəkildə gözə çarpır. IX-X əsrlərdə kimya, təbabət, coğrafiya, riyaziyyat, nücum və fəlsəfə üzrə dünya şöhrəti qazanmış əsərlər yazılmışdır (Əl-Xarəzmi, M.Z.Razi və Əbu Nəsr Farabinin əsərləri bu qəbildəndir. Bu əsərlərdən bəziləri riyaziyyat və təbabət üzrə Avropa universitetlərində uzun müddət yeganə dərs vəsaiti kimi istifadə edilmişdir). Bu dövrdə dünyəvi elmlərin təhsili və təbliği sahəsində Bəsrə şəhərində təsis edilmiş "Exvan üs-Səfa" cəmiyyətinin fəaliyyəti Azərbaycan maarifi tarixində diqqəti cəlb edir. Cəmiyyətin rəhbər heyətini təşkil edən beş nəfərdən biri, Əbdülhəsən Əli ibn Zəncani azərbaycanlı olmuşdur. Hicri 970-ci ildə cəmiyyət tərəfindən 51 risalə yazılıb bütün islam ölkələrində, o cümlədən Azərbaycanda yayılmışdır. Risalələr riyaziyyat, təbiiyyat, əqliyyat (ictimai elmlər), ilahiyyat bölmələrindən ibarət dörd sahəni əhatə edirdi. "Exvan üs-Səfa" müəllifləri bir sıra təlim-tərbiyə məsələlərinə toxunmuşlar. O cümlədən, idrak və təlim məsələsi ilə əlaqədar olaraq, təlim prosesinin mərhələlərindən danışmışlar. "Hesab bütün elmlərin anasıdır" – deyə, təhsilin hesabdan başlanması zərurətini qeyd etmişlər. Risalələrdə deyilir: "Şagird hesab elmini bilməsə, heç bir elmi başa düşməz, başa da düşsə, onun mahiyyətini dərk etməz…".

Risalələrdə həndəsə, nücum, məntiq, təbiiyyat, tibb, fəlsəfə və nəhayət, ilahiyyat elmlərinin öyrənilməsi məsləhət görülür. Beləliklə, "Exvan üs-Səfa" cəmiyyəti tərəfindən təbliğ edilən tədris planında dünyəvi elmlər birinci sıraya çəkilmişdir ki, bu da X əsrdə əqli tərbiyə sahəsində mütərəqqi dairələr tərəfindən irəliyə doğru atılmış mühüm addım idi.

Əbu Əbdullah Məhəmməd Xarəzminin 976-cı ildə yazdığı "Məfatih ol-olum" adlı kitabında verilmiş elmlərin təsnifatından məlum olur ki, X əsrdə Orta Asiya, Qafqaz və İranda təhsil fənləri, əsasən, aşağıdakı hissələrə ayrılmışdır:

a) Ülum-e Şərife (fiqh, kəlam, nəhv, ədəbiyyat, tarix);

b) Elm ül-Əcəm (fəlsəfə, tibb, riyaziyyat, mexanika, fizika, kimya).

XI əsrin birinci yarısında yetişmiş bir sıra görkəmli alimlərin aldıqları təhsilin istiqaməti də maraqlıdır. Məsələn, İbn Sinanın (980 – 1037) təhsili, əsasən, dünyəvi elmlər istiqamətində olmuşdur. O, məntiq, riyaziyyat, təbiiyyat üzrə külli miqdarda dərs vəsaiti yazmaqla, əslində, həmin sahələr üzrə təhsil almaq üçün lazımi imkanlar yaratmağa çalışmışdır.

XI əsrin əvvəllərinə qədər islam təhsil ocaqları üçün rəsmi tədris planı olmasa da, hər halda, qəti demək olar ki, ibtidai təhsil mərhələsi Quran qiraəti və qismən də, yazı və oxu ilə məhdudlaşırdı. Lakin təhsilin sonrakı mərhələlərində (orta və ali) tədris fənləri dini və dünyəvi elmlərə aid olan bilik sahələrindən seçilirdi. Özü də orta və ali təhsil müəssisələrində fənlərin dini və dünyəvi elmlər sırasından seçilməsində məcburiyyət və məhdudiyyət tətbiq edilmirdi. Təlim edən və təlim alanların şəxsi meyillərindən asılı olaraq tədris fənlərinin seçilməsi könüllü idi. İslam ölkələrində, o cümlədən Azərbaycanda tədris planları, demək olar ki, uzun müddət ərzində eyni məzmun daşımışdır. Məsələn, Bağdadda Əbdülhəmid (VIII əsr), Ünsür ül-Maali (XI əsr), Orta Asiyada Nizami Əruzi (XII əsr), İranda Nəsir əd-Din Tusi (XIII əsr), Azərbaycanda Məhəmməd Hinduşah Naxçivani (XIV əsr), tərəfindən katiblik üçün lazım hesab edilmiş bilik sahələri arasındakı fərq, demək olar ki, yox dərəcəsindədir. Həmin müəlliflər, əsasən, Quran ayələrinə, əxbar, əhadis, əmsal, əşar, nəsayeh, hekayət və sərf-nəhv sahələrinə yaxşı bələd olmağı katiblər üçün zəruri hesab etmişlər.

Beləliklə, təhsil planı islam ölkələri mədrəsələrində, təxminən, eyni olub, istər dini, istərsə də, dünyəvi elmləri və ya hər iki sahəni birlikdə əhatə edə bilərdi. XI əsrə qədər islam ölkələrində, o cümlədən Azərbaycanda təhsilin məzmununun belə bir inkişaf mərhələsinə çatması islamiyyətin ilk yüz illiyinə nisbətən çox mütərəqqi hadisə idi. Bununla bərabər, X əsrin əvvəllərindən başlayaraq, Bağdad xilafət aparatında mənqul elmlərin tərəfdarları məqul elmlərin tərəfdarlarına tədricən üstün gəlirdilər. Buna görə də xilafət mər-

kəzində dünyəvi elmlərin yayılmasına qarşı etirazlar olurdu. Bu hal İranda və Azərbaycanda XI əsrin əvvəllərindən ciddi şəkil almışdır. Həmin dövrdə fəlsəfə və məntiq tədris olunur, ümumiyyətlə, təcrübə və əqli mühakimələrə əsaslanan bütün biliklər əleyhinə etiraz bayrağı qaldırılırdı. Yunan fəlsəfi fikrinin yayılması əleyhinə mübarizə XII əsrdə daha da şiddətlənir. Mədrəsələrdə dini fənlər üzrə təhsil alan tələbələrə geniş imkanlar yaradılır, dünyəvi elmlərin təhsilinə qarşı amansız cəza tədbirləri həyata keçirilir.

İranda fəlsəfə əleyhdarlarına pedaqoji mütəfəkkirlərdən olan Əbu Hamid Qəzali (1059 – 1112) başçılıq edirdi. Qəzaliyə görə, dinin əsaslarına şübhə doğuran hər hansı elmin tədrisi təkfir olunmalıdır. O, "Exvan üs-Səfa" müəlliflərinin əksinə olaraq, hesab, həndəsə və nücum elminin tədrisini "Fatehə-t-ül-ülum" əsərində qadağan etmişdir. İranda və Azərbaycanda dünyəvi elmlərin öyrənilməsi və tədrisi əleyhinə mübarizəyə hətta bəzi görkəmli fars və Azərbaycan şairləri də qoşulmuşlar. O cümlədən Sənai əqli inkişaf üçün fəlsəfənin rolunu inkar edərək deyirdi: "Təkmilləşmək üçün fəlsəfə öyrənmək ağılsızlıqdır". Xaqani Azərbaycanda yayılan yunan fəlsəfi fikrinin və materialist düşüncənin əleyhdarı kimi çıxış edərək, riyaziyyatı ziyanlı elmlər sırasına daxil etmişdir. Xaqani Şirvani fəlsəfəni və dəqiq elmləri "lohe edbar" ("bədbəxtlik lövhəsi") adlandıraraq yazırdı: "Məktəblilərin qarşısına bədbəxtlik lövhəsi qoymayın".

Beləliklə, XI, XII və qismən də XIII əsrdə bütün islam ölkələrində olduğu kimi, Azərbaycanda da istər-istəməz dünyəvi elmlərin təhsilinə qarşı kəskin mübarizə başlanmış, onların tədrisi müsəlman təhsil ocaqlarında qadağan edilmişdir. Mədrəsələrdə təhsil, əsasən, "Ülum-e şəri"lə (Quran, rəvayət, hədis, ənsab, fiqh, tarix, sərf, nəhv və ədəbiyyat) məhdudlaşdırılmışdır. Ancaq faktlardan məlum olur ki, bütün islam ölkələrində "Əshab-e hədis" tərəfindən başlanan bu ideoloji yürüş İranda və Azərbaycanda dünyəvi elmlərin təhsilini tamamilə ləğv edə bilməmişdir. Həqiqət budur ki, VIII-X əsrlərdə, əsasən, Yaxın və Orta Şərq ziyalılarının, eləcə də Azərbaycan alimlərinin fəaliyyəti ilə yaradılmış intibah XI, XII, XIII və daha sonrakı əsrlərdə də öz təsirini saxlamışdır. Bu məsələyə "İslam mədəniyyət

tarixi” kitabının müəllifi ötəri toxunaraq yazır: “Abbasi xəlifələri intibah dövründə elm və ədəbiyyatın toxumunu Bağdadda səpdilər. Onun meyvə və məhsulu tədricən Xorasanda, Reydə, Azərbaycanda və s. yerlərdə əldə edildi”.

Məsələn, XI əsrin əvvəllərində məktəb və mədrəsələrdə tədrisin ancaq dini biliklərlə məhdudlaşdırılması tərəfdarlarının qüvvətləndiyi və dünyəvi elmlər əleyhinə yürüşə başlandığı bir zamanda Əbu Reyhan Biruni (973 – 1048) yazırdı: “Varlıq dəyişmə və hərəkətdədir”. Biruniyə görə, yaradan dəyişən materiyadır. Biruni təbiət hadisələrinin izahında materializmin dialektik qanunlarına yaxınlaşmışdır. O, nəzəri, elmi-fəlsəfi məsələlərin həll edilməsində İbn Sinadan daha irəli gedərək, Ərəstunun elmi-fəlsəfi fikirlərindəki boşluqları müəyyənləşdirirdi. Şübhəsiz ki, İbn Sina və Əbu Reyhan Biruni kimi alim-müdərrislərin dərslərində dünyəvi elmlərə daha çox rəğbət bəslənilir və tədris planında həmin dərslər əsas yer tuturdu. İbn Sina və Biruninin şagirdlərindən olan XI əsrin bir sıra görkəmli alimləri özləri dünyəvi elmlərin alovlu bayraqdarlarından olmuşlar. O cümlədən azərbaycanlı Əbdülhəsən Bəhməniyar ibn Mərzban məntiq, təbiyyat və metafizika tədrisi üzrə böyük bir dərs vəsaiti tərtib etmişdir. XII əsrdə Azərbaycan məktəblərində dünyəvi biliklərin təbliği Nizami Gəncəvinin əsərlərində də öz əksini tapmışdır. Onun “Xosrov və Şirin” poemasının “Xosrovun Şirin tərəfindən elmə həvəsləndirilməsi” adlı hissəsi, demək olar ki, tamamilə dünyəvi biliklərin təbliğinə həsr edilmişdir. Nizami məktəb və mədrəsələrdə təhsilin ancaq mənqul elmlərlə məhdudlaşmasına qarşı çıxaraq “Öz övladına nəsihət” başlığı ilə yazdığı şeirində “Olum-e koneyn” ifadəsi ilə dini və dünyəvi elmlərin hər ikisinin təhsilini lazım bilmişdir.

XIII əsrin əvvəllərindən monqolların İrana yürüşləri başlayır, nəhayət, 1258-ci ildə Bağdad xilafəti süquta uğrayır. Həmin tarixdən Yaxın Şərq ölkələrində məntiq və fəlsəfəyə xüsusi fikir verilir. Bu dövrdə Azərbaycan məktəb və mədrəsələrində dini elmlərlə yanaşı, dünyəvi elmlərin də tədris edilməsinə meyil artır. 1259-cu ildə təsis edilmiş Marağa rəsədxanasının nəzdindəki mədrəsələrdə Nəsi-

rəddin Tusi, Fəxrəddin Marağalı, Şəmsəddin Şirvani, Qütbəddin Şirazi kimi böyük müdərrislər fəlsəfə, məntiq, riyaziyyat və nücum sahələri üzrə dərs deyirdilər. XIII əsrin ikinci yarısında Azərbaycanda və bütün İranda maarif işlərinə bilavasitə rəhbərlik edən Nəsirəddin Tusi əqli inkişaf və insan səadəti naminə dünyəvi elmlərin tədrisinə üstünlük vermişdir.

Marağa rəsədxanasının müdərrisi, Qütb əd-Din Şirazi öz şagirdi Əbubəkr Məhəmməd ibn Əbubəkr Təbriziyə 1301-ci ildə verdiyi yazılı icazənamədən XIV əsrin başlanğıcında Azərbaycanda dünyəvi elmlərin təlim və təəllümünün tamamilə imkan daxilində olmasına şübhə yeri qalmır. Həmin icazənamədə deyilir: «… beləliklə, məqul və mənqul sahələrinə aid olan bütün əsərlərimi və ya onlardan hər hansı birisini düzgün hesab etsə, rəvayət etməyə icazə verdim».

Zülfüqar Şirvaninin (1304-cü ildən sonra vəfat etmişdir) yazdığı tərcümeyi-haldan məlum olur ki, onun yaşadığı dövrdə aşağıdakı bilik sahələri üzrə təhsil əhəmiyyətli sayılırmış: fəlsəfə, məntiq, təbiiyyat, nücum, əczaçılıq, sərf-nəhv, ədəbiyyat, tarix, ilahiyyat, fiqh, təfsir, hədis, elme röya, rəməl və s.

XIII əsrin II yarısı və XIV əsrin I yarısında əqli tərbiyə baxımından təhsilin məzmunu sahəsində Azərbaycan ictimai fikrində irəliyə doğru xeyli dönüş əmələ gəlmişdir. Bu cəhət Əvhədi Marağalı (1274 – 1338) əsərlərində öz əksini tapmışdır.

«*Sənin bilik və elmin rəvayətdən başqa bir şey deyil*» – deyə, Əvhədi mənqul elmlərin tərəfdarlarına gülərək dünyəvi biliklərin zəruriliyini bildirir. «Came-cəm» əsərində fəlsəfə, astronomiya, təbiiyyat, ictimaiyyat, ilahiyyat elmlərinin əsas məsələlərinə toxunaraq gənc nəslin təbiət hadisələrini və canlı aləmdə baş verən bütün fenomenləri öyrənməyə dəvət edir.

XIII əsrin axırları və XIV əsrin əvvəllərində bir sıra dəqiq elmlər və fəlsəfə Azərbaycanın bəzi təhsil ocaqlarında, o cümlədən Təbrizdəki Rəbe Rəşidi darülfününunda tədris olunmuşdur. Bu hal Azərbaycanın bir sıra digər təhsil müəssisələrinə də aiddir. Məsələn, XIV əsrdə Azərbaycanın Sultaniyyə mədrəsələrində müdərris Şəm-

səddin Məhəmməd ibn Məhmud Amolinin tədris vəsaiti kimi istifadə olunan "Nəfayes əl-fonun fi ərayes əl-oyun" adlı kitabında riyaziyyat, nücum, kimya, fizika, psixologiya, pedaqogika, ədəbiyyat nəzəriyyəsi, dilçilik, tarix, ilahiyyat və s.-dən bəhs edilmişdir. Bu vəziyyət cüzi fərqlərlə XV əsrin axırlarına qədər davam etmişdir.

XVI əsrdə Səfəvilər dövründə dünyəvi elmlərin tədrisi sıxışdırılmışdır. Ancaq bunu Səfəvilər hakimiyyətinin bütün dövrlərinə şamil etmək olmaz. İran mətbuatında, o cümlədən "Tarix-e fərhəng-e İran" kitabında və "Ərməğan" jurnalında bu barədə böyük mübaliğəyə yol verilmişdir. Səfəvi şahları tərəfindən yeridilən dini siyasətlə əlaqədar, dini biliklər üzrə təhsil almaq imkanlarının genişlənməsi hesabına dünyəvi elmlərin təhsili məhdudlaşdırılmışdır. Bu dövrdə təhsil, əsasən, Quran qiraətini və təfsirini, fiqh, hədis, əxbarı əhatə edirdi. Bu vəziyyət Şah İsmayıl və Şah Təhmasib dövrü üçün (1501 – 1576) daha səciyyəvidir. XVI əsrdə qadağan edilmiş bilik sahələrindən üstüörtülü danışılarkən "Kolloho serrən" ("Hamısı sirdir") ifadəsindən istifadə edilir, bu bilik sahələrinə yiyələnənlər isə, qabaqcıl ictimaiyyət tərəfindən fövqəladə şəxsiyyətlər kimi qiymətləndirilirdilər. "Kolloho serrən" ifadəsinin tərkibindəki səssizlərin hər biri sıra ilə (k-kimya, l-limiya, h-himiya, s-simiya, r-rimiya) sözləri bildirilirdi. Bilik sahələri bu adlar altında aşağıdakı 5 qrupa ayrılmışdı: 1) kimya; 2) limiya-hesab, həndəsə, astronomiya, musiqi; 3) himiya-cəbr, geodeziya, mexanika; 4) simiya-sehr və cadu; 5) rimiya-tilsimat və neyrəncat (gözübağlıcalıq).

Lakin XVI əsrin axırları XVII əsrin 60-cı illərinə qədərki dövrdə, daha doğrusu, I Şah Abbas və II Şah Abbas zamanında (1587 – 1667) dünyəvi elmlərin təhsili imkan daxilində olmuşdur. Məhz bunun nəticəsində XVII əsrin I yarısında elmi-fəlsəfi düşüncə sahəsində Yusif Qarabaği bir sıra əsərlər yazmışdır. Həmin dövrdə Sədrəddin Şirazinin (? – 1640) təbiət hadisələrinin izahına dialektik təfəkkür metodu ilə yanaşması daha çox diqqəti cəlb edir. Bu hal Səfəvi dövründə Şərq fəlsəfəsi sahəsində irəliyə atılmış mühüm addımdır. XVII əsr səyyahı Şardən İranda yunan fəlsəfəsinin tədris

edilməsindən danışmışdır. XVII əsrin digər səyyahı A.Olearyus qeyd edir ki, iranlılar hesab, həndəsə, fizika, nücum, tibb, şeir, əxlaq, fiqh sahələri və Ərəstu fəlsəfəsi ilə çox maraqlanırlar. O, Şamaxı mədrəsəsində coğrafiya, Evklid həndəsəsi və nücum elminin tədrisini müşahidə etmişdir. XVII əsrin digər bir məşhur səyyahı Taverniye İranda təhsil vəziyyətindən danışarkən yazır ki, təhsil "məntiq, metafizika, fizika və riyaziyyat sahələri üzrə yüksək səviyyədədir". Taverniye İran mədrəsələrində Aristotel, Evklid, Ptolemey, Arşimeds, İbn Sina və N.Tusinin bəzi əsərlərinin dərs kitabları kimi tətbiq olunmasını qeyd etmişdir. 1640-cı ildə Azərbaycanı səyahət etmiş Övliyə Çələbi Təbriz mədrəsələri haqqında yazır: «*Bu mədrəsələrdə bütün elmlərdən tədris olunur*». Təbiiyyat elmləri, hesab, həndəsə, mexanika, optika, nücum və sair dəqiq elmlər sahəsinə aid Ptolemey, Menelaus, Oppolonyus, Teodos və digər qədim yunan alimlərinin əsərlərinin İranda mütaliə edilməsi XVII əsrdə burada olmuş bir çox fransız müəlliflərinin yazılarında qeyd edilmişdir. Səfəvi dövrünün görkəmli müdərrislərindən Seyid Nemətulla əl-Hüseynin 1678-ci ildə ərəb dilində yazdığı tərcümeyi-haldan məlum olur ki, bu dövrdə dünyəvi elmlərin tədrisi dini elmlərə nisbətən önə çəkilmişdir.

Yuxarıda deyilənlərdən aydın görünür ki, Səfəvi dövründə (XVII əsrdə) mədrəsələrdə sistem halına düşməsə də, hər halda, dini elmlərlə bərabər, dünyəvi elmlərin də təhsilinə fikir verilmiş və həmin sahələrə aid biliklərin əldə edilməsi qabaqcıl ictimaiyyətin diqqət mərkəzində durmuşdur.

XVII əsrin axırlarından etibarən Səfəvi dövlətinin zəifləməsi və ölkənin daxili siyasətində ruhanilərin nüfuzunun daha da artması ilə əlaqədar, dünyəvi elmlər bilavasitə sıxışdırılmışdır. Hətta Nadir şahın zamanında (1736 – 1747) ruhanilərin nüfuzlarına qarşı sərt siyasət yeridilməsinə baxmayaraq, bütün XVIII əsr boyu təhsilin məzmunu dini çərçivədən kənara çıxmamışdır. Bu vəziyyət XIX əsrin II yarısına qədər Azərbaycanın məktəb və mədrəsələrində davam etmişdir. Bununla birlikdə Fətəli şah səltənəti dövründə Azərbaycan hökmdarı Abbas Mirzənin (? – 1833), eləcə də Nasir əd-Din Şahın

vəziri Əmir Kəbirin (? – 1852) təşəbbüsü ilə İran maarifinin müasirləşdirilməsi ideyası Azərbaycanda təbliğ edilir və bu barədə cəsarətli addımlar atılırdı. Hətta həmin dövrün ən nüfuzlu müdərris və dini ideoloqlarından olan Molla Əhməd Nəraqinin (1771 – 1830) İran məktəb və mədrəsələrinin tədris planları haqqında mülahizələrində qeyd edir ki, o dövrdə dünyəvi elmlərin tədrisi qadağan edilməmişdir.

Göründüyü kimi, əvvəlki dövrlərə nisbətən, XIX əsrin I yarısında dünyəvi elmlərin təhsili əleyhinə dini-siyasi dairələr tərəfindən ciddi və rəsmi təzyiqlər olmamışdır. Ancaq bu vəziyyət o zamankı məktəb və mədrəsələrin dini təhsil məzmunlarının dünyəvi istiqamətə yönəldilməsi işinə müsbət təsir edə bilməmişdir.

XIX əsrin II yarısında, görünür ki, dünyəvi biliklərə qarşı məktəbxana dairələri tərəfindən, çox şiddətli hücum başlanmış, XII əsrdə olduğu kimi, yunan elmi adı altında hər cür fəlsəfi fikrin tədrisi təhrif edilmişdir. Məsələn, Seyid Əzim Şirvaninin dünyəvi təhsil əleyhdarları adından istehza ilə dediyi "Hükəma qövlünün nədir səməri? – Qalmasın fəlsəfilərin əsəri!" şeirində, demək olar ki, vaxtilə Xaqaninin dünyəvi təhsil əleyhinə yazdığı sözləri eynilə əks olunmuşdur.

İran Azərbaycanında da vəziyyət belə idi. XX əsrin əvvəllərində həm Güney, həm də və Güzey Azərbaycanda məktəbxana təhsilinin məzmununa qarşı mübarizə yüksək inkişaf mərhələsinə çatmış və bu, həmin dövrün mətbuatında, xüsusilə, "Molla Nəsrəddin" jurnalında ən bariz şəkildə əks olunmuşdur.

# ORTA ƏSR MÜTƏFƏKKİRLƏRİ

## Nəsirəddin Tusi
## (1201 – 1274)

***Nəsirəddin Tusinin həyatı.*** Məhəmməd Nəsirəddin Tusi 1201-ci ildə fevral ayının 17-də Tus şəhərində tərbiyəçi ailəsində anadan olmuşdur. O, dövrünün məşhur Bəhram ağa nəslindəndir. Mənşə etibarı ilə Həmədan şəhərindən olan Tusinin atasının adı Məhəmməd, babasının adı Həsəndir.

N.Tusi ilk təsilini atasından almış, sonra Şərqin bir sıra şəhərlərini səfər etmişdir. O, “Seyr və sülük” əsərinin müqəddiməsində qeyd edir ki, atası onu rizaziyyatçı dostu Kəmaləddin Məhəmmədin yanına dərs oxumağa göndərir, lakin müəllim səfərə çıxdığı üçün dərs yarımçıq qalır.

Nəsirəddin Tusi uzun müddət Tus şəhərində yaşamış, sonra Bağdad, Kufə, Bəsrə, Təbriz, Marağa, Mərv, Naxşıvan və digər şəhərlərə səyahət etmişdir. Şərqin məşhur mədəniyyət mərkəzi hesab olunan “Əşariyyə” (Xorasan şəhəri) və “Nəsriyyə” (Nişapur şəhəri) mədrəsələrində təhsilini tamamlamışdır.

Nəsirəddin Tusi uzun müddət Kuhistanda Ələmut qalasında yaşamışdır. Bura İsmaililər təriqətinin mərkəzi idi, onlar burada dini ideyalarını zorla qəbul etdirməkdən ötrü ədalətsiz işlər görürdülər. Nəsirəddin Tusi bu işləri “Əxlaqi-Nasiri” əsərinində qeyd etmiş, oradakı hadisələri cəhənnəm oduna bənzətmiş, özünü cəhənnəmin ortasından xilas etmək üçün yollar axtarmışdır: "Ey allah! Məni bədbəxtlik qoşununun tapdağından və əzab-əziyyət yuvasından xilas et". O hətta İsmaililərlə əqidəsinin üst-üstə düşmədiyini yazırdı. Lakin məcbur olub onlara xidmət edirdi. Özünü cismən onların yanında, ruhən uzaqlarda görürdü.

A.Bakıxanov “Gülüstani-İrəm” əsərində qeyd edir ki, Hülakü xan Nəsirəddin Tusinin xahişi ilə rəsədxana tikilməsinə izn verir. Bunun üçün Tusi gözəl və hündür bir yer seçib əzəmətli binanı tikdirir. Bu akademiyaya alim və bilikli adamları cəlb edir və ən böyük

kitabxananı yaradaraq, qiymətli kitabları Bağdad, Dəməşq, Mosul, Xorasan və digər yerlərdən toplayıb gətirtdirir.

Məhəmməd ibn Şakir yazırdı: “Marağada Xacənin (Nəsirəddin Tusinin – G.E.) topladığı kitabların sayı 400 mindən artıq idi”. V.Bartold Marağa rəsədxanasının Tusinin köməyi ilə qiymətli cihazlarla təmin olunmasını, böyük bir kitabxanaya çevrilməsini, astronomiya elminin inkişafında böyük rol oynadığını qeyd etmişdir.

Nəsirəddin Tusinin üç oğlu olmuşdur: Sədrəddin Əli, Əsiləddin Həsən və Fəxrəddin Əhməd. Onlar atalarının ölümündən sonra rəsədxananın işini davam etdirmişlər. Nəsirəddin Tusi 1274-cü ildə Bağdad şəhərində vəfat etmişdir.

**Nəsirəddin Tusinin fəlsəfəsi.** Tusinin bu və ya digər qəbildən olan əsərlərinin meydana çıxmasında yunan və şərq fəlsəfi məktəbinin güclü təsiri hiss olunur. Yunan mütəfəkkirlərindən Aristotelin, Platonun, Ptolomeyin, Nikomaxın, Falesin, Anaqsaqorun və şərq filosoflarından Fərabinin və İbn Sinanın adlarına və müdrik sözlərinə tez-tez rast gəlməyimiz fikrimizi bir daha təsdiq edir.

Mütəfəkkir, aləmin yaranmasında və mövcudatın inkişafında varlığa və ağla yüksək qiymət verərək demişdir: “Ağıl və can yaradılışın birincisidir. Ondan sonra doqquz dövr edən fələk (Planet – G.E) vardır. Bunlardan sonra dörd ünsür (su, od, torpaq, hava), sonra isə mədən (mineral), nəbatat (bitki) və heyvanat (canlı aləm) meydana gəlmişdir”.

Tusi dörd ünsürdən biri olan torpağı ən aşağı mərhələ, odu isə ən yüksək mərhələ hesab etmişdir. O, dörd ünsürü “analar” (ümməhat) adlandıraraq yazır: “Analar”ın ən aşağı mərtəbəsində torpaq, ondan yuxarı mərtəbəsində su, sonra hava, sonra isə od yerləşmişdir. Bu “analar”dan da (yəni dörd ünsürdən) yüksək mərhələ isə kainat hesab olunur. Həmçinin “törəmələr”in ən aşağı mərtəbəsi mədən, yüksək mərtəbəsi isə nəbatatdır. Bu da öz növbəsində, həm mədənə, həm də “analar”a üstün gələrək, onları özünə tabe edir. Bu səbəbdən nəbatat inkişaf edir. Nəbatatdan yüksək mərhələ isə heyvanat aləmidir. Bu da mədəndən, nəbatatdan və “analar”dan üstün olaraq, onları özünə tabe edir, nəbatatı öz xörəyinə çevirir. Heyva-

nat aləmindən yüksək mərhələ isə insandır. Bu da öz növbəsində, heyvanatdan, nəbatatdan, mədəndən və "analar"dan üstün olaraq, onları öz cisminə tabe edir.

İnsan öz ağlı və nitqi ilə dörd ünsürdən: mədəndən, nəbatatdan və heyvanat aləmindən fərqlənərək, çoxlu elmlərin və inçə sənətlərin meydana çıxmasında xüsusi məharətə malikdir".

Gördüyümüz kimi, Tusi bu məsələlərin təhlilində real varlığa əsaslanmışdır. O, real varlıqda mövcud olan dörd ünsürün vəhdət təşkil etdiyini və bir-birini tamamladığını göstərərək yazırdı: "Odun, havanın, suyun və torpağın maddəsi bir substansiyadan ibarətdir".

Təbiətin inkişafını həmişə maddi vəhdətdə götürən Nəsirəddin Tusi özünün bəzi fəlsəfi mülahizələrində daha maraqlı müddəalar irəli sürmüşdür. Bunlar içərisində maddənin bir formadan başqa formaya çevrilərək, itməməsi haqqındakı fəlsəfi müddəası, xüsusi olaraq diqqəti çəlb edir. O, deyir: "Əgər bir adam diqqətli və kamil bir tədqiqatçı gözü ilə maddələrin dəyişməsinə və tərkiblərin dağılıb yenidən birləşməsinə, onlar arasındakı çevriliş və ziddiyyətlərə nəzər salsa, maddələr mübadiləsindən, yaranıb yox olma proseslərindən xəbərdar olsa, ona məlum olar ki, dünyada heç bir şey tam şəkildə məhv olmur. Bəlkə onun forması, vəziyyəti, tərkibi, quruluşu, rəngi, keyfiyyəti ya müştərək bir varlığa və ya bir maddəyə çevrilir. Məsələn, su hava olur, hava da od. Bu üç hala düşə bilən maddə çevrilmə yolu ilə üç halda mövcuddur, əks halda suyun havaya, havanın suya çevrildiyini demək olmaz. Çünki əgər bir varlıq məhv olsa, onunla ümumi əlaqəsi olmayan başqa bir varlıq əmələ gəlsə, onda "bu varlıq o varlığa çevrildi" demək olmaz və o maddə, keyfiyyəti dəyişilmiş yeni maddə olar, çünki cismi varlıqların məhv olmaq qabiliyyəti yoxdur".

Nəsirəddin Tusi insan ağlının iki formada olduğunu qəbul etmişdir: nəzəri və əməli. Mütəfəkkir bu iki formanın dörd şəklə malik olduğunu da söyləmişdir: həyulani ağıl (potensial ağıl), kəsb edilmiş ağıl, vərdiş halını almış ağıl, faktiki ağıl.

Dahi mütəfəkkirə görə, həyulani və faktiki ağıl nəzəri ağlın şəkli, kəsb edilmiş və vərdiş halını almış ağıl isə əməli ağlın şəklidir.

Məlum olduğu kimi, bu məsələyə istər Tusidən qabaq, istərsə də sonra yaşamış mütəfəkkirlər toxunmuş və bunu müxtəlif şəkildə şərh etmişlər. Bir qismi ağlın iki formasını, digər qismi dörd formasını və s. qəbul etmişdir.

**Nəsirəddin Tusinin pedaqoji görüşləri.** Ordubadda yerləşən mədəniyyət sarayının başındakı kitabədən bəlli olur ki, hökümət işləri Nəsirəddin Tusi nəslinin əlində idi. Ona görə də Şah İsmayıl, Şah Təhmasib həm də Tusinin xatirinə bu ailəyə etiram bəsləyirdi.

İstər Qərbdə, istərsə də Şərqdə Tusini pedaqoji sahədə görkəmli alim kimi tanımışlar. Tusinin dünyagörüşünə Aristotelin böyük təsiri olmuşdur. Aristotel kimi, Tusi də elmlərin vahid sistemini yaratmaq istəmiş, elm sahələrini nəzəri, yaradıcı, təcrübi kimi bölüşdürmüşdür.

Ömrünün 3/4-nü Azərbaycan mədəniyyətinin və maarifinin tərəqqisinə həsr etmiş Nəsirəddin Tusi 150-ə yaxın əsərin müəllifidir. Onun elm, əqil, idrak, söz haqqında fikirləri "Əxlaqi-Nasiri", "Adabul-mütəllim", "Təlimül-mütəllim", "Tənsuqnamey-Elxani", "Ovsaful-Əşrəf", "Cənahül-məzamin fi elmi fəlsəfə", "Cəvahirnamə", "Etiqadat", "Kitabi-mədarik", "Risaleyi-müxtəsər" və s. kimi risalələrində əks olunmuşdur. 200-ə yaxın əsər və mənzumələrində indi də əhəmiyyətini itirməyən fikirləri ilə məşhur olan Tusi elmə yüksək qiymət verir, onu "binayi-Vətənin özülü" adlandırırdı. Tusinin fikrincə, idrak və elm dünyanı bütün canlılardan ayırıb yer üzünün ətrafı dərəcəsinə qədər yüksəltmişdir. Tusiyə görə, insanın varlığı o vaxt kamil hesab olunur ki, o, elm və əməldən ibarət olsun. Ədib hikmət əməlini iki yerə bölüb birinci yerə elmi, ikinci yerə isə əməli aid edir. O, insanı istər maddi, istərsə də mənəvi aləmində yüksək rol oynayan elmi yüksək qiymətləndirirdi. Qeyd edirdi ki, elm elə bir fövqəlbəşər şeydir, onu bütün təamlardan üstün tutmaq lazımdır. Nəsirəddin Tusi öz dövründə davam edən məktəb, mədrəsə, dəbistanlarla bərabər, xəttatlıq, musiqi, ticarət və s. kimi tədris müəssisələrində təhsil məsələlərinə diqqət yetirir. O, təlimin üsul-

ları, prinsiplərinə aid "Təlimin yolları" adı altında praktik olaraq məlumat vermişdir. Tusiyə görə, təlim yalnız öyrədilən şeyləri mənimsətməklə kifayətlənməməyi, həm də öyrənilənləri yaşatmalı, gələcək nəslə verməyi qarşısına qoymalıdır.

Alim hər şeyə: hadisəyə, cəmiyyətə, tərəqqiyə real nəzərlə baxmış və bu baxımdan, tədrisə, təlimə və təhsilə də eyni qiymət vermişdir. Tusinin tədris və təlimə verdiyi təhlil göstərir ki, **o,** ya uzun müddət müəllimlik etmiş, ya da uzun müşahidə və təcrübələr aparmışdır. Çünki tədris və təlim məsələlərini dərin incəliyinə qədər şərh etmişdir. Onun fikirləri yunan filosoflarının fikirləri ilə səsləşmişdir. Tusi təlimin tərbiyəedici prinsipə aid olmasını ədəbdən və əxlaqdan danışarkən diqqətə çatdırırdı. Göstərirdi ki, təlim yalnız öyrədilən şeyləri mənimsəməklə kifayətlənməməli, həm də öyrənilənləri yaşatmalı və gələcək nəslə verməyi qarşısına məqsəd qoymalıdır. Tusi bütün qeyd olunları "təlimin yolları" prinsipi kimi dəyərləndirir, "kəlam elmi"ni tədris edən müəlimləri digər elmlərdən baş çıxara bilmədikləri üçün tənqid edir, onları başqa elmlərdən baş çıxarmağa sövq edir. Göstərir ki, təlim yalnız ondan ibarət deyil ki, bir elmi öyrənəsən, ona yiyələnəsən. Əsas məsələ budur ki, cəmiyyətdə hadisələri qiymətləndirə biləsən. Tusi tədris və təlimdə "ümumi və xüsusi qism" deyərək elmi baxımdan bu iki mənanı şərh edir, yəni izhar etmə, təhlil, tərkib, sual-cavab və s.-ni təlimin özülü, təməli adlandırır. O, öz dövründə və öz dövrünə qədər bütün fərdi təlimləri rədd edir. Yalnız əsl elmləri öyrətməyi təklif edir. Tusinin fikrincə, insan səlist, düzgün, həsdlərə bais olan nitqə malik olmalıdır.

Göründüyü kimi, Tusiyə görə tədris və tərbiyə müəllimsız mümkün deyil. Tədris və maarif inkişaf etdikcə müəllimim fəaliyyəti də aktivləşir. "Bu prosesin peyğəmbəri müəllimdir" fikri Tusinin bütün pedaoji yaradıcılığında hər zaman diqqətə çatdırılmışdır. Tusi yazırdı: "Uşağın müəllimi ağıllı, idraklı, yüksək insani hisslər ustadı olmalıdır. O, uşaqların həvəs, meyil və əhval-ruhiyyəsinə bələd olmaqla bərabər, şirindilli, vüqarlı, təmizkar və qabil (qabiliyyətli) olmalıdır. O yalnız mütəəllimlərin deyil, valideynlərin də tərbiyəçisidir. Müəllim həm uşaq həm də valideynlər üçün sükançı və

istiqamətləndiricir. Çünki hər kəsin müxtəlif meyli və marağı mövcuddur. Onun istiqamətləndirilməsi müəllimdən asılıdır".

XIII əsrdə pedaqoji terminlər Tusi tərəfindən islah edilmişdir, bu fəaliyyət bir də XIX əsrdə L.N.Tolstoy tərəfindən aparılmışdır.

Tusinin 12 adda risalə və dərslikləri var idi. Onun "Əxlaqi-Nasiri" əsəri 21 dilə tərcümə edilmişdir, orta əsr məktəblərinin və müəllimlərinin masaüstü kitabına çevrilmişdir.

700 – 800 il bundan əvvəl yazılmış Tusi əsərləri indiyədək yaradıcılıq, məktəb sahəsində geniş yayılmışdır. Bunları bizə gəlib çatan və hələ də öz əhəmiyyətini itirməyən 100-ə yaxın əsəri təsdiqləyir. Tusinin yaratdığı incilər zəmanəmizə gəlib çatmışdır, onu aqil və müdrik fikirlər müğənnisi və əxlaq nəzəriyyəçisi adlandırmağa əsas vermişdir.

Tusiyə görə, yaxşı təhsil insanı yalnız əqli cəhətdən deyil, həm də mənəvi, əxlaqi cəhətdən də yüksəltməlidir, onu hazırcavab və alicənab fərd kimi formalaşdırmalıdır. Deməli, belə insanlar dəqiq ixtisaslar qazanaraq düşüncələr vasitəsilə gözəl sənətlər əldə edir, vətənin tərəqqisini təmin edirlər. Ona görə əqlsiz insanın qəlbində bədxah meyillər kök salar, bəla və bədbəxtlik gətirər.

Tusi qeyd edir ki, "əxlaq cəmiyyətin tərəqqisinə, onun dəyişməsinə əsl mənada təsir göstərə bilməz, yalnız idrakla birləşdikdə o (yəni əxlaq) qüvvət və qüdrət kəsb edir", "insanın tərbiyəsi yalnız yaşa dolduqdan, özünü anladığı vaxtdan deyil, hələ rüşeym halında olandan başlamalıdır", "elm insanları üzə çıxarmaqda tərbiyə ilə müştərək olduqda çaşdırır".

Tərbiyə işində adamları təbəqəyə ayırır, ilk təbəqəyə "əhli-qələm" (ziyalılar), ikinci təbəqəyə "əhli-şəmşir" (hərbiçilər), üçüncü təbəqəyə "əhli-müamilə" (tacir və alverçilər), dördüncü təbəqəni isə "əhli-məzriyə" (əkinçi və sənətkarlar) adlandırır. Tusi həmin dörd təbəqənin adamlarının əxaqının müxtəlif olduğunu qeyd edir.

Tusi qeyd edir ki, "tərbiyə insanla yaranmış, insanla davam edir və bu şəxs öldükdə o da yekunlaşır", "tərbiyə yalnız ailədə yaşlarında verilməməli, böyüklükdə də zəruridir".

“Ata-ana övladın əmələgəlməsində və böyüməsində ilk səbəbkardır, onların sayəsində övlad cismi-kamala çatır, yeyib-içir, mühafizə və qayğı ilə əhatə olunur”.

“Çətin məsələləri aydınlaşdıran, sənət, müsiqi və maddi nemətləri hüsulə gətirən insanın rəvac və inkişafına, əxlaqca saf və gözəl olmasına, bütün sənətlərdən baş çıxarmasına, ona irəliləmək üçün yol gtöstərən, bağlı qapıları açan, sirlərə agah edən bir şey varsa, o da elm və onu öyrənməkdir. Elm insanı mənəviyyatca gözəlləşməsində va kamilləşməsində, həyati təcrübəsinin zənginləşməsində müstəsna əhəmiyyət kəsb edir”.

Tusi beynəlmiləlçiliyi həm pedaqoji, həm də fəlsəfi əsərlərində daha qabarıq vermişdir. O, insanları bir-birinə arxa, kömək göstərməyə çağırırdı. Ayrıseçkiliyi görmək istəməmişdir. “Divan”ında xalqlar arasında səmimiyyət, nəsillər arasında sıx əlaqə, bir-birini anlama, idrakla, elm və savadla davranmaq və s. ilə bağli mütərəqqi fikirlər söyləmişdir. İki hissə, 240 səhifədən ibarət olan bu əsərdə yoldaşlıq, dostluq, həmrəylik və s. haqda qiymətli beytlər çoxdur.

Məhəmməd Nəsirəddin Tusi XIII əsrdən başlayaraq son orta əsrlərə kimi bir sıra görkəmli riyaziyyatçıların, astronomların, müdərris və müəllimlərin, filosofların, iqtisadçıların, ədiblərin və s. müxtəlif yaradıcılıq sahiblərinin istiqamətvericisi, ruhi qidası və örnəyi olmuşdur.

O, bütün elmlər, xüsusən pedaqogika tarixində orta əsrlərin bu sahədə sükut buzunu sındırmış ilk orta əsr pedaqoqudur.

## Əvhəd-əd-din Əvhədinin təlim-tərbiyə haqqında fikirləri (1274-1338)

Görkəmli sənətkarlarımız Xaqani, Nizami, Tusinin davamçısı kimi şöhrət tapan Əvhədi Marağayi təlim-tərbiyə sahəsində ön xətdə getmişdir. XIII-XIX əsr Azərbaycan məktəbi və pedaqoji fikrinin inkişafında özünəməxsus xidmət göstərən və pedaqoji fikir salna-

məsində öz adını tərbiyə müğənnisi kimi həkk edən şəxsiyyətlərdən biri olmuşdur.

Əvhəd-əd-din Əvhədi 1274-cü ildə Marağa şəhərində anadan olmuş, ilk təhsilini burada almışdır. Onun boya-başa çatmasında və təhsilində Tusinin təşkil etdiyi rəsədxananın böyük rolu olmuşdur. Əvhədi də Tusi məktəbinin yetirmələrindən biridir. Uzun müddət qəribçilikdə yaşamasına baxmayaraq, öz məhəbbətini, istəyini Azərbaycandan əsirgəməmişdir, poetik yaradıcılığında xalqın adət-ənənələrinə öz müsbət şərhini vermişdir. Əvhədi həmişə ehtiyac içində yaşamış, bir parça çörək üçün müxtəlif yerlərə üz tutmuş, nəhayət, Xacə Məhəmməd ibn Rəşidin sənət sahədə xidmətlərindən xəbər tutub 59-60 yaşlarında vətənə (Marağaya) qayıtmışdır. Bu münasibətlə yazırdı: "Mənim də bəxt ulduzum ucalmağa başladı, işim də bəxim kimi rövnəq tapdı".

XIII-XIV əsrlərdə Azərbaycan dilində 200-dən çox görkəmli mütəfəkkir insan yazıb-yaradırdı. Onlardan biri də Əvhədi Marağayı idi. Onun əsərləri, xüsusən "Cami-Cam" əsəri sırf pedaqoji sahəyə xidmət edirdi. Əsərdə, "Tövhid" və "Münacat" başlıqları adı altında verilmiş fəsillərdən başqa, digər fəsillər sırf təlim-tərbiyədən, əxlaq və adətlərdən, əmək, bədii, əqli və s. məsələlərdən bəhs olunurdu. Əvhədinin "Cami-Cəm" pedaqoji əsəri yalnız öz dövründə deyil, XIII-XVI əsrlərdə də əl-əl gəzərək İran, Qahirə, Hindistan, Ərəbistan, İstanbul kimi Şərq ölkələrində, Paris kimi Qərb ölkələrində tərcümə edilərək oxunmuşdur. Bertels "Cami-Cəm" əsərini Şərqdə böyük müvəffəqiyyət qazanıb geniş yayılmış bir sıra şairlərin yaradıcılığına təsir göstərmiş qiymətli vəsait kimi şərh etmişdir.

Yaxın Şərq xalqları ədəbiyyatı, o cümlədən klassik Azərbaycan ədəbiyyatı nümayəndələri Xaqani Şirvani, Əssar Təbrizi, Saib Təbrizi, İmadəddin Nəsimi, Mücirəddin Beylaqani, Seyid Əzim Şirvaninin əsərləri, o cümlədən Əvhədi Marağayinin əsərləri tam tərcümə olunmamışdır.

Həcmi 9142 misradan ibarət olan "Cami-Cəm" əsəri fars dilindən Qulamhüseyn Beqdeli və Xəlil Həmidoğlu tərəfindən ana dilimizə tərcümə olunmuşdur. Əsər didaktik cəhətdən Əvhədinin sələ-

fi olan Nizaminin, sufi təriqəti cəhətdən isə Sənai Qəznəvinin "Hədaiqül-həqayiq" əsərinin təsiri ilə yazılmışdır. Əvhədinin yaradıcılığında böyük yer tutan "Cami-Cəm" poeması maarif sahəsində dəyərli əsər hesab olunur.

Əvhədinin yaradıcılığına Nəsirəddin Tusininin əsərləri təsir etmişdir. "Dəhnamə" əsərini Nəsirəddin Tusinin nəvəsi Xacə Ziyaəddin Yusifə itfah etmişdir.

*Bu uzaq göylərin sirlərini biz*
*Dərk edə bilmirik yəqin elmsiz, –*

misraları nücum elminə işarə edir və səma cisimlərinin sirlərini öyrənməkdə elmin rolunu vurğulayır.

Tisi yaradıcılığında hər zaman diqqəti çəkən "Sən ancaq biliklə yüksələ bilərsən" ifadəsindən istifadə edərək Əvhədinin "Cami Cəm" əsərində yazdığı aşağıdakı beytlər onun yaradıcılığında böyük mütəfəkkirin təsirini təsdiq edir:

*Bilik can quşuna qanaddır inan,*
*Ruhunu göylərə odur qaldıran.*

*Elm oxu dünyada kamaldan ötrü,*
*Oxuma dövlətdən, ya maldan ötrü.*

Əvhədi "Cami Cəm" əsərini 1333-cü ildə yazılmışdır. Azərbaycan sözləri və məsəlləri ilə bəzənən bu əsər İran padşahı Cəmşidin şəninə həsr olunaraq "Cami-Cam"[1] adlandırılmışdır. Əsər üç fəsildən ibarətdir. Birinci fəsildə yer üzünün yaradılışından, mədən, nəbat, heyvan və insanın bir-birinin ardınca vücuda gəlməsindən bəhs edilir. Burada həm elm, həm panteizmlə bağlı mülahizələr əks olunmuşdur. Əsasən, insanın məxluqatın ən şərəflisi olduğunu ay-

[1] Cəmşidin Camı - əfsanəvi İran padşahı Cəmşidin istənilən hər şeyi özündə əks etdirən camına işarədir.

dın boyalarla göstərilmişdir. Burada insanın şüur və mühakiməyə malik olduğu əsaslandırılmışdır.

İkinci fəsil iki hissəyə bölünmüşdür. Birinci hissədə dünya əhlinin məişət şəraitindən, dolanacağından danışılır. Şair insanlara, şahlara nəsihətlər verir, onları şərab içmək qaydalarından tutmuş, ev tikmək, evlənmək, övlad tərbiyə etmək, düzlük, dostluq, sədaqətlilik və mərdanəlik, elmə yiyələnməyə aid maraqlı fikirlər söyləyir. İkinci hissədə sufizm təriqətıinin şərtləri, qəlbin mənası, eşq, irfan, səbr, təslim, mürşid, mürid və s. kimi təsəvvüf istilahları geniş izah edilir.

Üçüncü fəsildə axirət əhvalatı təsvir edilir. Əbədi səfərə necə hazırlaşmaq lazım gəldiyini, özünə hansı yolla xeyir-dua qazanmağın sirlərini, o biri dünyaya əliboş getməməyin yollarını təbliğ olunur.

Olduqca sadə və yüksək poetik dillə yazılmış "Cami-Cəm" əsərinin bütün fəsillərində ictimai, xeyirxah bir əhval-ruhiyənin hakim olduğu diqqəti cəlb edir. Şair burada dini-mistik ifadələrlə ibadəti, həqqə qovuşmağı göstərdikdə belə yenə bu dünyada xeyirli iş görməyi, bəşəriyyətə öz əməlləri ilə xidmət etməyi təbliğ edir.

"Cami-Cəm" əsərində zahirpərəst, təqlidçi, formalist dindarlar tənqid olunur. Əvhədi yaradıcılığında mühüm mərhələni təşkil edən "Cami-Cəm" əsəri fəlsəfi, etik, əxlaqi, siyasi, pedaqiji əsər kimi qiymətləndirilir. Əvhədi yaradıcılığında elmin, idrakın qüvvəsinə inam diqqətəlayiq yerlərdən birini tutur.

*Bu uzaq göylərin sirlərini biz,*
*Dərk edə bilmərik, yəqin elmsiz.*

Əvhədinin elm, idrak və bilik haqqında fikirləri bütün qəzəl, qəsidə, məsnəvi, tərcibəndlərində ətraflı şərh olunmuşdur. O hamıya "elm bayrağını göylərə qaldırmağı", həmişə "bilik arxasınca yüyürməyi" tövsiyə edirdi.

*Bilik işıqlıdır, cəhl qaranlıq,*
*Sən bu həqiqəti düşün bir anlıq.*

Əvhədinin fikrincə, "insanın doğulandan ömrünün axırına qədərki məcaralarının" hamısında "müəllim və məktəb, elm və ədəb" müstəsnalıq kəsb edir ki, bunların da hamısında o, "müəllim, alim həllediciidir" fikrini qabardır. Müəllim, ustad əməyini qiymətləndirməyi, uca tutmağı, onun sahəsində yüksələnləri bu müqəddəs kəsləri üstün tutmağa çağırır:

*Deyirlər, ağıllı bir ustad varmış,*
*Nacins bir şagirdə dərs oxudarmış.*
*İllərlə qatlaşıb hər əziyyətə,*
*Dözdü çox əzaba, çox müsibətə.*
*Axır elm öyrənib o, alim oldu.*
*Natiq və qüdrətli bir hakim oldu.*
*Ucaldı mənsəbi, artdı dövləti,*
*Şaha yaxın oldu, qalxdı şöhrəti,*
*Əsli, mayasında yox idi vəfa.*
*Odur ki, ustadı salmadı yada.*

Əvhədi müəllimi cəmiyyətin "möhkəm daşı" hesab edir, onun əməyini, fəaliyyətini yüksək qiymətləndir.

Əvhədi cəmiyyətin hərəkətini, sükunətini, vəziyyətini, hökm sürən bütün xeyir və şərini, ədalətsizlik və ədalətliliyin, yaxşı və pisin və s.-nin kökünü "fəqihlərin, müəllimlərin əməli"ndə görürdü.

Əvhədi məktəbi "elm qapısı" və "nizam ocağı" adlandırır və hesab edirdi ki, uşaqları məktəblərə, mədrəsələrə, xanigahlara göndərmək zəruridir. Hər bir yaxşı keyfiyyətin məktəbdə, mədrəsədə aşılandığına inanırdı.

*Ən böyük nemətdir, anlasan peşə,*
*Peşəkar düz yolla gedər həmişə.*

Əvhədi sırf tərbiyə, bilik, təhsil, zəkaya, əxlaq, məktəb, müəllim, ədib və alimə dair söylədiyi yüksək mənalı fikirlər maarifpərvər şairin "Cami-Cəm" əsərində öz izahını tapmışdır. Elə bu izah və

şərhlərinə görə də "Cami-Cəm" əsəri pedaqoji fikir tarixində öz qiymətli yerini tutmuşdur.

## Məhəmməd Naxçıvaninin təlim-tərbiyə haqqında fikirləri (1288 – 1366)

Məhəmməd Hinduşah Naxçıvani 1288-ci ildə Naxçıvanda ziyalı ailəsində anadan olmuşdur. Onun atası Mövlanə Fəxrəddin Naxçivani öz dövrünün görkəmli alimlərindən biri hesab olunurdu. Məhəmməd Naxçivani ilk təhsilini ailədə atasından almışdır. Ali təhsilini isə Azərbaycan Atabəylər dövründə (1136 – 1225) Naxçivanda inşa edilmiş Naxçivan mədrəsəsində tamamlamışdır. Bəzi məlumatlardan aydın olur ki, o, atasının yolu ilə getmiş, onun davamçısı olmuşdur.

Naxçıvaninin Qiyasəddin Rəşidinin təklifi ilə yazdığı "Dəstur" əsəri ictimai-siyasi, didaktik, fəlsəfi-etik məzmun kəsb etməklə yanaşı, tərbiyəvi ideyalarla zəngindir. Bu əsər uzun müddət tarix, ədəbiyyat, həm də "elmülbəyan" fənlərinin tədrisində bir dərslik kimi istifadə olmuşdur. "Dəstur I", "Dəstur II" əsərləri təkcə Şərq aləmində deyil, həm də Qərbi Avropada yayılmışdır. Bu əsər H.Dozi və Hammer-Purqştala görə, seçilmiş əsərlərin ən nadiri, ən qiymətlisidir. M.Naxçıvaninin bu əsəri Şirazinin "Gülüstan", Şəbüstərinin "Gülşəni-raz", Əvhədinin "Cami-Cəm", Caminin "Yusif və Züleyxa" və s. dərslikləri ilə bir sırada duran eyni tədris əhəmiyyətli nadir orta əsr dərsliyidir.

Naxçıvani öz lüğətləri, dil tədrisinə aid yazdığı "Sihahül-əcəm", "Sihahül-fars", "Əf-al əl-Sihahül-əcəm" adlı inciləri ilə tədris və təlim sahəsində müəllimlərə kömək etmiş, həm də orta əsrlərdə ərəb və fars dillərinin geniş yayıldığı bir zamanda lüğətlə azərbaycanlılara kömək etmişdir.

Naxçıvani öz dövrünün kamil ziyalısı, maarifpərvəri, tarixçisi, dərslik müəllifi, pedaqoq olmuşdur. O, hesab edirdi ki, müəllim ixtisasında təkmil olmalıdır.

Naxçıvaninin əsərlərindən məlum olur ki, o, dövrünün ədəbiyyatını, təbabətini, coğrafiyasını, astronomiyasını, riyaziyyatını, poeziyasını və s. elmləri mükəmməl öyrənmişdir. Naxçıvani öz əsərlərində dini idealist mövqedən çıxış etsə də, kainatın, həyatın yaranması haqqında dini təlimlə kifayətlənməmiş, yunan və şərq filosoflarının fikirlərindən bəhrələnmiş, mahiyyətini öz elmi mühakimələri əsasında şərh etmişdir.

Naxçıvani belə hesab edirdi ki, rəiyyətə cəmiyyəti yaşadan əmanət kimi baxmaq və qiymətləndirmək lazımdır. Yeri gəldikcə üzünü hökmdarlara, vəzirlərə tutaraq yaşlıların təlimlənməsinə xüsusi diqqət verilməsini əsas götürürdü. Orta əsrlərdə yaşlıları pedaqogikanın banisi hesab edən Naxçıvani "təlim-tərbiyəli valideyn vələdinə (övlad) də düzgün istiqamət verir" fikrini əsaslandırırdı.

Naxçıvani əmirin, hökmdarın, sultanın da savadlı, təlimli, sənətdən baş çıxaran olmasını arzulayırdı. O, təlimli, oxumuş, bilikli adamlara yüksək qiymət verirdi, onların zəkasından, qələmindən gövhər yağan, hamı üçün xeyirxah olan məleykə surətinə oxşadırdı. Qeyd edirdi ki, bir ixtisas, bir peşə öyrənməyən, rəiyyətə xidmət etməyən adamın nə dini, nə də dünyası olar.

Naxçıvani həm də bir tarixçi kimi "Şahnamə"dən, "Kəlilə və Dimnə"dən, hind əfsanələrindən hekayətlər, misallar gətirərək dostluq haqqında danışır, əsl dostluğun keyfiyyətindən söhbət açır.

Naxçıvani öz əsərlərində tərəqqini yaradan şəxsiyyətlər içərisində üstünlüyü müəllimlərə, mürəbbilərə, münəccimlərə verirdi. O, belə insanları yalnız özü üçün deyil, vətənin, rəiyyətin xeyrinə, təşəkkülünə xidmət edən, müəllimi yol göstərən, nəsiyyət verən, rəiyyəti istiqamətləndirən, bütün çətinlikləri istiqamətləndirməyi bacaran ulu şəxsiyyət kimi qələmə verir. O, müəllimi ədalətli, bilikli, ibrət mənbəyi kimi təsvir edir, müəllimdən üzərinə düşən vəzifəni əql və idrakla yerinə yetirməyini tələb edirdi. Ümumiyyətlə Naxşivani yaradıcılığında əxlaq tərbiyyəsi geniş şərh olunur və bu əxlaq tərbiyəsinin icraçısı olan müəllim əvəzsiz olan bir şəxsiyyət, xalqa yol göstərən bir "nurani ata" kimi əks olunmuşdur. O yalnız hakimləri deyil, məhkumları da hər şeyi bilən, vətənə, rəiyyət övladlarına xid-

mət edən belə şəxsiyyətləri tanımağa çağırırdı, güman edirdi ki, əxlaqi-ixlas ilə ixlasi-ixtisas birləşdikdə həm hökmranlıq, həm də divan saf qalacaq. Əgər bunlardan birisi qüsurlu olarsa, həm dövlət, həm də vilayət qusur içərisində olacaqdır.

Naxçıvani mədəni, iqtisadi və elmi tərəqqini müəllim, mürəbbi və dayələrin fəaliyyətində axtarırdı.

Naxçıvani istər tərəqqini, istərsə də mədəni inkişafın mənbəyini tədris müəssisələrinin fəaliyyətində görürdü. Ona görə də rəhbərlik etdiyi maliyyə təsərrüfatında əldə etdiyi gəlirin bir hissəsini məscid, qiraətxana, xanəgah və digər tədris müəssisələrinin tikintisinə sərf edirdi. O, vətən üçün lazım olan ixtisas sahiblərinin və peşə adamlarının yetişdirilməsinə xüsusi diqqət yetirirdi. Əsərlərində tibb, astronomiya, astrologiya, kimya, fiqh, ritorika və s. elmlərdən söhbət açması bunların o dövr məktəb və mədrəsələrində tədris edilən fənlər olduğunu göstərir.

Naxçıvani bir sıra pedaqoji islahatların yaradıcısı kimi şöhrət tapmış bir mütəfəkkirdir. Pedaqoji fikir tarixində ədəb, əxlaq, kəlam, tərbiyə qaydaları və s. haqqında elmi mübadilələrlə yadda qalmışdır. Naxçıvani ədalətsizliyi, müqəssirliyi, rəğbət və nifrəti, dostluq və düşmənçilik, insanın xarakterik xüsusiyyətləri ilə bağlı şərhlər vermişdir.

Naxçıvaninin əsərləri dünyanın ən məşhur muzey və kitabxanalarında (İngiltərə, Türkiyə, Amerika, Almaniya və b.) saxlanılır.

## Qasimi Ənvər
## (1355 – 1433)

Qasimi XIV əsrin II yarısında geniş dünya şöhrəti qazanmış şəxsiyyətlər içərisində özünəlayiq yer tutmuşdur. Nəsimi kimi Qasimi də hürufilik mövqeyində dayanmış və bu mövqedən çıxış edərək Teymur istibdadına qarşı amansız mübarizə aparmışdır.

Azərbaycan və rus şərqşünasları həmişə hürufilik təriqətindən söhbət açarkən Nəimi, Nəsimi ilə bərabər Qasimidən də danışmışlar. Məşhur rus alimi İ. P. Petruşevski yazırdı ki, hürufilər təriqəti,

monqol xanları tərəfindən yaradılmış sisteminin varisi sayılan Teymurilər dövlətinə qarşı barışmaz mübarizə aparırdı. Teymurilərdən Sultan Şahruxun həyatına qarşı hazırlanan suiqəsd (1427-ci ildə) hürufilər cəmiyyəti tərəfindən təşkil edilmişdir. Qasimi də bu cəmiyyətin fəal üzvü olmuşdur.

Qasimül Ənvar «Ənisül-arifin» kimi məzmunlu, xələfləri tərəfindən dönə-dönə istifadə edilən məşhur əlyazmasının müəllifidir.

Təsəvvür xarakterli mənzumələr məcmuəsi olan bu əlyazmasından məlum olur ki, Qasimi də Nəimi kimi insan aludəsidir. O da insanı yüksəklərə qaldıraraq, onu ilahiləşdirir, onu müsbət xüsusiyyətlər mücəssəməsi kimi qələmə alır.

Qasimi "Ənisül-arifin» əsərində dünyanın jaradılması haqqında fikirlərini şərh edərkən, insan və onun amalı, əməli, nəfsi, əxlaqı, idrakı, səbri, hər şeyi başa düşməsi, rəiyyətə, aləmə, münasibəti, tərbiyəti, ürfanı və s. barədə geniş söhbət açır.

Nəimi kimi Qasimi Ənvar insanı ən ulu qüvvət, qүdrət hesab edərək, onu hər bir naqislikdən və qüsurlardan uzaq görmək istəyirdi. Daha doğrusu «kamil xilqət» arzusunda idi.

Bir sıra tarixçilər «Qasiminin hürufiliklə əlaqədar olmağı»nı da iddia edirdisə də, onun «ənəlhəq ideyası, Nəimiyə yaxınlığı, insanı ilahiləşdirməsi həmin fikri rədd edir.

Qasimi Azərbaycan xalqının Teymur istibdadına qarşı mübarizəsinin ön xəttində duran şəxsiyyətdir.

Nəsimiyə də örnək olan fikirləri, elə həmin cərəyan tərəfdarı və hürufizm tərəfdarı olması idi.

Nəsimi kimi Qasimi də yalnız tərbiyə elmi sahəsində deyil, Azərbaycan xalqının orta əsrlərə aid qəhrəmanlıq mübarizəsi sahəsində fəaliyyət göstərən mərd insan kimi qiymətləndirilməlidir.

Qasimi belə hesab edirdi ki, tərbiyə elmini yaymaqla, məktəb, mədrəsə və digər tədris müəssisələrində böyüyən nəsil qüsursuz boya-başa çatdırılarsa, istibdad dövründə baş vermiş rəzalət və qarətlərə soyğunluq və işğallara, edam və yersiz təqiblərə üstyn kəlmək olar.

Buna görədir ki, istər Nəimi və istərsə də Qasimi bu amal uğrunda öz canlarını və qanlarını qurban vermişlər.

Lakin onlar edam edilsələr də, bu amal Nəsimi başda olmaqla yüzlərlə mərd oğulları meydana kəlmişlər, onların mütərəqqi və mübariz irsini davam etdirmişlər.

Qeyd etmək lazımdır ki, «orta əsrlərdə xristianlıqda Roma fəlsəfi fikri nə qədər sıx birləşıb bir-birini tamamlayır»dısa, Azərbaycanda da hürufiliklə mübarizlik orta əsr Şərq fəlsəfəsinə bir o qədər güclü təsir edirdi.

«Qasiminin hyrufilik təriqəti və Şahruxa qarşı suiqəsd hazırlayıb onu öldürməsi» bu dediklərimizə canlı sübutdur.

Onu da unutmaq olmaz ki, Nəsimi ilə Qasiminin bir-birinə münasibətini biz yalnız tarixi mənbələrdən öyrənir və göstəririk ki, Qasimi Nəsimidən əvvəl yaşamış və onun sələfi olmuşdur.

Qasimi yaradıcılığında da elm, helm, xülq, lütf, mərifət təfəkkür, təlim, ululuq, idrak, nəfs qabilliik, xeyirxahliq, dostluq, sevgi, eşq və s. xüsusilə tərənnüm edilmişdir.

## İmadəddin Nəsimi
## (1370 – 1417)

XIV əsr Azərbaycan mədəniyyəti və fəlsəfi fikrinin, poeziya və pedaqoji fikir salnaməsinin, elm və əxlaqının ən görkəmli nümayəndələrindən biri də yaşadığı əsrin cəhalət qaranlığına nur çiləyib onu şöləlşndirən İmadəddin Nəsimidir.

Nəsimi yaradılıcılığını öyrənmədən şairin dövrü haqqında müfəssəl məlumat əldə etmək çox çətindir. Nəsimi çox geniş, rəngarəng və çox məndərəcəli yaradıcılıq diapazonuna malik mütəfəkkir-şair və dövrünün ən kamil əxlaq nəzəriyyəçisidir.

Cəsarətlə demək olar ki, Nəsimi poeziya sahəsində nə qədər geniş dünya şöhrətinə sahib olmuşdursa, bir o qədər də tərbiyə carçısı kimi qiymətləndirilməlidir. Ona görə ki, onun mütərəqqi fikirlərində dövrünün rəzalətlərinə qarşı böyük bir etiraz, istibdada qarşı üsyan, hər kəlməsində, dərin məna, hər misrasında böyük bir

aləm, hər bir ifadəsində isə insan həyatının incəlik və dərinliklərindən xəbər verən böyük bir hikmət anlaşılır.

Belə bir hikmət sahibinin yaradıcılığından bəhs etməzdən əvvəl onu yetişdirən mühitlə tanış olmaq son dərəcə vacibdir.

***Nəsiminin tərcümeyi-halı və dünyagörüşü.*** Bir sıra mötəbər mənbələri nəzərdən keçirdikdən sonra deyə bilərik ki, Nəsimi 1370-ci ildə Azərbaycanın ən qədim və gözəl guşələrindən biri olan Şirvanda anadan olmuşdur. İlk təhsilini Şamaxı mədrəsəsində almışdır.

Nəsimi ərəb, fars dillərini mükəmməl öyrənərək həmin dillərdə qocaman Şərqin İbn Sina, Rudəki, Xaqani, Nimi, Məhsəti, Zülfüqar, Şirvani, Arif Ərdəbili, Mahmud Şəbüstəri, Əvhədi, Rumi, Sədi, Tusi, Rəşidəddin və s. kimi ən görkəmli mütəfəkkirlərinin əsərlərini oxumuş və onlardan bəhrələnmişdir.

Məlumdur ki, Nəsimi öz sələfləri kimi şeirin və poetik janrlarda yazılmış digər mənzumələrin tez yayıldığını, çox oxunduğunu görüb, özü də kiçik yaşlarından şeir yazmağa başlamışdır. Nəsimi ilk şeirlərini "Hüseyni" təxəllüsü ilə yazmış və ilk qələm təcrübələrində "Hüseyn" kimi tanınmışdır. Sonralar isə o, Nəsimi adı ilə məşhurlaşmışdır.

Nəsiminin əsil adı Sultanəddin Əbülfəzl Seyyid İmadəddin Nəsimi Şirvanidir. Nəsiminin yaradıcılıq məhsullarından aydın olur ki, o, zəmanəsinin məntiq, ritorika, astronomiya, cədl, təbabət, coğrafiya, fiqh, kəlam və s. kimi elmlərinə dərindən yiyələnmiş və yeri gəldikcə bunlar haqqında da məlumat vermişdir.

Öz dövründə məktəb və mədrəsələrdə tədris edilən zəruri biliklərə əsaslı yiyələnən Nəsimi, öz doğma Azərbaycan dilini, şifahi xalq ədəbiyyatını da mükəmməl öyrənmiş, şeir və mənzumələrində bunlara yer ayırmışdır. Nəsiminin əsərlərindən aydın olur ki, o, Mənsur Həllacın, Fəzlullah Nəiminin mübariz ruhunu, Sədi Şirazinin, N.Tusinin təlim-tərbiyə ideyalarını qəbul etmiş, onlardan bəhrələnmişdir.

M.İbrahimov qeyd edir ki, bu işdə "Şamaxıdakı şairlər və üləmalar məclislərinin, həmçinin Nəsiminin müəllimlərinin də təsiri az

olmamışdır. Onlar uşaq çağlarından Nəsimidə gözəl sözü duymaq, sevmək həvəsi, zövqü tərbiyə edə bilmişlər”.

Azərbaycan xalqının feodal zülmünə, monqol işğalına və “Teymur istibdadına qarşı yönəldilmiş mübarizəsinin” bir yarpağını hürufilik təriqəti təşkil edir ki, Nəsimi də gəncliyində bununla rastlaşdığından hürufizmi qəbul etmiş, bu təriqətin kamil təbliğatçısına çevrilmişdir.

Teymur hökmranlığına və istibdadına, islam dininə qarşı yönəldilmiş xalq mübarizəsi və nifrətinin bir qolunu da İran və Azərbaycandan başlayaraq «hürufilik» təriqəti tutur. Bu təriqətin ki, başında dövün kamil ziyalısı Nəimi dururdu.

Nəsimi böyük mütəfəkkir-şairdir. Geniş, çox mündərəcəli, təbliğatı əhatəli, yaradıcılığı məzmunlu olduğundan ictimai fəaliyyəti bir neçə dövrə bölünə bilər.

Birinci dövr: Nəsiminin şairlik dövrüdür. Bu dövr Bakı dövrü də adlandırılır (1386 – 1394).

İkinci dövr: Nəsiminin hürufiliyi təbliğetmə və səyahət dövrüdür. Bu zaman Nəsimi İran, Türkiyə, Ərəbistan və s. yerləri gəzərək müəllimi Nəimidən miras qalmış hürufiliyi yaymağa başlayır, öz ətrafına saysız-hesabsız tərəfdarlar toplayır.

Üçüncü dövr: Nəsiminin təqib və edama məruz qalması dövrü hesab edilir. Bu dövr 1417-ci illərədək davam etmişdir.

XIV əsrdə baş verən bu ictimai-siyasi hərəkat dövrünün əsas kamil dünyagörüşlü mütərəqqi ziyalılarını da özünə cəlb edir və onları yalnız Teymurilərə qarşı deyil, qarətçilərə haqq qazandırmaq istəyən din-şəriət xadimlərinə qarşı da mübarizəyə sövq edirdi. Məhz belə bir narahat və qarmaqarışıq dövrdə hürufilik meydana çıxır. «Fəzlullah Nəiminin hürufizm təlimi XIV əsrin ictimai-siyasi şəraitindən doğmaqla bərabər Azərbaycanın fəlsəfi fikri tarixində mühüm yer tutan məzdəkizm, xürrəmilik və əxilik tarixi ilə üzvi surətdə bağlıdır». Hürufizm bir sıra xüsusiyyətlərinə ğörə özünəqədərki təriqətlərdən, sufizmdən xeyli fərqlidir Hürufilər insanı, onun şəxsiyyətini ilahiləşdirərək, onu allaha qovuşdurur və beləliklə, ilahi ilə eyniyyət təşkil edir.

Hürufilər «insanları ədalətə qovuşdurmaq üçün yeni tipli hökmdar, kamil insan arzulayırdılar. Belə insan isə, fəzlullahdır deyirdilər». Elə buradaca, hürufilik həm fəlsəfi, həm pedaqoji cərəyan simi təzahür edir.

Nəimi 1386-cı ildə Bakıda olduğu vaxt Nəsimi ilə tanış olmuş və öz təlimini ona da öyrətmişdi ki, o, edam edildikdən sonra hərəkata Nəsimi başçılıq edərək, onu etirasla yaymışdır.

Hürufiliyin Bakı fəaliyyətinə dair məlumatları F.Nəiminin «Vəsiyyətnaməsi»ndə aydın görünür.

Güclü təqib və edamları görən Nəimi Nəsimi başda olmaqla bütün hürufilərə geyimlərini vəsiyyət edir.

Nəsimi bu hərəkatın ən fəal, mübariz üzvü olmaqla bərabər, bütün varlığı ilə tuturdu

Nəsimi bir sıra ölkələrə, vilayətlərə gəlib hürufiliyi yayır və özünə tərəfdarlar toplayırdı. O, Anadoluya, İraqa, Suriyaya, Bursaya, Türkiyəyə və s. ölkələrə gedir və hər yerdə hərarətlə qarşılanırdı.

Harda olursa-olsun Nəsimi misilsiz, mətin və mübariz bir cəsarətlə insanların azadlıq və səadəini boğan hakimlərə, əmirlərə, hökmdarlara, şahlara qarşı çıxaraq humanizmi, insanlar arasında dostluğu, ölkələr arasında ittifaq yaratmağı, kamil qüsursuz, ilahi qüdrətli insan yetişdirməyi təbliğ edirdi. Nəsimi din, şəriət və təriqət sahibləri tərəfindən ciddi təqib edilir və edam edilməsinə fərmanlar, əmrlər, hökmlər verilirdi. Nəsimi 1417-ci ildə islam inkvizisiyası tərəfindən edam olunmuşdur.

**Tədris və təlim haqqında.** Nəsiminin əsərlərində ana dili, əlifba, tədris, təlim, təhsil, nitq, dil, söz və s. haqqında qiymətli fikirlər çoxdur. Nəsiminin özünəqədərki sələfərindən fərqləndirən cəhətlərdən birisi də onun Azərbaycan dilində yazması, bu dilə üstünlük verməsi və ana dilində yaratdığı əsərlərindəki novatorluğudur.

Nəsimiyə qədər dərsliklər, kitablar ərəb və fars dillərində, XIX əsrdən etibarən, tək-tək hallar istisna olmaqla ana dilində yazılırdı.

Nəsimi Azərbaycan dilində yazıb yaradan ilk ciddi addım atan mütəfəkkir ədib və dilin reformatoru olmuşdur. Onun sahəsində

Azərbaycan dili fars dilləri ilə yanaşı Yaxın Şərqin ən geniş yayılmış ədəbi dilinə çevrilmişdir.

Nəsiminin ana dilində yazması, əlifba təliminə xüsusi diqqət yetirləsi və Azərbaycan dilinə rəğbətinin səmərəsidir ki, özündən sonra gələn Azərbaycan maarifçiləri bundan istifadə etmiş, hətta müəllimlər təlimin ana dilində aparılmasını təklif etmişlər.

Təlimin ana dilində aparılması ideyasını irəli sürən maarifpərvər pedaqoqlar, görünür ki, Nəsimini dil haqqında ideyasına sadiq qalmış və bu sahədə Nəsimi fnkirlərindən bəhrələnmişlər.

Ümumiyyətlə Nəsiminin tədris və təlim haqqında fikirləri çox geniş, lakin mürrəkkəb, rəngarənk, məntiqi olduğundan, onu ətraflı şərh etmək ayrıca bir geniş tədqiqat tələb edir.

**Əlifbanın tədrisi və əhəmiyyəti haqqında.** Nəsimi hürufilik hərəkatının etiraslı müğənnisi kimi, ilk növbədə hərfin və onun mənasının başa salınması üçün təkliflər verir. Əlifbasız, hərfsiz nə elmi, nə əxlaqı, nə tərbiyəni dərk etməyi, nə münasibəti başa düşməyi mümkün hesab etmirdi.

Nəsimi dövrünün kamil təhsil almış ziyalısı və Şamaxı mədrəsələrinin, həm də şairlər məclisinin müəllimi kimi, əlifba tədrisinin yalnız Azərbaycanda deyil, bütün Yaxın Şərqdə həyata keçirilməsinin etiraslı müğənnisi olmuşdur.

Nəsimi orta əsrlərin lap qarışıq dövrlərində istər dini, ilahini, müqəddəs kitabları, müqəddəs inamları və digər dini şəxsləri, kəlamları, eynilə elmi, əxlaqi, musiqini, məntiqi, fəlsəfəni, ədəbiyyatı, şeiri, astronomiyanı, keçmiş mütərəqqi irsi əql və idrakla başa düşmək üçün vahid açar əlifbanı hesab edirdi.

*Gəl dilərsən xaliqi etmək əyan,*
*Hərfsiz son necə eylərsən bəyan,*
*Hərfsiz yox xaliqə özkə nişan,*
*Gər tapubsan kəl bəyan eylə rəvan!*

İstər canlı, istər cansız həyatı dərk etməyin vahid yolunu hərflərin öyrədilməsində görən Nəsimi yalnız hərfləri öyrətməklə kifa-

yətlənməmmyin mənasını da başa salmağı hürufilik nöqteyi-nəzərindən şərh etmişdir.

*Üç «əlif», «eyn» ilə yazdım belə,*
*Üç «əlif», bir «eyn» ilə gəlməz dilə,*
*Üç «əlif», bir «eyn» ilə gəlsə belə.*
*Müstəid arif gərək nu bilə.*

Nəsimi «hər hərfdən torpaq və havadan, su və atəşdən tərkibə düşdüyünü, 28 və 32 hərfin mahiyyət etibarı ilə bir hərf olduğunu yazır.

Nəsiminin fikrincə «bir hərf», yəni «vücudigüll» maddi aləmdə təcəssüm edən insandan ibarətdir.

**Təlim və təhsil haqqında.** Nəsiminin ən böyük xidməti ondadır ki, o, ərəb və fars dillərinin hökm sürən dövründə Azərbaycan dilində də yazmış və ana dilində təlimin, həm də dövrünün ədəbiyyatının ilk müğənnisi olmuşdur.

Əlbəttə, Nəsimiyə qədər Azərbaycan dilində yazıb yaratmış İzzəddin Həsənoğlu, sonra Qazi Bürhanəddin, Tacəddin İbrahim Əhmədi, M. H. Naxçıvani kimi şəxsiyyətlər olmuşdur.

Lakin tədris, təlim, maarif və məktəb, ana dilinin tədrisi ilə əlaqədar olaraq Azərbaycan dilinin həmiyyətini qeyd edənlərdən birisi də İmadəddin Nəsimi olmuşdur.

Nəsimi təhsil və təlimin, özü də Azərbaycan dilində təlimin vəzifəsini mövqeyindən asılı olmayaraq orta əsr məktəblərinin hamısında şagirdlərə hürufilik dünyagörüşünün yaranmasında görmüşdür.

Yalnız Azərbaycanda deyil, təqib və izləmələrdən uzaq olmaq üçün Yaxın Şərqin digər ölkələrinə getdiyi mühacirat dövrlərində də öz ətrafına topladıqları ziyalılara da bu fikri həyata keçirməyi tövsiyə etmişdir.

Nəsimi ana dilini qorumağı, onu əsaslı öyrənməyi təklif edərək yazırdı:

*Sən bu Nəsiminin dilin anla, sözün bil*
*Kim, var bu dildən özgə bizim bir lisanımız.*

Nəsimi öz əsərlərində xalq yaradıcılığının milli koloritini, təravətini müdafiə edərək, onları daha da inkişaf etdirmiş, xəlqilik prinsiplərinə sadiq qalaraq, onu yüksəklərə qaldırmışdır.

**Müəllim haqqında.** Nəsimi öz yaradıcılığı, fəaliyyəti və mübariz amalını həmişə ustadı, müəllimi sandığı Fəzlullah Nəimi ilə bağlamış, onu ata, öyrədən və ilahi bir qüvvə sanmışdır.

Nəsimi özünü Nəiminin şagirdi hesab edərək, daim ondan bəhrələndiyini, ondan təlim və tərbiyə aldığını və onu öz tərbiyəsində nümunə sandığını dönə-dönə qeyd edir.

Nəsimi müəllimi «on səkkiz min aləmin sirrinə bələd olan adam, «dəryayi-ümman», zəmanəsinin bütün elmlərinə malik olan «ulu qüvvət» deyə mədh edir və kənc nəslə bütün bu müsbət keyfiyyətləri öyrədən nümunə mənbəyi kimi baxırdı.

Nəsiminin fikrincə, müəllim, ustad, müdərris nəinki «öz biliși», «dəryayi-hikməti» öyrətmə xüsusiyyəti ilə nümunə olmalıdır. O, həm də «zəmanənin qeylüqalına üsyan» edən mübarizlər hazırlamalıdır deyə müəllimin qarşısına vəzifələr də qoyurdu.

Belə bir adam, qüsursuz ustad Fəzlullah Nəimini hesab edirdi ki, onun üz cizkilərindən ilahi bir qüvvə sanılırdı.

Müsbət xüsusiyyətlərinə, nümunələrinə görə, Nəimiyə «könül verməyi təklif edirdi. Ona görə də:

*Nicaһan bir şaһa düşdü könlümüz,*
*Yüzü bədrü-maһə düşdü könlümüz,*
*Taki Fəzlullaһə düşdü künlümüz,*
*Uş һəqiqi raһə düşdü könlümüz.*

Nəsimi göstərir ki, «həqiqəti bəyan etmək», «elm öyrənmək», idraka sahib olmaq hərfi өyrənmədədən mümkün olmadığı kimi, müəllimsiz də hərf, əlifba öyrənmək müşküldür.

Nəsimi məntiqi ifadələri ilə müəllim fəaliyyətini yüksəklərə qaldırır ki, onu hər cür rəzalətə, qanunsuzluqlara, yalanlara, riyakarlığa qarşı üsyan edən şakirdlər, «əhli-vətən» və «cövhəri kainat» hazırlamağa səsləyirdi.

Nəsimi müəllimin, ustadın roluna yüksək qiymət verərək «nə mürəkkəb düzər gör ol ustad» deyib onun dediklərini «kim içər dolca hikmətdir» kimi qələmə verirdi.

Nəsimi üzünü alimlərə, şagirdlərə tutaraq “gəl sən andan elm öyrən”məyə dejə «mövlamıza inanmağı məsləhət bilirdi.

Nəsimi ilk orta əsr maarifçisi kimi yalnız biliyi müəllimdən alınmasına deyil, mütərəqqi fikirli şair, ədib, filosof, dilçi, səyyah və s. kimi şəxsiyytləri və onların əsərlərini də oxumağı zəruri sayır və bunlara da «өyrədən mənbə»lər kimi baxırdı.

Görkəmli şəxsiyyətləri və əsərlərini də müəllim kimi öyrədən hesab edirdi.

Nəsimi öz yaradıcılığında belələrinə: Nizamini; Ərəstalisi, Sinanı, Əvhədini, Sədini, Hafizi, Mənsur Həlladı və b. misal kətirir və onları da «müəllim, ustad» adlandırırdı. O:

Həq təcəlla eylədi Musa üçün,
Nə Ərəstalisü Bu-Sina üçün.
Ey könül, şol hürü-məhsəma üçün
Səcdə qıl, həm şol qədi bəla üçün.

deyərək belələrinə «səcdə qıl»mağı da təklif edirdi.

Nəsimi öz müəllimini «əfəndi» deyə də xitab edib, ustadını «alimlər ümidi, mahi-təban», «gözümün nuri vicudimdə», «hər damarımda yeriyən qanım” deyə onu mədh edirdi:

Kanım, gühərim, mədəni-yaquti-rəvanım.
Qiymətli olan ləli-bədəxşanım əfəndi.
Eşqində Nəsimi çün qılır canını qurban,
Qurbanına qurban olayım, canım əfəndi.

Nəsiminin həyat yolu qısa da olsa, o, çox böyük mütəfəkkir-şairdir. Onun fəaliyyəti çox geniş, yaradıcılığı çoxmündərəcəlidir.

### *Məhəmməd Füzuli*
(1449 – 1556)

Yalnız öz doğma Azərbaycan dilində deyil, ərəb və fars dillərində də ölməz əsərlər yazmış Fizulinin adı bütün Yaxın Şərq ədəbiyyatında məşhurdur. Füzulinin Azərbaycan mədəniyyəti qarşısında ən böyük tarixi xidmətlərindən bir də onun Azərbaycan ədəbi dilinin inkişafını yüksək zirvəyə qaldırmasıdır. Şair ədəbi fəaliyyətə başladığı zaman Azərbaycan dilini geniş tarix səhnəsinə çıxartmaq haqqındakı böyük və şərəfli vəzifəsini bütün varlığı ilə dərk etmişdir. Hətta bu işin çətinliklərini də ölçüb biçmişdir. Və şair öz vədini yerinə yetirdi.

XV – XVI əsrlər Azərbaycan ədəbiyatında əsas etibarı ilə lirika üstünlük təşkil edirdi. Azərbaycanda və eləcə də bir sıra siyasi səbəblər üzündən Türkiyə və Bağdad ətrafında yaşayıb-yaratmağa məcbur olan XV – XVI əsr sənətkarlarımızdan Hilali, Həbibi, Xətai, Süruri, Bəsiri, Şəmsi, Zayei və başqalarını göstərmək olar. Bütün bu görkəmli şairlərin isə ön cərgəsində Məhəmməd Füzuli dururdu.

Füzulinin həyatı haqqında məlumat olduqca azdır. İlk mənbə kimi müraciət etdiyimiz təzkirələrdən əksəriyyətində Füzulinin İraqın Kərbala şəhərində doğulduğu xəbər verilir. Şair təxminən 1498-ci ildə anadan olmuş, 1556-cı ildə vəfat etmişdir. Füzuli bütün öz mənalı ömrünü ehtiyac və məhrumiyyət içərisində keçirmiş, vüqar və əzəmətini heç bir zaman tərk etməmişdir. Fyzulinin Fəzli adında bir oğlu var idi. O da şair idi. Füzuli özü ilə oğlu arasında olan münasibətlərə ayrıca olaraq iki şer həsr etmişdir. Bundan başqa o, hər bir yerdə ata-oğul mövzusuna toxunarkən oğluna da müəyyən işarələr etmişdir.

Füzuli «Bəngü Badə» poemasını 1510-cu ilin sonunda Şah İsmayıl Xətainin Məhəmməd xan Şeybaniyə qalib gəlməsi münasibətilə yazmışdır. Ona görə də Füzulinin bu əsəri 1511-ci ilin başlanğı-

cında yazmış olduğunu guman etmək olar. Yəni Füzulinin 1510-1511-ci illərdə yazığı «Bəngü Badə» poemasında olan daxili məlumat Fizulinin 1480-1485-ci illərdən gec anadan olmamasını göstərir.

Füzulinin ailəsi haqqında bizim heç bir məlumatımız yoxdur. Füzulinin atasının və yaxud dədə-babalarının bir zaman Azərbaycandan Bağdada (İraqi-Ərəbə) köçmələri haqqında mülahizə (Ə. Seidzadə və s.) həqiqətə çox yaxındır.

Füzuli yaradıcılığı olduqca zəngin və rəngarəngdir. Şərq klassik poeziyasının elə bir forması, yaxud canrı yoxdur ki, Füzuli qələmi ondan istifadə etməmiş olsun.

Füzuli öz şairlik fəaliyyətini qısa lirik şerlərlə – qəzəllərlə başlamış və ömrünün sonuna qədər bu canrda əsərlər yazmışdır. Lirika Füzuli şerinin canı, cövhəridir. Şerin bu canrında şairin bütün hiss və həyacanları, onun daxili aləmi, ən nəcib duyğuları öz əksini tapır.

Lakin Füzuli lirikası yalnız məhəbbəti təlqin etməklə kifayətlənmir. Füzuli yaradıcılığında şairin ictimai baxışları da öz əksini tapır. Füzulinin «Şikaytnamə», «Rind və Zahid», «Ənis-ül-qəlb» kimi əsərləri ictimai ədalətsizsiyi, zülm və istibdadın tənqidinə yönəldilmişdir. Bu əsərlərdə şair öz dövrü üçün çox mütərəqqi fikirlər irəli sürür, əməkçi xalqın – sənətkar və əkinçilərin müdafiəçisi kimi çıxış edir.

Füzuli yaradıcılığının şah əsəri «Leyli və Məcnun» poemasıdır. Nakam bir məhəbbət dastanı olan «Leyli və Məcnun» Yaxın Şərq ədəbiyyatında ən çox yayılmış mövzulardan biridir. Bu gözəl və kədərli afsanə ilk dəfə ərəb şifahi ədəbiyyatında təşəkkül tapmışdır. Poeziyada isə «Leyli və Məcnun» dastanı mükəmməl bir poema şəklinə salıb nəzmə çəkən ilk müəllif Nizami Gəncəvi olmuşdur.

Nizaminin «Leyli və Məcnun»u öz bədii rəng və təravəti, məntiqi qüvvəsi ilə oxucunu heyran edən qiymətli bir sənət əsəridir. Çoxları Nizamidən sonra bu mövzuda poema yazmışdır. Şərqin klassik ədəbiyyatı 40-dan yuxarı «Leyli və Məcnun» poeması tanıyır. Ancaq Füzulinin «Leyli və Məcnun»u bu mövzuda yazılmış əsərlər içərisində ən görkəmli yerlərdən birini tutur.

Füzulinin «Leyli və Məcnun»u lirik faciədir. Əsərin qəhrəmanı vurğun bir şair – eşq və məhəbbət mücəssəməsinin özüdür. Poemanın əsas hərəkətverici qüvvəsi də «əvvəli qəm, sonu fəna» olan uğursuz bir məhəbbət və bu məhəbbət yolunda çəkilən iztirab və əziyyətlərdir. Füzuli azad və qarşılıqlı sevgi ideyasını bədii bir formada oxuculara təqdim edir. Şair məhəbbətə əzib məhv edilməsi labüd olan bir hiss kimi baxmır. O, məhəbbətə insan qəlbinin mütləq və zəruri ehtiyacı, insan səadəti və iztirablarının başlıca mənbəi kimi baxır.

Füzulinin qəhrəmanları insani hissləri köhnə cəmiyyətin adət və ənənələrindən xilas etməyə çalışan yeni insanlardır.Onlar orta əsr dünyasında azlıq təşkil edir, lakin buna baxmayaraq öz hissləri uğrunda mübarizə etməyi bacarırlar. Ölüm belə onları bu yoldan göndərməkdən acizdir.Mal, dövlət, şöhrət, işkəncə Məcnun və Leylinin sevgisini sarsıda bilməz.

Qarşılıqlı sevgi, mənəvi azadlıq problemləri ilə sıx surətdə əlaqədar olaraq Fyzulinin «Leyli və Məcnun»unda orta əsrlərdə qadına münasibət məsələsi də mərkəzi yer tutur.

Fyzulinin «Leyli və Məcnun»unda müəyyən dərəcədə sufizm fəlsəfəsinin elementləri vardır. Lakin bu elementlər cüzidir, əsərin ideyasına xələl gətirmir.

Nizami və Nəvai əsərlərindən Fyzulinin «Leyli və Məcnun»unu fərqləndirən əsas cəhət onda lirik haşiyələrin üstünlüyüdür.

Fyzulinin fars dilində yazdığı divan, «Həft cam» («Saqinamə»), «Ənisül-qəlb», «Səhhət və Mərəz» əsərləri ilə yanaşı nəsr və nəzmlə yazdığı «Rindü Zahid» əsəri öz ictimai-fəlsəfi məzmunu etibarı ilə çox əhəmiyyətlidir

Füzuli özünün fəlsəfi fikirlərini başlıca olaraq «Mətləül-etiqad» əsərində şərh etmişdir. Əsər ərəbcə yazılmışdır. Bu əsərin orta əsrlərdə Yaxın Şərqdə əmələ gəlmiş fəlsəfi və teoloci cərəyanlarla tanış olmaq nöqteyi-nəzərindən böyük əhəmiyyəti vardır.

Füzulinin fəlsəfi fikirləri əsas etibarı ilə idealist xarakterə malikdir. Fəlsəfənin əsas məsələlərini o, idealistcəsinə həll edir. Buna baxmayaraq ayrı-ayrı fəlsəfi məsələlərdə Füzuli materializmə meyl

göstərmişdir. Şair «Mətləül-etiqad» («Vosxocdenie ubecdeniy») əsərində mövcudiyyəti mümkün və vacib olmaq üzrə iki qismə ayırır, maddi və qeyri-maddi olaraq iki cür varlığı qəbul edir. Bədii əsərlərində isə Füzuli varlıq məsələsində pateizmə meyl göstərir. Obyektiv varlıq haqqında fəlsəfi cərəyanların təsnifinə dair Füzulinin çox maraqlı fikri vardır. Füzuli varlıq haqqındakı anlayışları etibarı ilə filosofları 5 qrupa ayırır: Sofistlərə, naturalistlərə, dəhrilərə, səbilərə və dinçilərə (yəhudi, xristian və müsəlmanlara).Fyzuli aləmi hadis hesab edir və bu barədə Aristotelə əsaslanır. Halbuki, Aristotel maddi aləmi hadis və və ya qədim olması haqqında Füzulinin fikirlərində ziddiyyətlərə təsadyf edilir.

İdrak məsələsi haqqında də mütəfəkkirləri Füzuli müxtəlif cərəyanlara ayırır ki, bu təsnif də maraşlıdır. Füzuliyə görə həmin məsələ haqqında filosoflar arasında başlıca olaraq üç cərəyan vardır: rasionalistlər, inkişafçılar və dini təlim tərəfdarları.

Füzuli «Mətləül-etiqad» əsərində bir çox məsələlərdə feodalizm dövrü üçün mütərəqqi fikirlər söyləmişdir.

***"Leyli və Məcnun".*** Füzuli yaradıcılığının şah əsəri "Leyli və Məcnun" poemasıdır. Nakam bir məhəbbət dastanı olan "Leyli və Məcnun" Yaxın Şərq ədəbiyyatında ən çox yayılmış mövzulardan biridir. Bu gözəl və kədərli əfsanə ilk dəfə ərəb şifahi ədəbiyyatında təşəkkül tapmış, poeziyada isə "Leyli və Məcnun" dastanını mükəmməl bir poema şəklinə salıb nəzmə çəkən ilk müəllif Nizami Gəncəvi olmuşdur.

İngilis alimi Gibb Fyzulinin «Leyli və Məcnun» poemasının başlanğıcında türk ədəbiyyatında bu mövzuda əsər olmaması məlumatını tamamilə əsassız sayır. Gibbə görə, Füzuli Nəvainin cığataytürk dilində ondan 60 il əvvəl yazdığı əsəri ilə tanış olmuşdur. Gibb Füzulinin «Leyli və Məcnun» poemasının onun böyük sələfi Nizaminin eyni adlı əsəri vəznində yazıldığını və 3400 misradan ibarət olduğunu söyləyir.

İtalyan alimi Bombaçinin də "Leyli və Məcnun" əsəri haqqında verdiyi məlumat son dərəcə maraqlıdır. O, bir çox türk alimi kimi Füzulinin də Nizami "Leyli və Məcnun"nundan təsirləndiyini

qeyd edir. Füzulidən əvvəl Şərq şairlərindən ən azı altısının – Şahidi, Cami, Gülşəhri, Nəvai, Həqiri, Hamidi kimi sənətkarların bu mövzuya müraciət etdiyini göstərir.

Nizaminin "Leyli və Məcnun"u öz bədii rəng və təravəti, məntiqi qüvvəsi ilə oxucunu heyran edən qüvvətli bir sənət əsəridir. Çoxları Nizamidən sonra bu mövzuda poema yazmışdır. Şərqin klassik ədəbiyyatı 40-dan yuxarı "Leyli və Məcnun" poeması tanıyır. Ancaq Füzulinin "Leyli və Məcnun" poeması lirik faciədir. Füzuli bu poemanı 1536-cı ildə yzmışdır. Poema 3299 beytdən ibarətdir. Əsərin qəhrəmanı vurğun bir şair – eşq və məhəbbət mücəssəməsinin özüdür. Poemanın əsas hərəkətverici qüvvəsi də «əvvəli qəm, sonu fəna» olan uğursuz bir məhəbbət, bu məhəbbət yolunda çəkilən iztirab və əziyyətlərdir. Füzuli böyük sənətkarlara məxsus bir ustalığla azad və qarşılıqlı sevgi ideyasını gözəl, bədii bir formada oxuculara təqdim edir. Şair məhəbbətə əzib məhv edilməsi labüd olan bir hiss kimi deyil, insan qəlbinin mütləq, zəruri ehtiyacı, insan səadəti və iztirablarının başlıca mənbəi kimi baxır.

Füzulinin qəhrəmanları insani hissləri köhnə cəmiyyətin çürüyüb laxlamaqda olan adət və ənənələrindən xilas etməyə çalışan yeni insanlardır. Onlar hələ orta əsr dünyasında azlıq təşkil edir, lakin buna baxmayaraq öz hissləri uğrunda mübarizə etməyi bacarırlar. Ölüm belə onları bu yoldan döndərməkdən acizdir. Mal, dövlət, şöhrət, işgəncə Məcnun və Leylinin sevgisini sarsıda bilməz. Füzuli tükənməz bir həssaslıq və məhəbbətlə öz qəhrəmanlarının faciəli taleyini nəzmə çəkir, onların sədaqət və vəfa simvolu olan sevgisini tərənnüm edir.

Qarşılıqlı sevgi, mənəvi azadlıq problemləri ilə sıx surətdə əlaqədar olaraq Füzulinin "Leyli və Məcnun"unda orta əsrlərdə qadına münasibət məsələsi də mərkəzi yer tutur. Şair öz Leylisinin simasında orta əsr feodal ailə adət və ənənələri məngəsində əzilən, heysiyyəti tapdalanan, təhqir edilən hüquqsuz qadınlığın acınacaqlı vəziyyətini qabarıq bir şəkildə göstərmişdir.

Füzulinin «Leyli və Məcnun»unun demək olar ki, bütün surətləri onların əsas, yaxud epizodik surət olmasına baxmayaraq, oxu-

cunun qəlbində dərin bir iz buraxır, onu düşündürür, həyəcanlandırır. Füzulini sözün əsl mənasında insan qəlbinin mahir bilicisi adlandırmaq olar.

Füzulinin «Leyli və Məcnun»unda müəyyən dərəcədə sufizm fəlsəfəsinin elementləri vardır. Lakin bu elementlər cüzidir, əsərin ideyasına xələl gətirmir.

Füzulinin «Leyli və Məcnun»u özünəməxsus xüsusiyyətləri olan oricinal bir əsərdir. Poemanın Nizami və Nəvainin eyni adlı əsərləri ilə müqayisəsi bu fikri əsaslı surətdə təsdiq edir. Füzuli «Leyli və Məcnun»u Nizami və Nəvai əsərlərindən fərqləndirən əsas səciyyəvi cəhət onda lirik haşiyələrin üstünlüyüdür. R. Azadə Füzulinin «Leyli və Məcnun» əsərini təhlil edərkən onun Nizami əsərindən fərqlənən bütün cəhətlərini göstərmişdir. Azadəyə görə bu əsərləri bir-birindən «fərqləndirən əsas cəhətlərdən biri elə bu ürəklər yaxıb-yandıran, doğma qəzəllərdir». Eləcə də Nizaminin Leylisindən fərqli olaraq Füzuli Leylisinin «orta əsrin hüquqsuz qadınlığının tipik bir nümayəndəsi kimi daha dolğun, hərtərəfli işlənməsidir». Nizami əsərində olan bəzi epizodlar Füzuli əsərində öz əksini tapmadığı kimi, «hekayə içərisində hekayə söyləmək üsulu» da Füzuli əsərində yoxdur. Nizami əsərində Məcnun «ancaq Kəbə əhvalatından sonra şair olub, lirik şerlər yazmağa başlayır. Füzulinin Məcnunu isə, ümumiyyətlə, bir şair kimi təsvir olunur. «Məcnunun Leyli qəbri üstündə ölüm səhnəsi də Nizami və Füzulidə biri digərindən fərqlənir». Belə ki, Nizami qəhrəmanının nə zaman öldüyü məlum deyildir. Füzulidə isə Məcnun Leylinin ölüm xəbərini eşitcək onun məzarı üstə gəlib soyuq məzar daşını qucaqlayır və elə oradaca ölür».

## AZƏRBAYCANDA İLK AKADEMİYA

XII əsrdə Naxçıvanda mədrəsələrin, əsrin ikinci yarısı və XIII əsrin əvvəllərində Şamaxı və Gəncədə kitabxanalar («Dar ol-kotob») formasında elmi-tədqiqat və tədris işlərini birləşdirən mərkəzlərin meydana gəlməsi müşahidə olunur. Bu, elmi kitabxanalar haqqında orta əsr müəlliflərinin əsərlərində maraqlı məlumata təsadüf edirik. Təxminən 1220 – 1221-ci illərdə Azərbaycanda olmuş ərəb coğrafiya alimi Yaqut Həməvi (1179 – 1229) "Mocəm ol-boldan" adlı əsərində xəbər verir ki, Naxçıvan alimi Həddad ibn Asim ibn Bəkran Əbülfəzl ən-Nəşəvi Gəncədəki "Dar ol-kotob" da müdir («Xazin») vəzifəsində işləmişdir. Çox ehtimal ki, N.Gəncəvi öz əsərlərini yazmaq üçün fəlsəfə, ədəbiyyat, tarix və dəqiq elmlər üzrə lazımi məxəzləri Gəncə kitabxanasında əldə etmiş və burada işləmişdir.

"Mocəm ol-boldan" kitabında XII – XIII əsrlərdə Azərbaycanda yetişmiş bir çox alimlərin adları qeyd edilmişdir. Burada oxuyuruq: «Ərdəbilə bütün elmlər üzrə çoxlu alimlər mənsubdur». Diqqəti cəlb edən budur ki, bu dövrdə Azərbaycanda fəlsəfə, riyaziyyat, tibb və daha çox nücum elmi ilə maraqlanan alimlərin, eləcə də mədrəsələrin sayı artmışdır. Orta əsr məxəzlərindən mə'lum olur ki, dəqiq elmlər və fəlsəfə "elm-e əbdan" (tibb), yaxud nücum adı altında "Dar oş-şəfa" (xəstəxana) və rəsədxanalarda tədris və tədqiq edilmişdir. Bu da təsadüfi deyildir. Çünki orta əsrlərdə xeyriyyə komplekslərinə daxil edilmiş mədrəsələr nəzdindəki "Dar oş-şəfa"-lar və rəsədxanalar hökmdarlar, yaxud dövlət başçılarının himayəsi altında fəaliyyət göstərirdi. Tibb elminin ("elm-e əbdan"), eləcə də nücumun tədrisi və tədqiqi şəriətə görə qadağan edilməmişdi. Bu ənənə hətta XVII əsrdə də davam etmişdir. Həmin əsrin səyyahı və alimi Şardən İran və Azərbaycanda tibb və nücum elmlərinin təhsilinə böyük rəğbət göstərilməsini qeyd edərək yazırdı: «*Burada təhsil sərf-nəhvlə başlayır, ilahiyyat-fəlsəfə istiqamətində davam edir, sonra riyaziyyat sahələri öyrənilir, nəhayət tibb, yaxud nücum elminə yiyələnməklə başa çatır*».

Beləliklə, mütərəqqi alimlər məhz xeyriyyə mərkəzlərində fəlsəfə və dəqiq elmlərin mütaliəsinə, tədqiqinə və tədrisinə geniş imkan əldə edirdilər.

Yuxarıda deyilənlərdən aydın olur ki, orta əsrlərdə fəlsəfə və dəqiq elmlərin öyrənilməsi və bu sahədə alimlərin nəzəri-əməli fəaliyyətləri üçün mədrəsələr nəzdində "Dar oş-şəfa və həkimlik", "rəsədxana və münəccimlik" örtüyündən istifadə olunurdu. Görəsən, orta əsrlərdəki bu kimi elm-tədris ocaqlarına, sadəcə olaraq, mədrəsə, xəstəxana, yaxud rəsədxana deyilməsi ilə əsl həqiqət əks etdirilirmi? 1637-ci ildə Şamaxıda olmuş alman diplomatı və alimi A.Olearyusun aşağıdakı sözləri bəhs etdiyimiz məsələ baxımından əhəmiyyətlidir. A.Olearyusun səyahətnaməsinin 1727-ci il Amsterdam nəşrində oxuyuruq: "Elmləri öyrənmək üçün onların (farslar və azərbaycanlıların) kollec və akademiyaları vardır. Bunları (kollec və akademiyaları) mədrəsə adlandırırlar". Bu sözlər tamamilə əsaslıdır. Çünki bəzi orta əsr mədrəsələrinin nəzdində, həqiqətən, rəsədxana, dar oş-şəfa və kitabxanalar təşkil edilirdi. Bu kimi təhsil ocaqları, əslində, dövrün tanınmış alimlərinin elmi-pedaqoji fəaliyyətlərini birləşdirən mərkəzlər idi. Buna misal olaraq, "Şənb-e Qazan", "Rəb-e Rəşidi" və "Sultaniyyə" mədrəsələrini göstərmək olar.

Təbrizdə yerləşən Şənb-e Qazan təhsil müəssisəsi kompleksi (tikintisi 1302-ci ildə başlanmışdır) məscid came, xanegah, iki mədrəsə, dar oş-şəfa, rəsədxana, beyt ol-kotob, kitabları və rəsədxana cihazlarını təmir edən emalatxana, məktəbxana, körpələr evi, mədəni-məişət ocaqları və müdiriyyət evindən ("Dar ol-siyadət") ibarət olmuşdu. Həmin maarif ocağından "Həbib os-siyər…" əsərində söhbət açan Xandəmir (1475 – 1534) yazır: "Qazan xan həm də əmr vermişdir ki, burada (Şənb mədrəsələrində) dövrün ən yüksək və kamil alimləri və filosofları mənsəb sahibləri olsunlar. Onlar həmişə burada sakin olub üzürsüz ğayib olmasınlar".

Vaxtilə nəhəng elmi-pedaqoji mərkəz olmuş Təbriz Rəb-e Rəşidi Universiteti (tikintisi 1299-cü ildə başlanmışdır) və Təbriz Şənb-e Qazan təhsil ocağı eyni quruluşa malik olmuşlar.

Məxəzlərdə “Xeyriyyə kompleksləri”, yaxud mədrəsə ünvanı ilə qeydə alınmış orta əsrlərin bu təhsil müəssisələri özlərinin elmi-pedaqoji fəaliyyətlərinin xüsusiyyətlərinə görə adi mədrəsə çərçivəsindən çıxaraq A.Olearyusun çox düzgün müəyyənləşdirdiyi akademiya tipli elm ocaqlarına çevrilmişlər. XIII əsrin ikinci yarısı və XIV əsrin əvvəllərində Azərbaycanda bu kimi elmi-pedaqoji müəssisələr sisteminin yaranması XI əsrdən genişlənməyə başlayan elm və maarif müəssisələrinin tədrici inkişafının nəticəsi idi. Lakin bu da inkaredilməzdir ki, onlar quruluş və iş qaydaları etibarilə Nəsirəddin Tusinin 1259 – 1273-cü illərdə rəhbərlik etdiyi rəsədxana adı ilə məşhur olan Marağa elm ocağının təsiri altında ortaya çıxmışlar. Təəssüf ki, həmin müəssisənin vəqfnaməsi bu günə qədər əldə edilmişdir. Bu barədə məxəzlər də susur. Buna görə də onun quruluşu və iş qaydaları haqqında ilk sənədli və dəqiq məlumat hələlik məlum deyil. Ancaq ayrı-ayrı faktların təhlilinə əsasən inamla demək olar ki, bundan əvvəl adlarını qeyd etdiyimiz XIII – XIV əsr Təbriz və Sultaniyyə təhsil müəssisələri elmi-pedaqoji quruluşca Tusinin başçılıq etdiyi Marağa elm ocağını təqlid etmişlər. Marağadakı bu mədrəsə-rəsədxana kompleksinin tikintisi 1259-cu ildə görkəmli Marağa memarı Əbülsəadət Əhməd ibn Osmanın rəhbərliyi altında başlanmışdır.

Tusinin Marağada təsis etdiyi rəsədxana Şərqdə ilk akademiya hesab olunur. Bu rəsədxanada dövrün bir sıra görkəmli alimləri fəaliyyət göstərmişlər. Onların fəlsəfə, astronomiya, riyaziyyat, və s. elmlər haqqında kəşfləri və yenilikləri öz aktuallığını bu gün də saxlamaqdadır. Tusinin “Zici-Elxani” əsəri planetlərin və səma cisimlərin öyrədilməsinə həsr edilmişdir.

N.Tusinin “Zic-e Elxani” əsərinin müqəddiməsindəki qeydlərindən bilinir ki, o, müəssisənin elmi rəhbəri təyin edilmiş, Yaxın və Orta Şərq ölkələrinin, eləcə də Azərbaycanın tanınmış alimləri və müdərrisləri burada işləməyə cəlb olunmuşdu. Onun sözləri belədir: “Hülakü…. bütün sahələr üzrə mahir sənət xadimlərini təşviq etdi. Tusdan olub mülhidlər vilayətinə düşmüş mən bəndə Nəsiri azad etdi, ulduzları rəsəd (müşahidə) etməyi buyurdu və münəccimliyi

bilən alimləri, o cümlədən Moəyyedəddin əl-Ərəzini Dəməşqdən, Fəxrəddin Mərağini Mosuldan, Fəxrəddin Xlatini Tiflisdən və Nəcməddin Dəbirani Qəzvindən tələb etdi… Bağdad, Şam, Mosul və Xorasandan kitabları (həmin şəhərlərin kitabxanalarındakı əlyazma fondlarını) gətirməyi əmr verdi”. Xandəmirin “Həbib os-siyər fi-əxbar ol-bəşər” əsərində göstərilir ki, bu mədrəsə-rəsədxanada işləyən alimlərin bir çoxu müxtəlif elmi sahələr üzrə mütəxəssislər olmuşlar. Məsələn, Moəyyedəddin əl-Ərəzi həndəsə və rəsədxana alətləri üzrə, Fəxrəddin Xlati riyaziyyat, Nəcməddin Dəbiran və Qotbəddin Şirazi fəlsəfə-məntiq üzrə mütəxəssis idilər.

Marağa mədrəsə-rəsədxana kompleksini təşkil edən müəssisələrdə iş elmi tədqiqat və pedaqoji istiqamətdə aparılmışdır. Buradakı mədrəsələr bəzi mənbələrdə, o cümlədən İran tarixçisi Rza Əmin Sübhanının “Vəch-e təsmiye-ye mədarese Təbriz”[1] adlı əsərində universitet adı ilə qeydə alınmışdır: “Xacə (Tusi) müxtəlif elmlərin tədrisi üçün mədrəsələr təsis etdi… tələbələrə təqaüd müəyyənləşdirdi”.

Mədrəsələrdə fəlsəfə, məntiq, tibb, ədəbiyyat nəzəriyyəsi və ilahiyyat tədrisi üçün istifadə olunmuş kitablar arasında aşağıdakılarda var idi:

1) “Şərh-e hekmət ol-eşraq-e Şəhabəddin Sührəverdi”
2) “Şərh-e kolleyyat-e Qanun-e ibn Sina”
3) “Şərh-e Meftah ol-olum-e Səkkaki”
4) “Dorra-t-ot-tac”
5) “Cameol-osul fi əhadis ər-rəsul” və s.

Burada ayrı-ayrı elm sahələri üzrə tədqiqat aparılmasına əlverişli şərait yaratmaq məqsədilə 400 minlik nadir əlyazmaları fonduna malik böyük bir kitabxana təşkil edilmişdi. Orta əsrlərdə bu kimi elmi kitabxanalara “Fəlsəfə evi” (“Dar ol-hekmə”, “Dar ol-elm”, “Beyt ol-hekmə”, “Xəzanə-t-ol-hekmə”) deyilirdi. Onların müdirləri (“xazinlər”) alimlər sırasından təyin edilirdi. İlk “Dar ol-hekmə” Harun-ər Rəşid (787 – 809) tərəfindən Bağdad şəhərində təsis edilmişdir. Burada qədim yunan kitabları ərəb dilinə tərcümə edilir və çoxaldılırdı. Kitabxananın fondunu əsasən fəlsəfə və dəqiq elmlərə

[1] Rza Əmin Sübhanı “Vəch-e təsmiye-ye mədarese Təbriz”. Təbriz, 1958

aid kitablar təşkil edirdi. Yaxın və Orta Şərq ölkələrinin alimləri uzun müddət Bağdaddakı “Dar ol-hekmə”dən elmi mərkəz kimi istifadə etmişlər. Əhməd Əmin Misri “Zoha ol-eslam” əsərində yazır: “Bu kitabxana (Bağdad “Dar ol-hekmə”si) Hülakünün hücum etdiyi ilə qədər (1258) əvvəllərdə olduğu kimi qalmışdı». Həmin ildə N.Tusi də Bağdadda olmuş, çox ehtimala görə, “Dar ol-hekmə”ni görmüşdür.

Marağanın mədrəsə-rəsədxana kompleksindəki kitabxana (“Dar ol-elm”, ya “Dar ol-hekmə”) da dövrün ən mühüm elmi mübahisələr, mütaliə, tədqiq və təlif mərkəzi idi.

İlk mənbələrə və elmi-tədqiqat əsərlərindəki müvafiq materiallara istinadən deyə bilərik ki, rəsədxananın özündə fəlsəfə, riyaziyyat və nücum elmi tədris edilmiş, riyaziyyat və astronomiya elmlərinə aid qədim yunan müəlliflərinin, eləcə də Yaxın və Orta Şərq alimlərinin əsərləri öyrənilmişdir. XIII əsrə qədər Şərq astronomları tərəfindən tərtib edilmiş astronomik kataloqlar və cədvəllər dəqiq və ardıcıl elmi planda təkmilləşdirilmişdir. Bu baxımdan, “Zic-e Elxani” adlanan astronomik kataloqun tərtib edilməsini qeyd etmək olar. Burada ulduzların hərəkətlərinin yeni cədvəli tərtib edilmişdir. “Zic-e Elxani”yə əlavə olunmuş xüsusi bir cədvəldə isə istinad ulduzların eleptik koordinatları dəqiqləşdirilmişdir.

Müəssisənin elmi rəhbəri N.Tusinin “Şəkl ol-ğeta” kitabında nisbətlər nəzəriyyəsi ardıcıl olaraq inkişaf etdirilmiş, tam dördtərəflilərin nəzəriyyəsi tamamlanmışdır. Bundan başqa, müstəvi və sferik üçbucaqlıların həlli üsulları müfəssəl şərh olunmuş və bir sıra mühüm riyazi çətinliklər həll edilmişdir. “Şəkl ol-ğeta” kitabında birinci dəfə olaraq triqonometriya müstəqil riyazi fənn halına salınmış və sferik triqonometriya inkişaf etdirilmişdir.

Şardən yazır: “…Rəsədxanada Nəsirəddin Tusinin və digər alimlərin səyi ilə… astronomiya və riyaziyyat ilə əlaqədar olan bir çox çətin və naməlum məsələlərin həll edilməsinə nail olunmuşdur. Həmin məsələlər barədə müasir dövrün alimləri[1] cildlərlə kitab yazmışlar”.

---

[1] yəni Avropa alimləri

Marağa elmi-pedaqoji müəssisələr kompleksində işləyən Azərbaycan və digər Şərq ölkələrindən gələn alimlərinin birgə yaradıcılıq işləri dünya fəlsəfəsi və riyazi elmlərinə təsir göstərmişdi. Təəssüflər olsun ki, biz Nəsirəddin Tusinin bir neçə əsəri ilə tanışıq. Fəlsəfə, məntiq və sair elmi sahələrə aid Qotbəddin Şirazi, Nəcməddin Dəbiran tərəfindən yazılmış "Dorrə-t-ot-tac", "Şərh ol-meftah", "Şəmsiyye", "Came od-dəğayeğ" və bu kimi Marağa elm ocağının digər alimlərinin əsərləri də, demək olar ki, tədqiq edilməmiş, yenilikləri işıqlandırılmamışdır.

Yuxarıda deyilənlərdən məlum olur ki, N.Tusinin rəhbərlik etdiyi "rəsədxana" adı ilə məşhur olmuş XIII əsr Marağa elm ocağı, əslində, astronomiya, riyaziyyat, eləcə də fəlsəfə üzrə dövrün mütəxəssis alimlərinin elmi-tədqiqat və pedaqoji fəaliyyətlərini birləşdirən müəssisələr kompleksi olmuşdur. Bu cəhətdən, ona sadəcə olaraq "rəsədxana" deyilməsi ilə həqiqət tam əks etdirmir. Müəssisənin xüsusiyyətləri onun orta əsr Elmlər Akademiyası sayılması üçün qənaətləndirici əsas verir. Yəqin buna görədir ki, Şardən də Olearyus kimi, sonralar Marağa elm ocağı kimi təşkil edilmiş Azərbaycanın bəzi mədrəsələrini «akademiyalar» hesab etmişdir.

Deyilənlərə və faktlara əsasən, bu gənaətə gəlirik ki, Azərbaycanda ilk akademiyanın bünövrəsi 723 il bundan əvvəl qoyulmuş və bu tarixi hadisə N.M.Tusinin adı ilə bağlıdır.

Marağa Elmlər Akademiyası dünya elm və mədəniyyət tarixində orta əsrlərin nümunəvi akademiyalarından biri olmuşdur. Bu nəhəng müəssisənin ətraflı tədqiq edilməsi vacibdir.

# LÜĞƏT

| | |
|---|---|
| alban əlifbası | Alban əlifba sistemi V əsrin əvvəllərində icad edilmişdi. V – VI əsrlərdə Azərbaycanın şimal əyalətlərində yazı üçün Runi əlifbasının (qədim Türk Əlifbası) tətbiq edilməsi ehtimal olunur. Lakin bu əlifbanın məktəbə nüfuz etməsi barədə hələlik heç bir məlumat əldə edə bilməmişik. |
| bəvvab | xidmətçi |
| darül-elm | elm evi |
| darüttəhsil | elmlər evi və ya akademiya |
| darül-ülum | bax: darüttəhsil |
| dəbir | mirzə, katib |
| əbcəd | əlifba |
| əhadis | hədislər |
| əxbar | xəbərlər |
| əmsal | misil, formul |
| əşar | şeirlər |
| fiqh | din elmi, şəriət qanunları |
| fükaha | Hüquqşünas |
| Həqaiqi | Xaqani Şirvaninin təxəllüsü |
| xəzinətül-hikmə | müdriklik, aqillik xəzinəsi |
| iksir | maddə |
| kəlam, imla, kərura | heybə, çanta |
| Qaf | Qafqaz dağı |
| qələm | qəmişdən və ya ləlƏkdən hazırlanan |
| məqul | söylənmiş, deyilmiş |
| mənqul | söz, xəbər |
| mübəlliğ | hərfi tərcüməsi: təbliğ edən, çatdıran |
| müəllümül-qüttab | məktəb müəllimi |
| mürəbbi | tərbiyəçi |
| nəhv | sintaksis |

| | |
|---|---|
| nəsayeh | nəsihətlər |
| nəsturi | xristian məzhəblərindən biri |
| pəhləvi ədəbiyyatı | Qədim fars dilində yazılmış əsərlər Pəhləvi ədəbiyyatı adlandırılır. Bu əsərlər sırasında əsasən Sasanilər dövründə (226-651) yazılmış bəzi əsərlər bizə qədər gəlib çatmışdır. Mövcud Pəhləvi ədəbiyyatının miqdarı 66 addan artıq deyildir. Pəhləvi ədəbiyyatının mətnlərini təşkil edən sözlərin ümumi miqdarı da müəyyənləşdirilmişdir.<br>Mövcud Pəhləvi ədəbiyyatı sırasında bəzi nəsihətnamələrə də rast gəlmək olur. Bu nəsihətnamələr əsasən dövlət xadimləri və ya Sasani dövrünün ruhaniləri tərəfindən yazılmışsa da, Sasani dövlətinin şimal vilayəti tərkibinə daxil olan Avesta Azərbaycanında, istərsə də Avesta İranında zoroastrizm dini ilə səciyyələnən mövcud ictimai şüur və düşüncənin inikasını verərək o zamankı hakim dairələrin maarif və əxlaqa qarşı olan münasibətini və tələbatını bildirir. |
| Sam, Zal | Firdövsinin “Şahnamə” əsərindəki surətlərdir. |
| sərf-nəhv | qrammatika |
| təkfir | kafir adlandırma, kafir olduğuna hökm vermə |
| tələbətül-elm | bilik evi |

# ƏDƏBİYYAT

1. Mollayev İ.A. Orta əsr Azərbaycan mütəfəkkirləri təlim-tərbiyə haqqında. Bakı, 1966

2. Sultanov M. Əvhədi Marağalı və onun "Cami-Cəm" əsəri//Marağalı Əvhədi. Cami-Cam. Poema. Bakı, 1970

3. Abbasov Ə., Araslı H. Nizami Gəncəvinin "İskəndərnamə" poeması. Bakı, Azərbaycan Mea, 1966.

4. Azadə R. İbrahimov M. Nizami Gəncəvi. Həyatı və sənəti. Bakı, Elm, 1979.

5. Araslı H. Xaqani Şirvani. Şairin həyatı və zəngin ədəbi irsi haqqında. Bakı. Yazıçı, 1982

6. Bakıxanov A. Hüssənül-əcam Xəqani Şirvani. "Gülüstani-İrəm" kitabında, Azərb.SSR EA nəşr., 1951, s. 208-210

7. Eyvazov F. Dahi alim və filosof Məhəmməd Nəsirəddin Tusinin anadan olmasının 750 illiyinə. Bakı, Gənclik, 1981

8. Əlimirzəyev X. Xaqani yaradıcılığında dünyəvilik. "Elm və həyat" jurn., 1977, 34. s. 30-31

9. Hüseynov S. İntibah dövrünün böyük şairi. "Ədəbiyyat və incəsənət", 1979, 22 iyun, s. 6

10. Hüseynzadə L. Xaqani Şirvani. "Ədəbiyyat və incəsənət" 1954, 16 oktyabr

11. Hüseynzadə R.L. Erkən orta əsrlər dövründə Azərbaycan-da məktəb və pedaqoji fikir. Bakə, Elm, 2005

12. Xəlilov N. Ə. Xaqaninin əxlaqi-tərbiyəvi fikirləri. Azər-baycan dili və ədəbiyyat tədrisi (metodik məcmuə). 1983, № 4, s. 48-52

13. İbrahimov M. Xaqaninin həyatı və estetik idealı. "Azər-baycan" jurn., 1980, №7, s. 139-150

14. Kəndli H. Xaqani Şirvani. Həyatı, dövrü və mühiti. Bakı, Elm, 1988

15. Qarabağlı Ə. Azərbaycan ədəbiyyatının tədrisi metodika-sı. Bakı,

16. Mollayev İ.A. Orta əsr Azərbaycan mütəfəkkirləri təlim-tərbiyə haqqında. Bakı, Maarif, 1996
17. Abdullayev H.B., Vəliyev L.M. Nizami Gəncəvinin elm dünyası. Bakı, Azərnəşr, 1991.
18. Kərimli T.H. Nizami və tarix. Bakı, Elm, 2002
19. Bakıxanov A. A. Gülüstani-İrəm. Bakı, 1951
20. Balasaqunlu Y. Kutadqu bilik (Xoşbəxtliyə aparan elm). Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994
21. Qacar Ç. Qədim və orta əsrlər Azərbaycanın görkəmli şəxsiyyətləri. Bakı, Nicat,
22. Dadaşzadə M. Azərbaycan xalqının orta əsr mədəniyyəti. Bakı, Elm, 1985
23. Əhmədov H. M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı, Təhsil, Elm, 2001
24. Həbibbəyli İ.Ə. Naxçıvanda elm və mədəniyyət / Azərbaycan tarixində Naxçıvan. Bakı, 1999
25. Xacə Nəsirəddin Tusi. Əxlaqi Nasiri. Bakı, Elm, 1989
26. Xəlilova S.V., Cəfərov R.S. Avesta əlifbası haqqında bəzi qeydlər / Ali pedaqoji məktəblərdə humanitar və ictimai elmlərin tədqiqi və tədrisinə dair II Respublika elmi konfransının materialları. 1997, 27-28 aprel
27. Kərəmov N. Odlar yurdunun səyyah və coğrafiyaşünasları. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1984
28. Qaralov Z. Nəsirəddin Tusinin elmi-pedaqoji irsinin öyrənilməsi haqqında // Azərbaycan məktəbi, 2001, № 1
29. Mahmudov M. Xətib Təbrizi. Həyat və yaradıcılığı. Bakı, Elm, 1972
30. Mehdiyev N. Orta əsrlər Azərbaycan estetik mədəniyyəti. Bakı, Elm, 1988
31. Muradxanov M.Ə. N.Gəncəvinin pedaqoji fikirləri. Ped. elm. dokt... dis. Bakı, ADU, 1943
32. Mollayev İ.A. XIII – XIV əsr Azərbaycan mütəfəkkirlərinin tərbiyə haqqında fikirləri. Pedaqoji elm. dokt... dis. Tbilisi, 1987.

33. Rüstəmov F.A. Ibn Sinanın pedaqoji fikirlərinə dair // Azərbaycan məktəbi jurnalı. Bakı, 2001, № 6, s. 74-78.
34. Rüstəmov F.A. Şərqdə pedaqogika tarixi. Bakı, Nasir, 2002
35. Sadıqzadə F. Qətran Təbrizi. Bakı, ADU-nun elmi əsərləri, 1961
36. Talıbov Y.R., Sadıqov F.B, Quliyev S.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı, Ünsiyyət, 2000
37. Vəlixanlı N. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, Elm,
38. Yusif Balasaqunlu. Qutadqu bilik. Xoşbəxtliyə aparan elm. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994
39. Zəkuyev Ə. K. Bəhmənyarın fəlsəfi görüşləri. Bakı, ASE, 1978
40. Şərifli M. X. Azərbaycan IX – XII əsrlərdə. Az. SSR EA. Tarix İnstitutunun əsərləri. 1957

# MÜNDƏRİCAT

GİRİŞ ........................................................................................ 3

AZƏRBAYCAN ƏDƏBİYYATI TƏDRİSİNİN QAYNAQLARI . 6

XI – XII ƏSR AZƏRBAYCAN MÜTƏFƏKKİRLƏRİNİN ELMİ-PEDAQOJİ GÖRÜŞLƏRİ ............................................................ 34

XIII – XIV ƏSRLƏRDƏ MƏKTƏBLƏRİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI ........................................................ 67

AZƏRBAYCANDA DÜNYƏVİ MƏKTƏBLƏRİN YARANMASI TARİXİ (VIII – XVIII əsrlər) ......................................................... 84

ORTA ƏSR MÜTƏFƏKKİRLƏRİ ................................................ 93

AZƏRBAYCANDA İLK AKADEMİYA .................................... 122

LÜĞƏT ...................................................................................... 128

ƏDƏBİYYAT .............................................................................. 130

**Səməngül Qafarova, Ellada Gərayzadə**
Azərbaycan ədəbiyyatının tədrisi tarixi
*Dərs vəsaiti.*

Bakı – Mütərcim – 2010

Çapa imzalanıb: 05.10.2010.
Format: 60x84 1/16. Qarnitur Times.
Həcmi: 8,5 ç.v. Tiraj 100. Sifariş № 88.
Qiyməti müqavilə ilə.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks (99412) **596 21 44**
e-mail: mutarjim@mail.ru